[36] Vügar ORHAN. Avrupa Parlamentosu Ermeni lobisini Hayal Kırıklığına Uğrattı "525-ci qezet", Bakü, 26 Eylül 2006.
[37] http://en.wikipedia.org/wiki/Armenian_Revolutionary_Federation

dünyaya duyurulması işinin geliştirilmesi gereksinimi; Azerbaycan ve Türk diasporalarının yerleştikleri ülkelerin sosyal ve siyasal hayatına katılımının artırılması;

2. Ekonomik alanda - Azerbaycan ve Türkiye'nin ortak ekonomik çıkarları; her iki ülkenin katılımı ile gerçekleştirilen global önem taşıyan projeler; ekonomik gelişim modelleri arasındaki benzerlikler, serbest piyasa ekonomisinin geliştirilmesi, bunun için hukuki temelin iyileştirilmesi, iç ve dış yatırımların teşvik edilmesi konusunda çabaların birleştirilmesi eğilimi; diğer ülkelerde çalışan Azerbaycanlılar ile Türk iş adamları arasında ilişkilerin kurulması ve bunların her iki ülke ekonomisine sermaye kazanımı gereksinimi; diğer ülkelerdeki Azerbaycanlılar ile Türk iş adamlarının yerleştikleri ülkelerin ekonomik hayatında mevkilerinin güçlendirilmesi;

3. Sosyokültürel alanda – Etnik bağlılık; Bir dine ait olma; Aynı milli köklere sahip olma; Diğer ülkelerde yaşayan Azerbaycanlılar ve Türklerin bulundukları topluma entegrasyonu sürecinde ortaya çıkan manevi-psikoloji engeller; diğer ülkelerde yaşayan Azerbaycanlılar ile Türklerin sosyal güvencesi; diğer ülkelerde yaşayan Azerbaycanlılar ve Türklerin temel insan haklarının ve temel özgürlüklerinin sağlanması; diğer ülkelerde yaşayan Azerbaycanlı ve Türklerin örgütlenme sürecinin hızlandırılması gereksinimi; Eğitim, milli-kültürel mirasın, öz dillerinin öğrenilmesi sürecinde ortaya çıkan problemlerin beraber çözülmesi, yabancı ülkelerde eğitim alan Azerbaycanlı ve Türkiyeli öğrenciler arasında ilişki kurulması gerekliliği[38].

Bu işbirliğinin gerekli ve önemli olduğu açıktır. Bunun önemi ister devlet adamları isterse de değişik insanlar tarafından defalarca vurgulanmıştır. Cumhurbaşkanı İlham Aliyev 18 Eylül 2006'da "Türk dilli Devlet ve Toplulukların 10. Dostluk, Kardeşlik ve İşbirliği Kurultayı'ndaki konuşmasında zamanı şöyle söylemişti: "… Bizim yabancı ülkelerdeki faaliyetimizin daha yüksek düzeyde kurulması gerektiğini bir kez daha belirtmek istiyorum. Şu bakımdan diaspora teşkilatlarının faaliyetine büyük önem verilmelidir. Diaspora teşkilatlarımız yabancı ülkelerde sıkı bir işbirliği içindeler. Düşünüyorum ki, biz gelecek sene Türkiye ve Azerbaycan diaspora teşkilatlarının yönetim kurulu toplantısı geçirilmesini meselesini gözden geçirmeliyiz. Teklif ediyorum ki, gelecek senenin ilk yarısında Azerbaycan'da ilk forumu gerçekleştirelim ve Türkiye ve Azerbaycan diaspora teşkilatlarının faaliyetini birlikte değerlendirip onları tekrar yönlendirelim"[39].

Diasporaların işbirliği sadece Azerbaycan'ın değil Türkiye'nin de yararınadır. Ermeni lobisinin Türkiye aleyhine yönelmiş faaliyeti bunu bir daha ispat etmektedir.

Azerbaycan Cumhurbaşkanı İlham Aliyev'in teşebbüsü ile 9 Mart 2007'de Bakü'de Dünya Azerbaycan ve Türk Diasporası Teşkilatları başkanlarının 1. Forumu gerçekleştirildi. Toplantıya toplam 48 ülkeden 513 kişi katılmıştı. Bunlardan 173'ü Azerbaycan, 140'ı Türkiye, 14'ü Ahıska, 22'si Irak, 5'i Kuzey Kıbrıs diasporasının temsilcileriydi[40].

Forumun sonunda Azerbaycan ve Türk Diasporası Teşkilatlarının beraber çalışma stratejisi belirlenmiştir. Baku Beyannamesi, Azerbaycan ve Türk Diasporası Teşkilatları Başkanlarının 1. Formu'nun Türk Halklarına Müracaatı, Ermenistan-Azerbaycan, Dağlık Karabağ sorunu ile ilgili dünya toplumuna, uluslararası

[38] Azerbaycan ve Türk Diaspora Beraber Faaliyet Stratejisi. Bakü: Çaşıoğlu, 2007, s. 44.
[39] Türk dilli Devletlerin ve Toplulukların 10. Dostluk, Kardeşlik ve İşbirliği Kongresi / www.president.az/s09_speeches/_speech_a.html
[40] Aliyev Z. Diaspora: Açıklamalı Sözlük ve Bilgi Kitabı. Bakü: Yurt, 2007, s.376.

kurumlara, yabancı ülkelerin parlamentolarına, devlet ve hükümet başkanlarına çağrısı, 1915. yıl hadiseleri ile ilgili Ermeni iddiaları konusunda beyanat kabul edildi.

SONUÇ

Azerbaycan ve Türk diaspora teşkilatının birlikte çalışma stratejisinin kabul edilmesi her iki devlet için hayati önem taşıyan tarihi bir olaydır. Birlikte çalışma stratejisinin esas istikametleri şunlardır: siyasal alanda, ekonomik ve sosyal alanlarda, kültür ve turizm alanlarında, diaspora kuruculuğu alanında, lobi kuruculuğu alanında, propaganda alanında, insan hakları ve özgürlüklerinin sağlanması alanında, gençlerle çalışma ve eğitim alanında. Belirtilen alanlarda sıkı işbirliğini temin etmek için Azerbaycan ve Türk diasporası teşkilatının Koordinasyon Komisyonu kurulmuştur. Komisyon bu strateji çerçevesinde kabul edilmiş tedbirlerin gerçekleştirilmesini ayarlayacak, Azerbaycan ve Türk diaspora teşkilatları başkanlarının bir sonraki forumuna kadar görülen işler konusunda rapor hazırlayacak. Koordinasyon Komisyonun üyeleri yabancı ülkelerde çalışan Azerbaycan ve Türkiye kökenli Türk topluluklarının önderleri arasından seçilir. Aynı zamanda Komisyon işinin kurulması, üyelerin faaliyetinin ilişkilendirilmesi amacıyla kurul başkanlığı enstitüsü oluşturulmuştur, burada iki kurul başkanı rotasyonla Avrupa, Amerika, Bağımsız Devletler Birliği sınırları içerisinde faaliyet gösteren Azerbaycan ve Türk diaspora teşkilatı yöneticilerinin arasından seçilir.

Sonuç olarak, Azerbaycan ve Türk diasporalarının çok yönlü işbirliği her iki ülkenin milli çıkarlarına uygundur ve Ermeni diasporasıyla mücadelede ek üstünlükler yaratmaktadır. Aynı zamanda bu işbirliği sürecinde Yahudi Lobisinin imkanlarından yararlanmak oldukça önemlidir ve bunun için ciddi bir engel bulunmamaktadır.

KAYNAKÇA:

Ali Mesimov. Bağımsızlık yıllarında Azerbaycan-Türkiye İlişkileri. Avrasya Dosyası, Azerbaycan Özel, İlkbahar 2001, Cilt 7, Sayı 1, ss.274-285.

Ayhan Demirci. Azerbaycan Türkiye Askeri İşbirliği. Bakı Strateji Araştırmalar Merkezi, 24.11.2008 (http://www.baksam.com/news/2008-11-24-87).

Azerbaycan – Türkiye: bir millet, iki dövlət. Bakü: Çaşıoğlu, 2007, s. 120.

Azerbaycan Cumhuriyeti Bilimler Akademisi İnsan Hakları Enstitüsü. Ermeni Terörünün Kurbanları // Uyanış XXI Asır dergisi, 2001, № 37, s. 29–49.

Azerbaycan ve Türk Diaspora Beraber Faaliyet Stratejisi. Bakü: Çaşıoğlu, 2007, s. 44.

Azerbaycan ve Türkiye Prezidentlərinin birge metbuat konfransı. Bakü: 6 Kasım 2007. AzerTAc.

Emin Gürses, Kafkasya'da Uluslar arası Rekabet, Avrasya Dosyası, Azerbaycan Özel, İlkbahar 2001, Cilt 7, Sayı 1, s. 253.

Hacı Cihangir Cihangirli. Azerbaycan – Türkiye. Bakü: Çaşıoğlu, 2004, s. 104.

http://en.wikipedia.org/wiki/Armenian_Revolutionary_Federation

İlqar Ceferov. Azerbaycan Respublikası Konstitusiyasının şerhi. Bakü: Hüqüq edebiyyatı, 2003, s. 552.

Kamer Kasım. 11 Eylül Sürecinde Kafkasya'da Güvenlik Politikaları. Orta Asya ve Kafkasya Araştırmaları, 2006, Cilt 1, No 1, ss.19-35.

Merve İrem Yapıcı. Kafkasya'nın Sorunlu Bölgesi: Güney Ostya. Orta Asya ve Kafkasya Araştırmaları, 2007, Cilt 2, No 3, ss.71-104.

Qarabağ problemi həllini tapmayınca Türkiyə Ermənistanla sərhədlərini açmayacaq. 5 Ekim 2007. http://anspress.com/

Şenol Kantarcı. ABD ve Kanada'da Ermeni Diasporası: Kuruluşlar ve Faaliyetler, Ermeni Araştırmaları Dergisi, 2001, Sayı: 3, s. 65-115.

Türk dilli Devletlerin ve Toplulukların 10. Dostluk, Kardeşlik ve İşbirliği Kongresi /

Vügar Orhan. Avrupa Parlamentosu Ermeni lobisini Hayal Kırıklığına Uğrattı "525-ci qezet", Bakü, 26 Eylül 2006.

Z. Aliyev. Diaspora: Açıklamalı Sözlük ve Bilgi Kitabı. Bakü: Yurt, 2007, s.376.

ESKI TÜRK ORHAN-YENISEY ALFABESINDEN YARANAN MOTIF VE NAKIŞLAR - Matanat ALIYEVA AZIZ KIZI[41]

ÖZET

Türk kültürüne ait olan motif ve nakışların kaynağını araştırırken, eski türk harflarının motif kaynağı olarak deyerlendirildiyi aşkarlanır. Türklerin Orhun Yenisey Alfabesi harflarından yaptıkları motif ve nakışlar evrensel sırları ve gizli iletişimi sağlayan arac olarak kullanılmıştır. Türklerin kozmik aleme olan ilgisi motiflerin çeşit farklılıklarını oluşturmuştur. Türk harflarından oluşan nakışlar sade, birleşmeli, sahanı-alanı kapsayan ve sağa-sola çember radyusu büyunca dönerek yeni cizgi, tasvir oluşturan nakışlar oluyor. Motiflerde ifade edinen; Nokta, Harf, Basit Harf Birleşimleri, Birleşmiş Harf Birleşimleri, Saha-Alan Birleşimleri Evrenin, heçden var olduğunu ve vahit bir noktadan, yani sifir başlangıcdan oluştuğunu bizlere anlatmaktadır. Bu birleşimlerin sağa-sola, yukarı-aşagı egilimlerle dokunulmasında var olan alemin her bir zerresinin birbiriyle ilişkide olduğu ve bu ilişkilerden ise yenilerinin doğması ifade ediliyor. Yani bu motiflerden alınan nakışlarda alemin her zaman bütün bir Varlık olduğu gösterilmektedir.

Harfların motifleşmesi onların şekil deyişerek günümüze kadar kendini yaşatması gibi deyerlendirilir. Harfların motif- nakış olması doğanın ölüp-dirilme sistemine uyum sağlıyor.

Nahışların insanlar tarafından bir güzellik simgesi gibi deyerlendirilerek, mahiyyetinin gizli kalması onun yaratıcı faktörünün öyrenilmesine imkan sağlamır. Mahiyyeti gizli kaldığı için nakışların gittikce farklı hale gelmesini engellemek gerekir. Bunun için ise kültür deyerlerimize bilgili olarak sahiplenmeliyik.

Açar sözler; Orhun-Yenisey alfabesi, harf, motif, nakış, evrensel, sırr, model, Bütün Varlık

Eski zamanlar insanlar duygularını çeşitli yollarla dışa vurarak örf ve kültürlerini geliştirmişler. Eski Türk insanları duydukları doğal titreyiş ve seslere iç duygularını da ilave ederek müziyi geliştirmiş ve bu müzikleri topluma aktaran gopuz yapmışlar. İnsan duyguları sözle ifade edilince şiirlere, öykülere dönmüş ve müzikle birlikte ifade edilirken destanlar oluşmuştur.Yaşam gelişmelerle devam etdiyi için insanoğlu hep arayışda olmuş, şu nedenle türk insanı duygularını ifade etmeye yeni nesneler aramış ve bulduğunun biri de motifler olmuştur.

İç duyguların ifadeçisi olan motiflerin çeşitli türleri ve nevleri oluşturulmuşturki bunların en yaygını ipliklerle- hörgü ile yapılan nakışlardır. Boyanarak çeşitli rengleri kendinde toparlayan iplikler, nakışların gücüyle halılar, kilimler, dikmeler ve başka çeşitli eşyalara dönmüştür. Bu nakışları oluşturan motiflerin kaynağı ise doğadakı inanc simgeleri olan ağac, su, ateş veb. bu gibi nesnelerin resmlerinden alınmıştır. Türk insanı kullandığı eski Türk harflarını da, motif kaynağı olarak deyerlendirmiş, evrensel sırları ve gizli iletişimi sağlayan arac haline getirmişler. Eski türk harflarından, söz ve söz birleşmelerinden alınan motif ve nakışlar kendi ortamlarında çeşit farklılıkları oluşturmuşlarki bunun da sırrı Türklerin kozmik aleme olan ilgisi olmuştur.

Evrensel bakışları olan Türkler mevcut alemin hareketliliyini kabul ederek, her nesnenin hareketde bulunarak bir cizim cizdiyini anlamış ve onu görüntülemeye çalışmışlar. Bu sabepten de Eski Türk harfları ile dokunan nakışlar sadece bir resm

[41] Büyük bilim işcisi, Azerbaycan Dövlet İktisat Üniversitesi, Bakü/AZERBAYCAN.

deyil, aynı zamanda mana taşıyıcısı olmuşlar. Nakışlara dökülen her bir harf bir, ya da bir kac fikir ifade etme gücüne sahip olduğu için, harf birleşimlerinde tam olarak bir olayın-hadisenin izahı bulunuyor. Eski Türkler harfları çeşitli yönlere yönlendirilerek Evrenin hareket cizimini görüntülemeye ve evrendeki deyişikliyi motiflerle ifade etmeye çalışmışlar. Bu istekler sonucu alemdeki gelişmeni, yeni yaratılıkların yaranma sürecini ve alemdeki her şeyin bir başlangıctan geldiyini motiflere dökmüşler. Yani motifler Evrenin hareket cizimini insanlara anlatan küçük ayna bölümleri olmuştur. Bu küçük bölümlü aynaları bütünleşdirip bir ayna halına salmanın yolu ise, eski harfları ifade eden motiflerin bir arada toparlanmasindan geçiyor.Yani bu motif ve nakışlar, başlangıcın bir noktadan başlayarak evrenin geliştiyinin izahını veren en güüzel görüntülü bir objedir. Motiflerde ifade edinen; Nokta, Harf, Basit Harf Birleşimleri, Birleşmiş Harf Birleşimleri, Saha-Alan Birleşimleri evrenin, heçden var olduğunu ve vahit bir noktadan, yani sifir başlangıcdan oluştuğunu bizlere anlatmaktadır. Bu birleşimlerin sağa-sola, yukarı-aşagı egilimlerle dokunulmasında var olan alemin her bir zerresinin birbiriyle ilişkide olduğu ve bu ilişkilerden ise yenilerinin doğması ifade ediliyor. Yani bu motiflerden alınan nakışlarda alemin her zaman bütün bir Varlık olduğu gösterilmektedir.

Türk insanı evrenin bütün olmasının ve aynı zamanda Varlığın mevcutluk sabebinin Hareket olduğunu anlayarak motifleri de, hareketlilikte bulmuşlar. Harf ve diger objelerin hareket cizimini cizerek aldıkları motifler nahışlara dökülerek mevcut alemin görünüş resmlerini ve ya modelini görüntüleyen kilim, halı, cicim veb. diger eşyalar oluşturmuştur. Motifler bu sırrı daşıdıkları için İslam aleminde de, resmlerin motiflerle verilmesi yüksek deyerlendirilmiştir. Bu sabepden de eski Türk harfları ile doğan motiflerden, nakışlardan sonra Islam din felsefesine uykun motifler de yaranmış ve gelişmişdir. Nakışların yaranma üsluplarının ayrı ayrılıkta izahında bulunarak, motiflerin de, gopuz gibi eski Türk felsefe, kültür ve geleneğine mensup olduğunu ilmi yolla yazmaya çalışacağız.

Eski türk alfabesi
ORHAN YENİSEY

Latin alfabesi	ORXAN YENİSEY ƏLİFBASI
A; E	
E	
I; İ	
O U	
Ö Ü	
B	
Bı	
Ğ	
G 1	
D	
D1	
Z2	
Y	
Y1	
Y2	
K	
K1	
L	
L1	
M	

ORXAN	YENİSEY	SƏS	ORXAN	YENİSEY	SƏS
		a;ə			H
		e			H_1
		ы;и			H_2
		o;y			n_2
		ө;ү			p
		δ_1			p_1
		z			c
		κ_1			c_1
		g			m
		g_1			m_1
		z_2			r_2
		j			u_2
		j_1			лт
		$\tilde{j}_2$			нт
		к			нч
		κ_1			бш
		л			ayırma işarəsi
		$л_1$			
		м			

Eski Alfabede “R” harfı tek yazılırken “ER”ve ya “ƏR” (yigit, erkek, döyüşcü) gibi okunur.

Nakışlara dökülen bu harf sadece harf deyilde yigit bir erkek simgesi olduğu anlaşılır. Yani bu harf bir asgerin, bir döyüşcü erkeyin abstrak tasfiridir. Bu harfın

ikisini 90 gen (köşe-darece) çevirerek karşılaştırsak ve ya bir merkez noktada görüştürsek oluşan resmin, iki yigit savaşcının bir birine sarılarak tokatlaştığı anlamında olduğunu görüyoruz.



"R" harfi "ER" sözünü ifade etdiyi gibi, "L" harfı da "ülke", "ulus" "devlet" anlamında işlenen "El" sözünü anlatır. Yani, bir harf bir sözün ifadeçisi oluyor. Başka bir örnek de göstere biliyoruz. "K" ünsüz harfı '↑- OK" gibi okunur ve ifade edilen söz resme - tasfire yakın oluyor.

Harfların birleşiminden yaranan sözler de, birleşerek küme ifade ediyor. Türk alfabesinin eski olması, alfabenin basit ve doğal olmasını gösteriyor. Bu harflar doğal güc kaynağı olduğu için öldürülerek motifleşip nakışlara dökülmüştür. Bir madde öldükten sonra digerine çevrilir. Mesala ağac yanıp kül oluyor. Harf da ölerek motif-nakış oluyor. Ayrıca Fizik ilminde "Enerji yok olmuyor, yalniz şekil deyişir" gibi bir kuralı da dikkata alırsak, doğal gücü olan eski Türk harfları da şekil deyişerek günümüze kadar kendini yaşatmıştır deye biliriz. Sırr bir olayı ve ya objeni zamandan koruyan bir nesnedir. Eski Türk harflarının da, motif olarak günümüze aktarılmasını sağlayan bu nesnedir. Bu da, doğanın ölüp-dirilme sistemini bize anlatıyor.

Doğada hayat birinin ölmesini digerinin dirilmesine bağlayarak devam edindiyi gibi harfların da ölerek harfı simgesini itirmesi motif- nakış olarak ortaya çıkıyor. Bu nahışlar gizlinde harfı manaları ifade etse bile, insanlar tarafından bir güzellik simgesi gibi deyerlendirilir. Bu güzellikler aslında eski harfların sıır aracı-perdesi oluyor. Şu güzelliklerin yaratılma faktörü olan eski Türk harfları insanlar tarafından unutulur ve nakış kaynağı olduğu bile kabul edinmiyor. Yani nakışlar insanlar tarafından öyrenilirken onun yaratıcı faktörünün kaynağı öyrenilmir. Lakin kurallarına sadık kalınarak sadece resm gibi öyretilir. Bu sabeptende nakış birleşimlerinin söz-küme ifadesinin inanclarla bağlılığı ve ilmi manası nakış vuran kişi tarafından bilinmiyor. Mahiyyeti gizli kaldığı için de bazen nakışlar gittikce farklı hale geliyorlar.

Azerbaycan bilgini Hudu Memmedov eski kilim ve dikmelerdeki nahışların struktur analizini yaparak maddelerin malekulyar tasfirinin aynısını bu nakışlarda aşkar etmiştir. Resmlerden farklı olarak eski Türk harflarından oluşan nakışlar sade, birleşimli-mürekkep, sahanı-alanı kapsayan ve sağa-sola çember radyusu buyunca dönerek yeni cizgi, tasfir oluşturan nakışlar oluyor.

Bu nakışların ilk yaranıştan bildiyimiz son tasvirine kadarkı süreci ayri-ayrilikta izliyelim.

Basit yolla eski türk harflarından yaranan nakışlar

Şakuli düzüm sağlamakla (Üst Üste harf düzümü)

----K



E harfı -



2. İ, I-



Bir Nokta Etrafında Döndermekle

N2-:

N harfı:





Z harfı: 



R harfı: 

Bu üsluptan yararlanarak nakışların yapılma kuralları ile tanış olduk. Lakin nakışların yapılma kuralları bununla bitmiyor. Her nev yaranış üslupunun da kendi kendiliyinde yeni üsluplar oluştuğunu görüyoruz. Harfların birleşmesini bir kac uslupta göstere bilerik.

Z harfının üstden birleşiminin beş-5 nevini bulduk:

1. 2. 3. 4. 5.

N harfını bir nokta etrafında dönme uslupu ile 7-yedi nevini göstere biliriz:



Z - harfının ise dönme ile 4 birleşmesini göstere biliriz.

Yandan birleşme ile de bir harf çeşitli tarzda birleşerek çeşitli nahışlar oluştura biler:

1. 2. 3. 4.



R harfı:

Döyüşçü erlerin asgeri düzümünü ifade eden birleşimler.

1. 2.



3

4.



5.

6. 7.



Harflar, Sade Harf Birleşimleri, Birleşmiş Harf Birleşimleri, Saha-Alan Birleşimleri gibi üç uslupda ve bu usluplardan doğan çeşitli usluplsardan yararlanarak insanlar nakışları oluşturuyor.

Lakin nakişların yaranma uslupları bununla bitmiyor. Harfların yuvarlak ve maili biçimde olanları nakış haline getirilmeden önce zik-zak (küçük parçalar) haline salınarken daha deyişik motivler halında gözükür.

S harfı

N harfı



F harfı



Birleşmiş Harf Birleşimleri- (Mürekkeb yolla).

Devretmelerden yaranan bu birleşimelerin oluşturduğu nakışların çeşitliliyi insanların fantazisine bağlı olarak net usluplara bağlı deyil.

N harfının birleşimlerini yaparak bunu anlatmaya çalışacağız.:



1. 2. 3.



B-? -

Harfını da aynı ile önce zik-zak yapıp sonra fantazimizle nakiş haline getiririz:



Nakışların dili ile konuşmak harf birleşimeleri ile mümkündür. Ayrı ayrı harflar bir birinin ardinca yazılarak nakış yaratdığı gibi onların birleşimleri de söz ifade ediyor.

Mesala "Ot"(od) kelimesi iki harfin birleşimi olarak nakışlara döne biler. Alt-alta birleştirilen bu iki harfdan yaranan nakışı kaç sayda yan-yana birleştirerken, günümüzde de, elbiseler üzerinde işlenen bu nakışı alabileriz.



Besit yolla ve ya birleşimden alınan nakışları çok sayda yaparsak Alan-saha nakışları alarız. Ayni harfdan doğan nakışları da yan yana ve alt alta birleştirersek Alan nakışları alarız.

N harfını üst-üste birleştirerek haman birleşimlerden alınan nakışları daha sonra yanakı düzersek Alan nakışları bir birine doğru yönlenmiş ok gibi olar. Bu da, "Hayr ve Şer-Kötülük" enerjisi olan (In-Yan) anlamını ifade ediyor. Ayni bu harfı devretme yoluyla 4-dört tarafa çevirerek birleştirip alınan nakışları yeniden yanakı ve üst-üste birleştirsek aşağıdakı Saha nakışlaı alınar.

N harfı ile alınan birleşmeyi yan-yana birleştirsek yeni bir birleşme alınır.



N harfını 3-4 dafa çevirmekle birleşme alarık
N harfının üst-üste birleşmesinden alınan nahışlar



Sonra bu birleşmeyi yan-yana ve üst-üste birleştireriz



Birleşimleri sağa-sola maillendirmekle motiflerin alınası

Maili harfların zik-zak(küçük parçalar) haline salınarak birleşme yaptığımız gibi hattı harfları da maili biçime salarak nakış yaratmak mümkündür.

1.  2. 4



R harfı yan-yana birleştirmek yolu ile alınan nakışlar.



R harfı üst-üste birleşerken alınan nahışlar



Maili biçime malik olan harflar



A harfını once maili biçim haline getirek



A harfı: L harfı:





R harfı

Z harfı: N harfı:





D harfı:



L harfı

:

T-

T1-

M harfı:

Ş harfı:

E harfı:

LM: -

A harfının buruk formasini

Yan-yana döndermekle alınan motif

Üst-üstü ve yan-yana

Maili formaya salındıkta bu harflarla daha kolay söz yazmak olur.



EL sözünün yazılışı maili nakışla

Yan-yana Birleşim

S1 -








- tsiklo alken

Sonuç olarak araştırmadan görürüz ki, eski alfabe sırrını kendinde tutarak motif ve nakislarla yaşamaktadır. Nakışların kaynağı eski Türk alfabesi olduğu için, türkün bulunduğu her yerde bu motif ve nakışlar aynı olmaktadır. Buna örnek olarak Azerbaycan ve GaziAntep halılarını göstermek olar.

Azerbaycan halı ve kilim nakışları

Antep halısı antic

Türk milleti olarak kültür deyerlerimize bilgili olarak sahiplenmek için bir daha tarihin sırlarını çözmemiz gerekmektedir. Bunun için ise kültürümüzü ve tarihimizi iyi öyrenmek görevimizi yerine yetirmeliyiz.

KAYNAKÇA:

1. Kerimov Letif. (1961). Azerbaydjanskiy Kabjor, Baku-L. Izd-vo AN Azerb.SSR.

2. Göyüşov P.B., (1965). Arkeologiya ve din.”Azerbaycanın maddi medeniyyeti”,VI c. Baku

3. Şubnikov A.B., Konçik B.A., (1972). Simmetriya V Nauke I Iskusstve. “Nauka”, Moskva

4. Memmedov, H.S., Amiraslanov, I .R., Necefov, H.N., Mürseliyev, A.A. (1981).
Nakişlarin Yaddaşi, Azerbaycan Devlet Neşriyyati, Baku

5. Alyılmaz, Cengiz., (2007). (Kök)türk Harfı Yazıtların İzinde, KaraM Yayınları/ 21, Ankara

6. T.Gülensoy T., (1989) ”Orhun’dan Anadoluya Türk damgaları” , TÜrk Dünyası Araştırmaları Vakfı Yayınları, İstanbul

7. Gülensoy B., (1994). Köktürk alfabesinin Grafik Acıdan İncelenmesi, Yesevi Sevgi Dergisi. İstanbul

8. Yetkin, Ş., (1963). “Yurdumuzdaki Müzeler Ve Camilerde Bulunan Değerli Halılar”, Türk Kültürü Dergisi Sayı 4, s.2.

EĞİTİM GRUPLARI
TÜRK DÜNYASI ARAŞTIRMALARI VAKFI EĞİTİM GRUPLARI
I. ULUSLARARASI ÖĞRENCİ SEMPOZYUMU
"Türk Dış Politikası"
13 - 14 Mart 2009
Son Bildiri Gönderim Tarihi : 23 Şubat 2009
Kabul Edilen Bildirilerin İlanı : 3 Mart 2009
E-Posta : egrup@turan.org
İnternet Adresleri : http://www.tdavsempozyum.com | http://www.turan.org
Telefon : 0 212 511 10 06
Belgegeçer : 0 212 520 53 63
Adres : Türk Dünyası Araştırmaları Vakfı Süleymaniye Kültür Merkezi Şifahane Sokak No:6
Süleymaniye 34430 İSTANBUL TÜRKİYE

İSMAYIL QASPIRALI YARADICILIĞINDA TÜRK MİLLƏTİNİN DİRÇƏLİŞİ MƏSƏLƏLƏRİ SƏNƏTİNİN ESTETİK İDEALI KİMİ - Prof. Dr. Elman QULİYEV [42]

XIX əsrin sonu, XX əsrin əvvəllərində krım-tatar ədəbiyyatının görkəmli nümayəndəsi, Rusiya müsəlmanlarının lideri, türk millətinin müəllimi, xalq maarifi islahatçısı, "üsuli-cədid" hərəkatının və tatar mətbuatının banisi kimi şöhrət tapmış, "bütün türkçülük hərəkatının mərkəzi siması" (Yusif Akçura) hesab edilən İsmayıl Qaspiralı böyük və zəngin yaradıcılıq irsinə sahibdir. İsmayıl Qaspiralı yaradıcılığının şah əsəri olan "Tərcüman" mənsub olduğu türk xalqının ictimai-siyası və mədəni həyatında dirçəliş rolunu oynamaqla yanaşı, görkəmli şəxsiyyətin irəli sürdüyü "dildə, fikirdə, işdə birlik" ideyalarının reallaşmasında güclü təsir vasitəsinə çevrilmişdir. Böyük ideyalar carçısı İ.Qaspiralı mütərəqqi fikirlərin həyata keçməsində heç şübhəsiz, bədii ədəbiyyat və publisistikasını daha əhəmiyyətli hesab edirdi. İ.Qaspiraliya görə hər bir milləti millət kimi tanıtmaqda din və ədəbiyyatın rolu əvəzolunmazdır. Bu mənada İ. Qaspiralının ədəbiyyatsız xalqları "vəhşi tayfa" adlandırılması təsadüfi görünmür. "O, belə hesab edirdi ki, bədii əsər hər şeydən əvvəl geniş xalq kütləsinin arzu və istəklərinin ifadəçisi və düşüncələrinin tərcümanı olmalıdır" (Xeyrulla Məmmədov).

İsmayıl Qaspiralı türk dünyasının böyük şəxsiyyəti, ideoloqu olmaqla yanaşı, ilk növbədə nasir və publisist kimi məşhurdur. Onun yaradıcılığında roman və hekayələri mühüm yer tutur.

İsmayıl Qaspiralı Avropa və Afrika ölkələrini səyahət edən eyni bir qəhrəmanın macəraları əsasında silsilə romanlar yazmış, bunları "Tərcüman" qəzetində çap etdirmişdir. "Firəngistan məktubları", "Darürrahat müsəlmanları", "Sudan məktubları", "Qadınlar ölkəsi" və "Molla Abbas Fransalıya təsadüf: Gül Baba ziyarəti" əsərləri eyni qəhrəmanın – Molla Abbasın iştirak etdiyi müxtəlif romanlar silsiləsidir. Silsiləyə daxil olan ilk əsər "Firəngistan məktubları" dir. Roman 1887-1889-cu illərdə "Tərcüman" qəzetində "Molla Abbas" imzasıyla dərc edilmiş, az vaxt keçmədən ayrıca kitab halında çap olunmuşdur. Qeyd etdiyimiz kimi "Firəngistan məktubları" əsərinin baş qəhrəmanı Daşkəndli Molla Abbasdır. Onun vətənindən Fransaya gəlməsi, oradan İspaniyaya getməsi, başına gələn əhvalatları hekayə etməsi əsərin məzmununu təşkil edir. Əsərdəki hadisələr bilavasitə Molla Abbasın dili ilə nəql olunur. Əsərin əvvəlində Molla Abbas özü və səfərinin məqsədi haqqında belə məlumat verir: " Daşkənddən səfərə çıxanda iyirmi iki yaşında idim. Atamdan qalmış mal və sərvətlə nə qədər dolaşsam da yetərli idi. Özüm harda, vətən və yurd orda olacaq kimi tək başına bir gənc idim. Səyahət, elm və bilik üçün nə qədər uzaqlarda olsam da ardımca baxıb qalacaq yox idi. Orenburqdan keçib Moskvaya gəldim. Burada gördüklərim və Kazanlı tanışlarımdan anladığım məlumata görə Firəngistan qayət könlümə düşdü, bu ölkələri görməyə həvəs etdim. Bir də ki, əski kitabda Avropada zamanı ərəb və türkdən qalmış əzizlər və ziyarətlər olduğunu bilib, bunları ziyarət etməyə murad etdim. Bu halda Ades (Odessa) şəhərinə gəldim". Molla Abbasın səfər zamanı məqsədinə uyğun olaraq Macarıstanda "Gül Baba"

[42] Azərbaycan Dövlət Pedaqoji Universiteti "Türk araşdırmaları" elmi-tədqiqat mərkəzinin müdiri, Bakı/AZƏRBAYCAN

(Macarıstanda XVI əsrdə Osmanlı türklərindən qalmış bir bəktaşi şeyxinin türbəsi), Fransada "Qırx əzizlər" adlı (732- ci ildə İslam ordusunun Fransadan geri çəkilərkən şəhid olmuş əsgərləri üçün tikilmiş məqbərə. Hazırda onun mövcud olub-olmaması məlum deyil.) müqəddəs ocaqları ziyarət etməsi barədə əsərdə məlumat verilir.Romanda Molla Abbasın Odessada teatr tamaşasına baxarkən firəng qızı Jozefin ilə tanışlığı və ondan Fransa haqqında məlumatlar alması bilavasitə baş qəhrəmanda hələ Avropanı görmədən Avropa təəssüratlarının yaranmasına, onun Avropaya olan meylinin artmasına xidmət rolunu oynayır. Molla Abbasda şərq yox, Avropa marağının güclənmə səbəbi də əsərdə bu tanışlıqla əlaqələndirilir: "Bir həftə keçdi. Bu günləri həp firəng qızı ilə keçirdim. Firənglər və Firəngistan haqqında mənə məlum etdiyi əhvalatlara görə firəng qövminin diqqətəlayiq və təəccüblü olduğuna şübhəm qalmadı. Belə ki, Jozefinlə tanış-biliş olunca islam ölkələrini ziyarət etməzdən əvvəl yabançı ölkələri gəzib, görüb, anlamağa qayət həvəsli oldum". Göründüyü kimi, Molla Abbasın bir tərəfdən kazanlı tanışlarından, digər tərəfdən də firəng qızından Avropa haqqında eşitdikləri onun bu diyara getmək həvəsini nəinki artırmış, eyni zamanda "firəngin diqqətəlayiq və təəccüblü" cəhətlərinə meylini gücləndirmişdir.

Hadisələrin inkişafı zamanı biz Molla Abbasın Jozefinlə nigah bağladığının şahidi oluruq. Molla Abbas dünyaya gələcək övladlarının müsəlman kimi tanınmasını vacib şərt hesab edir. Bu şərti müəllif əsərdə bir məqsəd kimi işlədir. Lakin əsas məqsəd Molla Abbasın Avropaya doğru səyahəti zamanı keçdiyi ölkələrdə gördüyü hadisələr və onlara münasibətində açıqlanır.

Rusiya, Ukrayna, Polşa, Qalitsiya, Almaniya, Macarıstan torpaqlarından keçərkən Molla Abbasın keçirdiyi hisslər, bu ölkələr haqqında onda yaranan təəssüratlar olduqca orijinal təsirə malikdir. Xüsusən alman və macar elm, təhsil, mədəniyyəti onda heyrət doğurur. Zəngin kitabxanaların, modern təhsil sisteminin olmasını müəllif qəhrəmanının dili ilə cəmiyyətin inkişaf təməli kimi səciyyələndirir. İ. Qaspiralıya görə "elm, mərifət günəş işığı kimidir. Cümlə aləmə aydınlıq və qüvvət verir." Əslində bu fikirlərdə öz maarifçi görüşlərini əks etdirən İ. Qaspiralı xalqların tərəqqisini elm və təhsildə görərək millətinin də bu yolu tutmasını arzulayır. Əsərdə Molla Abbasın Vyana şəhərində görkəmli türkoloq Vamberi ilə görüşü maraqlı tərzdə təqdim olunur. Müəllif Vamberinin Türkistanda tarixi abidələrin tədqiq etmək marağını, ora gəlişinin bir səbəbini məhz onun özünün və mənsub olduğu macar xalqının türk əsilli olması ilə bağlayır. Düzdür, əsərdə Vamberinin Türkistana getməsinin başqa bir səbəbi də açıqlanır: " Rəvayətə görə Vamberi dərviş qiyafəsinə girib Türkistanı dil kəşfi üçün dolaşmamış. Bu adamı bu tərəfə ingilis hökuməti yollamışdır. Bu səyahət zamanı ruslar Ağməscid və Evliyata qalalarını alıb Kokand və Daşkənd tərəfə gəlməkdə imişlər. Bir türlü şübhə olmamaq üçün ingilis casusu yollamayıb, venqriyalı Vamberini yollamışlar. Vamberi İrandan, Xivədən keçib Buxaraya yetmişdir." Əsərdə səslənən bu fikirlərdə müəyyən tarixi faktların sadalanması ilə yanaşı türk, mənəvi-mədəni tarixinin qədimliyinin təsdiqi də dayanır. Bir qədər əvvəldə adlarını sadaladığımız Avropa ölkələrində Molla Abbasın türk tarixi abidələrini axtarması, həmsöhbət olduğu şəxslərdən bugünkü qərb mədəniyyətinin əsasında dayanan bir sıra islam dəyərlərinin mövcudluğu ilə əlaqədar məlumatlar eşitməsi türk-müsəlman təsirinin təkcə Şərqə yox, həm də Qərbə nüfuzundan xəbər verir. Əsərdə Molla Abbas çox hadisələrlə üzləşir.O, Parisə gəldikdən sonra Jozefini boşayır. Müsyo Şalon adlı tanınmış bir şəxslə tanış olur. Onun qızı Marqaritaya fars və türk dillərindən dərs keçir. Avropa mədəniyyəti, təhsil sistemi, əxlaq, ailə və məişət tərzi barədə bu şəxslərlə söhbətlərində Molla Abbas Şərqin nə qədər geri qaldığını açıq-aşkar duya bilir.

Molla Abbasın Marqaritaya türk və fars dillərini öyrətdiyi kimi, özü də fransız dilini öyrənmək üçün məktəbə gedir. O, Marqaritaya olan sevgi hisslərini cilovlaya bilmir. Əslində onların məhəbbəti qarşılıqlı məhəbbət əsasında qurulur. Parisdə demək olar ki, 8 ay problemsiz yaşayan Molla Abbas bir yaşlı qadının qətlində günahlandırılıb həbs edilir. O, azadlıqda olarkən tez-tez elm, təhsil, mədəniyyət sahəsində Qərb ilə Türkistanın fərqini müqayisə etdiyi kimi, həbsxanada da Avropa həbsxanalarının Şərq həbsxanalarından fərqləndiyini görür və bunun timsalında Fransa məhbəslərini cəza yeri yox, islah məktəbi kimi qiymətləndirir. Əslində, obrazın geniş müqayisələrində İ.Qaspiralı özünün islahatçılıq görüşlərini oxucuya təqdim edir. Molla Abbas 16 gün həbsxanada saxlanıldıqdan sonra məhkəməyə gətirilir. O, məhkəmədə qadının öldürülməsindən xəbərsiz olduğunu, nahaqdan tutulduğunu bildirsə də, heç bir fakt, dəlil gətirmədiyi üçün məhkəməni inandıra bilmir. Hətta onun vəkili də hüquqlarını qoruduğu insanı müdafiə etməkdə aciz qalır. Əsərlə tanışlıq zamanı görürük ki, qətl törənən zamanı Molla Abbas şəhərdən uzaqda yerləşən bir məkanda Marqarita ilə olan gizli şəkildə görüşdə imiş. Molla Abbas bilirdi ki, əgər bu dəlili məhkəmənin nəzərinə çatdırsa, onu günahsız kimi buraxacaqlar. Lakin başa düşür ki, Marqarita ilə olan gizli görüşlərinin sirri açılsa təkcə bir qızın yox, həm də bir şərəfli ailənin namusuna ləkə yaxılacaqdır. Necə deyərlər, öz başını qurtarmaqla başqa bir başı bəlaya salacaqdır. Məhkəmənin gedişi zamanı salona üzləri və başları tamamilə örtülmüş, sifətləri görünməz olan iki qadın daxil olur. Məlum olur ki, onların biri şahid qismindədir. Digəri isə şahid olacaq qadının halı pis olduğundan onu məhkəmə binasına gətirməyə yardımçı olmuşdur.Şahid qadın adını, kimliyini məhkəməyə bildirmədən ifadə vermək istəyir.Çünki qadın bilir ki, kimliyi aşkar olsa ailə namuslarına xələl gələcək, günah sahibi kimi qınaq obyekti olacaqdır. Lakin hakim ifadə verən şəxsin kimliyinin bilinməsinin vacibliyini tələb etdiyinə görə çarşablı qadın örtüyünü başından götürərək Marqarita olduğunu söyləyir.

Marqarita yaşlı qadının qətl olundugunu gün Molla Abbasla şəhərdən 2-3 saatlıq kənarda olduğunu, ayrı-ayrı günlərdə isə hotellərdə öz adlarını gizlədərək, başqa ad altında gün keçirdiklərini bildirir. Marqaritanın atası Müsyo Şalon bu sözləri eşitdikdə halı pisləşir və bir qrup adam onu zaldan kənara çıxarır. Lakin Müsyo Şalon beyninə qan sızmasından vəfat edir.

Marqaritanın çıxışı Molla Abbasın günahsız olduğunu sübuta yetirir. Onu azadlığa buraxırlar. Marqarita atasının ölmündən bir müddət xəbər tutmur. Müsyo Şalonun guya ticarət məqsədi ilə Moskvaya getdiyini Marqaritaya bildirib onu sakitləşdirsələr də, az vaxtdan sonra qız atasının ölümündən xəbər tutur. O, Molla Abbasa olan məhəbbətinin atasının ölümünə səbəb olduğundan günahını əfv etmək xatirinə dərvişanə ömür sürməyə qərar verir. Elə bu səbəbdən də Molla Abbasa olan məhəbbət və ünsiyyəti üzərindən xətt çəkir.

Molla Abbas Pale Royal bazarında Şeyx Cəlal adli fransız, ingilis, ispan dillərini öz ana dili kimi bilən bir ərəbə rast gəlir. Şeyx Cəlal 15 il Avropa məmləkətində ticarətlə məşğul olduğundan bu yerləri yaxşı tanıyır. Onun Avropa barəsindəki fikirləri Molla Abbasda müəyyən maraq doğurur. İ.Qaspiralı bir növ özünün ictimai-siyasi, elmi-mədəni, əxlaqi və s. görüşlərini bu yolla oxucusuna çatdırmağı daha məqsədə uyğun hesab edir. İ. Qaspiralı haqqın, ədalətin təntənəsində və bunların mövcudluğunda insan səadətinin dayandığını bəyan etmişdir. Əks tədqirdə mərifətə, ağla, tərbiyəyə qalib gələn eqoizmin, nəfsin cəmiyyət üçün ziyanlarından bəhs açaraq əsl həqiqət yoluna çatmağın mümkünlüyünü belə görürdü: “Malın çoxluğu, artıqlığı insanları səadətli etməz. İnsan səadətinin çeşməsi birdir və bu da haqq və ədalətdir. Elm, təhsil və tərbiyə haqqın və ədalətin yayılmasına hizmət

etmədikcə növi-bəşər səadətdən uzaq qalacaqdır.” Bu fikirlər İ.Qaspiralının ictimai-sosial və maarifçi görüşlərinin əsasında dayanan fikirlərdən biridir. İ.Qaspiralı dünyanı gəzdikcə, millətlərinin halı ilə tanış olduqca belə bir qəti fikrə gəlir ki, türk millətinin gələcək səadət yolu təhsil və elmdədir. O, məktəblərin açılmasını bu yolda vacib addım hesab edir.

“Firəngistan məktubları” romanının baş qəhrəmanı Molla Abbasın bir sıra Avropa ölkələrinə səyahəti fonunda müəllifin elm və maarifi təbliğ obyekti kimi ön planda saxlaması da bu zərurətdən irəli gəlmişdir. “Firəngistan məktubları” əsəri Şeyx Cəlalın məsləhəti ilə Molla Abbasın müsəlmanların əvvəlki zamanlarda qazandığı şərəf və mədəniyyətini öyrənmək üçün Əndəlisə” getməsi ilə başa çatır. Molla Abbasın İspaniyaya səyahəti və burada başına gələn əhvalatlar “Darürrahat müsəlmanları” əsərinin mövzusunu təşkil edir. Əsər “Tərcüman” qəzetindən əlavə, müəllifin sağlığında iki dəfə kitab (1891-1906) çap olunmuşdur.

Qeyd edək ki, “Darürrahat müsəlmanları” “Firəngistan məktubları”nın davamıdır. “İdareyi-tərcüman” imzası ilə əsərə yazılmış ön sözdə bu fikir öz təsdiqini belə tapır: “Daşkəndli Molla Abbasın - Fransaya səyahətindən ötrü fransalı ad almış əfəndinin Fransada gördükləri “Firəngistan məktubları” başlığıyla “Tərcüman”da çap edilmişdir. Bu məktubların ikinci qismi Əndəlisə səyahəti və indiyə qədər naməlum cəmiyyəti-İslamiyyənin hal və vücudundan xəbər verir. “Firəngistan məktubları”nın ikinci qismi ayrıca bir əhəmiyyətə layiq olub bəxtiyaranə bir surəti-məişətə yetişmiş cəmiyyəti müslimidən bəhs etdiyinə görə... “Darürrahat müsəlmanları” başlığı ilə risalə (kitabça) şəklində çap edildi və qəzetimizin cümlə müştərilərinə acizanə hədiyyə olaraq göndərildi.”

Əsərdə bəzi kənara çıxmaları nəzərə almasaq, hadisələr Darürrahatda – xəyali İslam ölkəsində cərəyan edir. Molla Abbasın “gizli bir vadidə yaşayan müsəlmanlar” arasında görüb yaşadıqları “Darürrahat müsəlmanları” əsərinin mövzusunu təşkil edir.

Əsər maraqlı mövzu üzərində qurulmuşdur. Fransa ilə vidalaşan Molla Abbas 43 saatdan sonra İspaniya sərhədinə çatır. İlk öncə bu ölkədə gömrük məmuru ilə rastlaşan Molla Abbas məmura İspaniyanı ziyarət etmək məqsədi ilə gəldiyini bəyan edir. Sonra İspaniyanın tarixi haqqında məlumatlar diqqəti cəlb edir. Məğrib valisi Musa ibn Nusayr və Tarik ibn Ziyad tərəfindən bir çox Qərb əyalətlərinin, o cümlədən İspaniyanın fəth olunması faktları əsərdə tarixi – xronoloji ardıcıllıqda yer alır. “Darürrahat müsəlmanları” əsərində göstərilir ki, İspaniyaya İslamın gəlişi özü ilə mədəniyyət gətirdi. Şəhərlər, məktəblər, yollar tikildi, fabriklər işə düşdü, su boruları çəkildi və.s.

Yazıçı İslamın Əndəlisdə qurub – yaratdıqlarının saysız həddə olduğunu nəzərə çatdırır. Bu məqsədlə müəllif ərəb tarixlərindən götürdüyü faktlara istinad etməklə ispan müsəlmanlığı dövründə mövcud olan şəhər, cami, mədrəsə, xəstəxana, hamam və s. Sayları haqqında məlumatı əsərə daxil edir. Ərazidə İslamın zəfər çalması. “əhi – islamın” çoxalması inkişafın əsas səbəbi kimi təqdim edilir: “Əaliyi – islamiyyənin çoxalması və tərəqqisi, günbəgün məsud olması Əndəlis qitəsini cənnət misallı bir mahal etmişdir...”

Lakin 800 ildən sonra İspaniyadan İslam ordusu geri çəkilməyə məcbur olur, Ferdinantın rəhbərlik etdiyi ispan əsgəri qələbə çalır, İslamdan qalmış bütün abidələr dağıdılır və əhaliyə divan tutulur: “Dağlar arası Darürrahat namı verdiyimiz mahalın cəmiyyəti – islamiyyəsi baba Seyid Musanın əqrəba və dostlarından hasil olan xalqdır. Əndəlisü tamam istila edib, güc və qüvvət aldıqdan sonra ispanlar əhli - islama aman və mərhəmət etməyib,...camilərdə namaz və azan oxutmayıb, məktəblərdə təhsil və tərbiyəni yasaqlayıb. İslamın əlini – qanadını kəsməyə başlamışlar”. Əsərdə Şeyx

Cəlalla Molla Abbasın mükaliməsi fonunda istər Avropa, istərsə də Türkistan tarixi, mədəniyyəti haqqında fikirlərə, millət və cəmiyyətin formalaşmasinda elmin, təhsilin rolu məsələlərinə geniş yer verilir.

Əsərdə Əndəlisün məşhur sərdarı mərhum Seydi Musanın dost və əqrabalarına ünvanladığı, yazdığından 700 il sonra (miladi 2076-cı ildə) açilması vəsiyyət olunan möhürlü məktub haqqında məlumatın verilməsi ilk baxışdan qəribə görünsə də, müəyyən mənada ölkə və millətin gələcəyi barədə oxucunu düşünməyə vadar edir. Amma Seydi Musanın vəsiyyətinin dəqiq mətninin nədən ibarət olması təbii olaraq əsərdə açıqlanmasa da, obrazların ehtimallarında burada xalq və millət problemindən, digər millətlər ilə müsəlmanların münasibətlərindən bəhs edilməsi güman edilir.

Əsərin sonunda Molla Abbas Parisdən bir məktub alır. Məktubu Molla Abbasa Marqarita yazmışdır. Məktubdan məlum olur ki, Sudanda Mehdi Məhəmməd Əhməd adlı bir vətənpərvər igid Misiri tutmuş ingilislərin əleyhinə müharibəyə hazırlaşır. Bəzi vətənpərvərlər Mehdi ordusuna kömək məqsədilə Sudana gedirlər. Marqaritanın yazdığına görə bu məqsədlə Avropada pul toplanır və şəxsən özü buna görə 25000 frank yardım etmişdir. Marqarita Molla Abbasın ərəb dilini bildiyi üçün Sudana gedən fransızlara qoşulacağına ümid etdiyini bildirir və bunu arzulayır. Molla Abbas Marqritaya Parisə gəlib onunla görüşəcəyi və bundan sonra Sudana gedib – getməyəcəyi qərarını verəcəyi barədə məktub yazır.

Əsər bu sonluqla başa çatır. Əslində sonluğun bu cür verilməsi ilə müəllif yeni hadisələrə keçid alır. Daha doğrusu , oxucu qabaqcadan anlayır ki, sonrakı hadisələr Sudanda cərəyan edəcəkdir. Məhz bu ölkə ilə bağlı cərəyan edən hadisələr "Sudan məktubları" əsərinin mövzusunu təşkil edir. "Sudan məktubları"nın ilk nəşri "Tərcuman" qəzetinin 1889 – cu il tarixli 35-46-cı saylarında dərc olunmuşdur.

Əsərin məzmunu belədir: "Darürrahatdan Parisə gələn Molla Abbas Marqarita ilə görüşür. Marqarita ona atasının ölümündən sonra atasının ticarət işlərini davam etdirdiyi, Bombey, Bağdad, Təbriz və.s yerlərə məktub yazıb bu şəhərlərin tacirləri ilə ticarət əlaqələri qurmaq niyyəti barədə məlumat verir. Marqarita həmçinin İslam ölkələri ilə Fransa ticarət əlaqələrindən də söhbət açır. Lakin o, İngiltərənin Misirə girməsindən sonra Fransız – Misir ticarəti arasında böyük əngəllərin yaranmasını narahatçılıqla qeyd edir. Marqarita bildirir ki, Sudan ölkəsində ingilislərə qarşı Şeyx Məhəmməd Əhməd[1] müharibəyə başlayıb. Ancaq onların balta, ox, qılınc və s. ilə ingilis topunun qarşısında duruş gətirməsi müşküldür. Buna görə sudanlılara top atmağı öyrətmək, əsgəri hərbi təlim keçmək üçün köməyə getmək lazımdır. Marqaritanın məsləhəti ilə Molla Abbas, Müsyo Marten top məmuru, Müsyo Mark hərbi mühəndis, Müsyo Jan isə həkim idi. Molla Abbas özü kimi bu üç şəxsin də adını dəyişir. Müsyo Marten Əli Özden, Müsyo Mark Noqay Timur, Müsyo Jan isə sənətinə uyğun olaraq Loğman adını qəbul edir.

Şeyx Abbas Dağıstani (Molla Abbas) – cəzayir ərəblərinin yaşadığı yerə gəlir. Onlara Şeyx Şamilin ruslara qarşı mübarizəsindən danışır. Səhrayi – Kəbir (Böyük Səhra) və Sudan haqqında məlumatlar öyrənir,oraya getməyin yollarını arayır. Molla Abbasa anladırlar ki, Sudana gedən ən rahat yol "Divanələr ölkəsi"ndən və "Qadınlar ölkəsi"ndən keçir. Abdulla Dari adlı bir şəxs onlara bələdçilik etmək arzusunda olduğunu bildirir: "Loğman dostlarına bildirir ki, qorxuram bu insan bizə xəyanət edə". Molla Abbas və mühəndis isə Abdula Daridən xəyanət gözləmədiklərini bildirirlər. Lakin əsərin sonunda hər kəs özlüyündə belə fikirləşir ki, əgər o, xəyanət edib bizi təslim edərsə, divanələrə yox, qadınlara əsir düşməyimiz daha yaxşı olar. Maraqlıdir ki, İ.Qaspiralı əsərin sonunda davamı irəlidə (" yəni ardı var") yazsa da

"Tərcüman"ın sonrakı saylarında bu əsərin çapına rast gəlinməmişdir. Lakin qəzetin növbəti saylarında "Qadınlar ölkəsi" əsəri dərc olunmuşdur.

Məzmunundan da göründüyü kimi, "Sudan məktubları" ında hadisələr Avropadan Afrikaya köçülür. Qarşısına Daşkəsəndən İstanbula gəlib, oradan da Hicaza yollanmaq məqsədi qoyan Molla Abbas taleyin qisməti ilə Firəngistana, oradan da Afrikaya –Sudana gəlməli olur. Müəllif Molla Abbası az qala dünyanın böyük bir qismində gəzdirməkdə məqsədi Avropa, Asiya və Afrika xalqlarının həyatı üzərində apardığı müşahidələri və bunlardan hasil olan nəticələri oxucu ilə bölüşməkdir. "Sudan məktubları " ında XIX əsrin sonu, XX əsrin əvvəllərində Avropa imperializminin Şərq istilası, Şərqdə milli azadlıq hərəkatının güclənməsi, xalqların öz müqəddaratlarını həll etmək uğrunda mübarizəsi və digər məsələlər əksini tapır. Lakin İ.Qaspiralı maarif və tərbiyəni bütün məsələlərin mərkəzində saxlayır. Ona görə də bu mühitdə qadının bütün fəaliyyət dairəsi təkcə yaşadığı mənzil divarları arasında məhdudlaşmır, həm də haqları tapdanır.

İ.Qaspiralı "Sudan məktubları" əsərində İslam ölkələrinin qadınları ilə Avropa qadınlarını müqayisə etməklə fərqləri sadalayır və qadını cəmiyyətin aparıcı insanı kimi görmək istəyir: "İslam və frenk qadınları arasında hal və tərbiyədə fərq çoxdur. Frenklərin haqqı inkar olunmaz: Çocuğa baxmaq, tərbiyə vermək, təbiblik etmək qadınlarının hünəridir. Bunlar ədəbli və pak olsalar dünyanın ən iyi qadınları olurlar. Frenk hünəri ilə İslam ədəbi bir yerə gəlsə daha gözəl olur"

"Sudan məktubları " əsərində bəşəriyyətin bütün nizamını kitab,məktəb və tərbiyə ilə bağlayan muəllif bu sahədə avropalıları başqalarına nümunə göstərir,bütün bunları müsəlman həyatı üçün vacib hesab edir: " Firənglərin hər işi kitablara görədir. Hər işi məktəblərdə kitablardan öyrənirlər."

"Sudan məktubları" nın bir növ davamı olan "Qadınlar ölkəsi" əsərində Molla Abbasın macərələrı sona çatır. "Qadınlar ölkəsi " 10 avqust 1890 –cı ildən 2 iyul 1891-ci ilədək "Tərcuman"ın müxtəlif saylarında dərc edilmişdir.Bu əsərdə Molla Abbasın və onunla bərabər üç fransız gəncin, Şeyx Məhəmməd Əhmədə kömək üçün getdiyi zaman Qadınlar ölkəsində əsir olmaları və çətinliklə də olsa əsirlikdən qurtarmaları və s. hadisələr öz əksini tapır. Molla Abbas Cəzayir şəhərindən ayrılıb 18 gün yol getdikdən sonra Səhrayi –Kəbirə çatır. Sudanlı zənci Abdulla Dari onlara bələdçilik edir. Abdulla Darinin xəyanəti nəticəsində yolda onları Qadınlar ölkəsinin əsgərləri əsir edirlər. Buna görə bu ölkənin Malikəsi (kraliçası) Abdulla Dariyə qızıl bağışlayır. Bu ölkə qəribəlikləri ilə diqqəti cəlb edir. Burada qadınlar ixtiyar sahibləridirlər. Ölkəni onlar idarə edir. Çöl işlərini onlar görür, müharibəyə gedir. Qadınlar üzləri açıq gəzir və s.

Əksinə kişilər ev işləri görür, uşaqları böyüdür, yemək bişirir paltar yuyur qadınlara qulluq edirlər. Digər bir fərqli cəhət də o idi ki, bu ölkədə qadınlar çox kişi alırdılar.

Ölkənin kraliçası Molla Abbasdan Avropa və müsəlman ölkələrində qadınların vəziyyəti ilə əlaqədar məlumatlara qulaq asdıqca bu adətlərə nifrət və ikrah hissi ilə münasibət bildirir. Bütün bunlar real həyatı əks etdirmir. İ.Qaspiralı belə bir fantaziya ilə diqqəti fanatik İslam cəmiyyətinə yönəidir.Qadına münasibətin dözulməzliyinə etirazı başqa bir formada təqdim edir. O, qadınlar ölkəsində kişilərin bu halının təsviri ilə insanları təəccübləndirir. Yazıçı bununla demək istəyir ki, müsəlman mühitində də qadınlara münasibət belədir. Bu təkcə təəccüblü yox, həm də dözülməzdir.

Üç fransız ilə Molla Abbas gənc kraliçanın karvan qarətinə getdiyindən istifadə edib qaçırlar. Onlar qarət olunacaq karvana çatib onları bu işdən xəbərdar

edirlər və birlikdə Qadınlar ölkəsinin əsgərlərini məğlub edərək Tunisə yol alırlar. Otuz yeddi gündən sonra Tunisə yetişirlər. Buna görə onlar Sudana getməkdən imtina edirlər. Üç fransız gənc Tunisdən Fransaya, Molla Abbas isə İstanbula yola düşür. Molla Abbas uzun illərin həsrətinə son qoymaq üçün tezliklə Daşkəndə qayıtmaq fikrini qətiləşdirir.

"Tərcüman" qəzetində oxuculara "Divanələr ölkəsi" və "İstanbul məktub"larının yayımlanması vəd olunsa da, bu əsərlər haqqında indiyə qədər məlumat əldə edilməmişdir. Lakin İ.Qaspiralının Molla Abbasın şagirdinin Macarıstanda yerləşən Gül Baba pirini ziyarəti zamanı müəllimi ilə görüşməsini və aralarındakı danışıqlarını əks etdirən "Molla Abbas Fransalıya təsadüf" adlı əsəri 1908-ci "Tərcüman"ın ayri-ayri saylarında bütöv halda dərc ololunmuşdur.

Əsərdən məlum olur ki, Molla Abbasın şagirdi öz müəllimi ilə 4-cü sinifdə oxuduğu zaman tanış olmuşdur. Lakin Molla Abbası məktəbdə ona müəllim kimi dərs dediyinə görə yox, onun "Firəngistan məktubları"nı oxuduğu üçün özünə müəllim hesab edir. Əsərdə əsas hadisələr Macarıstanda baş verir. Molla Abbas öz şagirdi ilə bu ölkədə görüşür. Gül Baba ziyarəti zamanı Molla Abbas bu ziyarətgahın tarixi haqqında şagirdinə belə məlumat verir: "Gül Baba iranlıdır. Türklərin Macarıstana gəlişindən əvvəl bu ölkəyə səyahət edib və burada vəfat etmişdir." (Lakin bundan fərqli olaraq prof.Yavuz Akpınar "Firəngistan məktubları" əsərinə verdiyi izahatda Gül Babanın Bəktaşi şeyxi hesab edir, bu ziyarətgahı Macarıstanda Osmanlılardan qalmış XVI əsr dini abiəsi kimi göstərir). Macarların rəvayətinə görə Gül Baba Budin şəhərində xəstələnir. Şəhər əhli ona xidmət göstərir. Bu zaman bir gənc dərviş zühur edir. O, canını təslim edən Gül Babanı dəfn etdikdən sonra qeyb olur. Şəhər əhalisinin gözləri qarşısında baş vermiş bu hadisədən sonra insanlar onun məzarını ziyarətgaha çevirirlər. Türklərın Macarıstana gəlişi ilə bu məzarın üstündə sərdabə tikilir. Türklərin macar elindən gedişindən sonra da bura ziyarətgah olaraq qalmışdır. Əsərdə Rəşid əfəndi ilə tanışlıq və onun haqqında verilən məlumat hissələri də oxucu marağından kənarda dayanmır. Rəşid əfəndi Şərq siyasi durumunu, rus, ingilis, İslam və türk dünyası münasibətlərini yaxşı bilən türk mütəxxəssisi təqdim olunur. Onun 75 yaşı olsa da, 60 yaşlı insan kimi görünür.

Şərq ictimai-siyasi, mədəni həyat tərzini ingiliscə yazaraq avropalılara çatdırır. Lakin onun bütün danışıq və müqayisələrində bir türk təəssübkeşliyi var. Əsərin sonunda özünün dediyi kimi: "Avropaya və ələlxüsus ingilislərə türkləri, aləmi-islamı tanıtdirmaqda, sezdirməkdə xidmətlərimlə iftixar duyuram. Türklərin düşmənləri məni sevməzlər, mən də onları sevməm."

Bu sevgidəndir ki, o müsəlman dünyasını, onun aparıcı qüvvəsi olan türk millətini daim dünya xalqları içərisində mədəni cəhətdən öndə görmək istəyir. Lakin hazırki məqamda avropalılardan müsəlmanların geri qalması onu mütəəssir edir, bu geriliyin səbəbini o, ilk növbədə cəhalətdə görür:

"Müsəlmanlar harada bulunurlarsa bulunsunlar, nasıl yaşayırlarsa, yaşasınlar avropalılara nisbətən hər cəhətdən geridirlər. Əcabə bunun səbəbi nə?...

-Cəhalətdir, əfəndim, cəhalət."

İ.Qaspiralının əsəri bu sonluqla bitirməsi təkcə onun millət sevgisini göstərmir. Eyni zamanda türk millətinin geriliyinin səbəbləri tərəqqi inkişaf xətti barədə oxucuda kompleks düşüncə yaradır. İsmayıl Qaspiralının eyni qəhrəmanın iştirakı ilə hadisələrin müxtəlif ölkə, əyalət və şəhərlərdə davam edən 5 roman – epopeya – "Firəngizistan məktubları", "Darürrahat müsəlmanları", "Sudan məktubları", "Qadınlar ölkəsi" və "Molla Abbas Fransalıya təsadüf" silsiləsi ilə yanaşı digər nəsr əsərləri də mövcuddur. "Aslan qız" qəhrəmanlıq və vətənpərvərlik mövzusunda

yazılmış əsərdir. Əsərin mövzusu tarixi hadisələri özündə əks etdirir. Şərqi Türkistan bölgəsinin Üçturfan şəhərini Çi Linq adında zalım sərkərdənin başçılığı altında 30 min çinli əsgərin və 10 min kalmık bütpərəstinin mühasirəyə alması və onlara qarşı Gülcamal adlı cəsur bir türk qızının başçılığı ilə xalq mübarizəsinin təsviri əsərin mövzusunu təşkil edir. Üçturfan şəhəri ilə Kaşqar arasında rabitəni kəsən Çi Linq şəhər əhalisinə təslim olmaq üçün bir gün vaxt verir. Bölgə mühafizi Alaca bəylə Şeyx İzzət Ata çinlilərin məktubunu müzakirə edib təslim olmamağı qərarlaşdırsalar da əksər məmurlar təslim olmağa tərəfdar çıxırlar. Lakin pərdə arxasında məclisin qərarını dinləyən Şeyx İzzətin qızı Gülcamal məclisə gəlir və təslim qərarını verən məmurlara öz etirazını bildirir. O, hamının qarşısında bıçaqla saçlarını kəsib Kaqara gedəcəyinə, onlarla əlaqə yaradacağına söz verir. Lakin həm Üçturfan şəhərində, həm də Kaşqarda çinlilərin yerli əhalidən satın alınmış casusları olduğu üçün şəhərdən çıxmaq çətin idi. Gülcamal onun gedişindən casuslar xəbər tutmasın deyə atının ayaqlarına keçə bağlayır ki, atın ayaq səsləri eşidilməsin. Gülcamal Kaşqara gəlir, kaşqarlılara gəlişinin məqsədini açıqlayır və onlardan kömək istəyir. Lakin şəhərin hakimləri ona kömək etməkdən imtina edirlər. Az vaxt keçəndən sonra onun qız olduğu bilinir. İgidliyinə görə hamı ona Aslan qız deyə müraciət edir. Daşdəmir bəy kaşqar hakimliyindən uzaqlaşdırıldıqdan sonra o, Süleyman bəy ilə birlikdə tədbir hazırlayıb yeni şəhəri çinlilərdən azad edir. Döyüş zamanı 1000 türk igidi şəhid olur. Bundan sonra kaşqar əsgərlərinin Üçturfan şəhərini müdafiə etmək üçün yol düşməsinə qərar verilir. Gülcamal bir qədər tez gəlir. Onun qurduğu plan əsasında Çin sərdarı Çi Linq Üçturfan şəhərini mühasirə edən qoşunlarını geri çəkərək Çinə qayıdır. Düşməni Aslan qız – Gülcamal belə qovur.

Bu əsərdə biz Gülcamalın simasında əsl vətənpərvər bir qızın obrazını görürük. Müəllif onun simasında bir çox qəhrəmanlıq keyfiyyətlərini cəmləşdirə bilmişdir. O, ilk növbədə namuslu türk qızıdır. Başa düşür ki, düşmən şəhəri alarsa, ilk növbədə qadınlar cariyəyə çevriləcək, onların isməti tapdanacaqdır. Gülcamal şərəfsiz, namusu tapdana-tapdana yaşamaqdansa, vətən uğrunda "fədayican" olmağı şərəf bilir: "Əlimiz ilə əsarəti boynumuza salıb, vücudumuzu düşmən üçün hifz etməkdənsə, canımızı fəda edərək şöhrət və rahat kəsb etmək daha əfsəldir" fikirləri onun hansı əqidə sahibi olduğunu bir daha təsdiqləyir.

Gülcamal min illər boyu döyüşlərdə türk ərənləri ilə çiyin-çiyinə vuruşub ad qazanan, idarəçilikdə xidmət göstərən türk qadınlarının layiqli nümayəndəsi kimi təqdim olunur.Onun amalı vətənin istiqlalı və insanların xoşbəxtliyidir. O, vətəni canından, sevgisindən üstün tutur. Buna görə də vətən darda olanda həyatı üçün ən təhlükəli məqamı belə nəzərə almadan addım atmağı qərarlaşdırır.

Gülcamal tədbirli sərkərdə rolunu oynayan obraz kimi də yaddaqalandır. Onun Kaşqarda, Yenişəhərdə, Üçturfanda ordu qüvvələri cəm etmək, döyüş taktikası həyata keçirmək tədbirləri fikrin təsdiqinə əsas verir.

Müəllif bu əsərində vətən müqəddəsliyinin kimliyindən asılı olmayaraq bütün vətəndaşların son damla qanına qədər vətən cəbhəsində müdafiəyə hazır olmalarının, qeyrət nümayiş etdirmələrinin və s. əhəmiyyət və vacibliyindən söz açır, yadelli ölkələrin müstəmləkə cəhdlərini tənqid edir.

Avtobioqrafik səciyyə daşıyan "Gündoğdu" romanı İ.Qaspiralının həyat və fəaliyyətinin müəyyən cəhətlərini əks etdirmək baxımından xarakterikdir. Roman 1905-ci ildə "Tərcüman" qəzetinin 4, 1906-cı ildə isə 3 sayında dərc olunmuşdur. Lakin müəllif romanı tamamlaya bilməmiş, əsərdə təsvir olunan hadisələr yarımçıq qalmışdır. Əsərin baş qəhrəmanı krımlı gənc Daniyal bəydir. İ.Qaspiralı əslində Daniyal bəyin prototipidir. Həyatından məlumdur ki, İ.Qaspiralı daim millətin

tərəqqisini arzu etmiş, bütün varlığını şam kimi bu yolda əritmişdir. O, doğma Krımı qarış-qarış gəzərək xalqın adət-ənənə,məişət və yaşayış tərzlərini öyrənmiş, bu səyahətlərin nəticəsi kimi millətin cəhalət qaranlığında kor olduğunu görmüş, çarə yolları axtarmışdır. Daniyal obrazının simasında biz bu halın şahidi oluruq. Daniyal bəydə millət sevgisi yüksəkdir. Lakin o, "millətin halına aşina olmadıqca millətə xidmətin mümkün olmayacağını " başa düşür və buna görə millət haqqında "məlumatını artırmaq qərarı verib millət arasına atılır." Bu zaman biz Daniyal bəyin toylarda, məclislərdə, ağalar ziyafətində, mədrəsə bölmələrində iştirak edərək "əməli dərslər" aldığının şahidi oluruq. Bütün əsər boyu Daniyal millət fədaisi rolunda çıxış edir. O, millətə daha yaxından kömək olmaq üçün kənddən vilayət mərkəzinə köçüb advokatlıq etməyə başlayır. Daniyal millətin vəkili kimi az vaxt içində şöhrət tapır. Lakin bu şöhrət onu arxayın salmır. Millətin geriliyi onu ciddi narahat edir, daim düşündürür: "Nə etməli, millət uyumuş isə nə ilə oyandırmalı, xəstə isə nə ilə sağaltmalı, yaralanmış isə yarasını nə ilə bağlamalı, sehirlənmişsə sehri nə ilə pozmalı, canını və vücudunu nə ilə hərəkətə gətirməli?" Göründüyü kimi "nə etməli?" suallar narahatçılığı əhatəsində Daniyal əzilib-yorulsa da, çarənin müşkül olduğunu anlasa da millət sevğisi onun qüvvət və ümidlərinə güc verir. Eyni zamanda yazıçı əsərdə millət sevgisini Daniyalın ümid və qüvvətini artıran yeganə səbəb hesab etmir: "Daniyal bəyin ümidinə daha bir səbəb var idi. Hər nə qədər müsəlmanlara vaxtı keçmiş bir millət, hətta ölü bir millət demək adət olmuş isə də, Daniyal bəy bu qənaətdə deyildi, ...millətin diri olduğuna ancaq dərin yuxuda bulunduguna inanmışdı." Bu səbəbdən Daniyal millət yolunda çalışmaqdan çəkinmir. Başa düşür ki, millət ölü deyilsə, yatmışsa onun oyanması mümkündür. Əgər oyanarsa, ayağa qalxacaq, ayağa qalxacaqsa başqa millətlər kimi irəli gedəcək. Bu cəhət əsərin ideyasını təşkil edir. Ümumiyyətlə, "Gündoğdu" romanı maarifçilik ideyalarının təbliği və təntənəsi baxımından İ.Qaspiralı yaradıcılığında əhəmiyyətli yerlərdən birini tutur. Əlbəttə, bu səbəbsiz deyildir. Tanınmış ədəbiyyatşunas alim, İ.Qaspiralı yaradıcılığının gğrkəmli tədqiqatçısı prof. Xeyrulla Məmmədov bu halı belə qiymətləndirir: "J (İsmayıl Qaspiralı-E.Q.) belə hesab edir ki, zəmanə dəyişmiş, orta əsrlərdə dəbdə olan istilalar və fəthlər dövrü arxada qalmışdır. Müasir şəraitdə xalqın vaxtilə nail olduğu möhtəşəm şöhrəti indi maariflənmək yolu ilə geriyə qaytarmaq olar."[2]

Süleyman isə bir il əlifba keçdikdən, üç il isə təkrar 3 dəfə Quranı başa çıxdıqdan sonra məktəbdən çıxarıldı. Amma nə yazı-pozu, nə də hesab bilmir. Misirdən Müsyo Bardo adlı bir tacir gəlir. O, hər iki uşağı Misirə oxumağa göndərmək istəyir. İvanın anası Mariya, oğlunun təhsil almağa getməsinə icazə versə də, Süleymanın anası Həlimə xanım bu işə razılıq vermir. İvan oxumağa gedir. Süleyman isə məhəllədə qəhvə satmaqla gün keçirməyə başlayır. Onun qazancı olmadığı üçün anası aclıqdan əziyyət çəkir və dünyasını dəyişir. Süleyman anasının ölümündən sonra evlənsə də ailəsini dolandırmaqda çətinlik çəkir, yenə də maddi sıxıntı içində boğulur, İvan isə oxuyub ticarət sahibi olur və anasına vaxtlı-vaxtında pul göndərir. Bir gün İvan doğma şəhərinə gəlir. Süleymanın həyat yoldaşı və onun qohumları bu gedişə mane olurlar. İvan dostuna bir qədər pul verib, təəssüf hissi ilə ondan ayrılır. Müəllif Süleymanın düşdüyü vəziyyəti bilavasitə fanatik müsəlman baxışları və mollaxana təhsil sistemi ilə bağlayır. Çünki Süleyman da İvan kimi tərbiyəli, ağıllı, təhsilə maraqlı, zəhmətkeşdir. Lakin İvandan fərqli olaraq Süleyman heç bir yazı-pozu öyrədə bilməyən məhəllə məktəbini bitirir. Müəllif bunu Süleymanın həyatının sonrakı dövrünün çətinliyi üçün səbəb hesab etsə də, Müsyo Bordonun gəlişi ilə onun həyatını yaxşı mənada dəyişmək imkanlarının mümkünlüyünə yer saxlayır. Qeyd etdiyimiz kimi, mühitin cəhalət, təfəkkür və

baxışları yaranmış bu imkanın da üstündən xətt çəkir. Çünki müəllifə görə nə qədər ki, müsəlman mühiti maarif və məktəbdən uzaqdır, insanlar bir o qədər də cəhalət qaranlığında həyata kor baxacaq, tərəqqidən uzaq olacaqdır. İ.Qaspiralı maarif və məktəbi cəhalətə, nadanlığa son qoya biləcək yeganə varlıq hesab edir. O, hər bir insanın, hər bir millətin gələcəyini yüksək maariflənmədə görürdü. İ.Qaspiralı roman və hekayələri ilə Türk və Şərq dünyasında modern ədəbiyyatın yaranmasına nail olmuş, istər bədii, istərsə də publisistik yaradıcılığında türkçülük ideyalarını geniş şəkildə təbliğ etmişdir.

"AZƏRBAYCAN YURD BİLGİSİ" DƏRGİSİNDƏ AZƏRBAYCAN-AVROPA ƏDƏBİ ƏLAQƏLƏRİ MƏSƏLƏSİ - Altuntac MƏMMƏDOVA[43]

ÖZET

Bu çalışmada, Ahmet Caferoğlu'nun müdürlüğünü yaptığı "Azerbaycan Yurt Bilgisi" dergisindeki Azerbaycan-Avrupa edebi ilişkilerinden bahsedilmektedir. Araştırmada "Azerbaycan Yurt Bilgisi" dergisi bu bağlamda çeşitli yönleriyle incelenmiştir. Mesela, dergide Avrupa basınında yayınlanmış Azerbaycan Türkçesi, edebiyatı ve kültürü hakkında bilimsel çalışmalar ve Avrupalı bilim adamlarının bu konudaki makaleleri mercek altına alınmıştır. Ayrıca derginin "Tahlil ve Tenkitler" köşesindeki belirli çalışmalara dair görüşler ve eleştiri yazıları da incelenmeye çalışılmıştır.

Makalede, özellikle Ahmet Caferoğlu'nun "Azerbaycan Yurt Bilgisi" dergisinin 4. Sayısında yayınlanmış "Şarkta ve Qarpta Azeri Lehçesi tetkikleri" adlı temel çalışması, Hilal Münşi'nin "Die Republik Aserbeidschan" adlı eserine, O. Chatskaya'nın "Quatraine populaires de l'Azerbaidjan" başlıklı makalesine yazdığı raporlar ve G. Yaeschke'nin "Azerbaycan Hakkında Almanca Yayınlar" adlı makalesi ü.zerında durulmuştur.

İncelemeler sonucu, Azerbaycan-Avrupa edebi ilişkilerinin sürekli derginin dikat merkezinde olduğu ve derginin faaliyetinde önemli bir yer tutduğu kanısına varılmıştır.

GİRİŞ

Azərbaycan mühacirət ədəbiyyatşünaslığının görkəmli nümayəndələrindən biri, dünya miqyasında tanınan məşhur türkoloq Əhməd Cəfəroğlunun çoxşaxəli elmi-nəzəri və publisistik fəaliyyətində təsisçisi və baş redaktoru olduğu "Azərbaycan yurd bilgisi" (AYB) jurnalı xüsusi yer tutur. Təsadüfi deyil ki, alimin zəngin irsinin tədqiqatçıları AYB-ni türk dünyasının dil, ədəbiyyat, mədəniyyət məsələlərinin dərin araşdırıcısı olması etibarilə yüksək qiymətləndirir, onun bu gün də böyük əhəmiyyətini qeyd edirlər. Azərbaycan mühacirət mətbuatının tədqiqatçılarından olan A. Tahirli yazır: "Əhməd Cəfəroğlunun ədəbi-elmi-nəzəri irsi onun bir türkoloq kimi adını əbədiləşdirir. Lakin bu böyük qələm sahibini Azərbaycan tarixində yaşadacaq daha bir şah əsəri var: "Azərbaycan yurd bilgisi" (AYB) jurnalı" (1, 105). Ə. Cəfəroğlu haqqında Azərbaycan mətbuatında ilk yazının müəllifi olan V. Quliyevin də jurnala verdiyi qiymət əlamətdardır: "Tam əsasla 30-cu illərin "Azərbaycan ensiklopediyası" adlandırıla biləcək bu jurnalda Azərbaycan xalqının dili, tarixi, etnik mənşəyi, qonşu mədəniyyətlərlə qarşılıqlı əlaqəsi, türk dünyasındakı yeri və rolu, musiqisi, folkloru, etnoqrafiyası və s. ilə bağlı onlarla maraqlı faktlarla zəngin məqalələr dərc edilmişdir. Heç şübhəsiz ki, Əhməd Cəfəroğlu özünə dünya şöhrəti qazandıran əsərləri yazmasaydı belə, təkcə "Azərbaycan yurd bilgisi"nin nəşri onun adının elmi-ədəbi dairələrdə əbədi yaşaması və gələcək nəsillərin onu minnətdarlıqla yad etməsi üçün kifayət idi" (2, 5).

1932-34-cü illərdə 36, 1954-cü ilin fevral ayında isə daha bir nömrəsi çap olunmuş jurnalın 1984-ci ildə İstanbulda bütün nömrələrinin yenidən fotofaksimilə şəklində nəşr olunması onun aktuallığına, dəyərini saxladığına dəlalət edir.

---

[43] Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun aspirantı, Bakü/AZERBAYCAN

AYB-nin 1-ci nömrəsində "Bir neçə söz" sərlövhəli müqəddimədə Ə. Cəfəroğlu jurnalın yaranma səbəbini izah edərək yazırdı: "Son on il ərzində müxtəlif sahələrdə Azərbaycanın tədqiqinə ciddi təşəbbüs edilməsi qismən yaxşı nəticələr vermişsə də, mədəniyyətimizin bir çox cəhətləri hələ də naməlum olaraq qalmaqdadır. Yəni, tikilmək istənilən böyük binanın təməli hələ boşluqlarla doludur. Məhz bu binanın təməlindəki böyük boşluqlar AZƏRBAYCAN YURD BİLGİSİ-nin (fərqlənmə Ə. Cəfəroğlunundur - A. M.) yaranmasına səbəb olmuşdur" AYB-nin bu əsas qayəsi ilə yanaşı "elmi münasibətin millətlər arasında gündən-günə sıxlaşması və biri digərini bu vəsilə ilə daha artıq tanıya bilməsi" (3, 3) zərurətini qeyd edən Ə. Cəfəroğlu jurnal vasitəsilə həm Azərbaycanın tarixi, mədəniyyəti və ədəbiyyatı haqqında bilgilərin Avropa ictimaiyyətinə çatdırılmasını, həm də Avropada Azərbaycana aid aparılan müvafiq tədqiqatların AYB vasitəsilə intişarını nəzərdə tuturdu. Və xüsusi olaraq qeyd etməliyik ki, jurnalda bu mövzuda dərc olunan yazıların əsas müəllifi də Ə. Cəfəroğlu özü idi.

Jurnalın bir neçə nömrəsi çapdan çıxandan sonra bu qayəsi baxımından onu məmnun edən hadisə baş vermişdi. "Fransa Musiqi Cəmiyyəti"nin məcmuəsi olan "Revuede Musicologie" ("Musiqişünaslıq jurnalı") oxucularına Türkiyədə AYB adlı jurnalın nəşrə başlaması, Azərbaycan musiqisinə, aşıq ədəbiyyatına aid məqalələr dərc etməsi haqqında məlumat vermişdi. "Bir təşəkkür" sərlövhəli kiçik yazıda Ə. Cəfəroğlu "Revuede Musicologie"də çıxan məlumatı şərh edərək yazırdı: "Müştərək elm yolunun yolçusu bulunan məsləkdaşımıza göstərdiyi bu münasibətə görə təşəkkür edirik. Düşünürük ki, məcmuənin sonrakı nömrələrində də bizim yazılara aid məlumatlara rast gələcəyik" (4, 56).

AYB-də Azərbaycan-Avropa ədəbi əlaqələrinin işıqlandırılması bir neçə istiqamətdə aparılırdı. Jurnalda Avropa ölkələrində Azərbaycan dili, ədəbiyyatı və mədəniyyətinə aid yazılar tədqiqat xarakterli materiallarda araşdırılır, Avropa alimləri haqqında məqalələr dərc olunur, "Təhlil və tənqidlər" guşəsində müvafiq əsərlərə rəy və resenziyalar yazılırdı.

Avropada Azərbaycan dili və ədəbiyyatına aid yazılanların tədqiqinə dair məqalələr sırasında ilk növbədə Ə. Cəfəroğlunun AYB-nin dörd nömrəsində dərc olunmuş irihəcmli "Şərqdə və Qərbdə Azəri ləhcəsi tədqiqləri" adlı fundamental əsərini misal göstərmək olar.

Ə. Cəfərŏğlu bu mükəmməl əsərində İbn Mühənnadan (XIII əsr) başlayaraq XX əsrin iyirminci illərinədək olan dövrdə Şərq və Qərb, həmçinin rus səyyah və tədqiqatçılarının (Ə. Cəfəroğlu onları da Qərbə aid etmişdir) Azərbaycan dili və qismən də ədəbiyyatı haqqında yazdıqlarını təhlil etmiş, müsbət və mənfi cəhətlərini göstərməklə elmi qiymətini vermişdir.

Ə. Cəfəroğlu tədqiqatını Azərbaycan dilinin adı ilə bağlı zəruri bir izahla başlayaraq yazır: "Avropa elm tədqiqatında bu türk dili sahəsi əvvəllər öz adı ilə anıldığı halda, bir əsrlik Rusiya hakimiyyəti dövründə rus üləmasının da təşviqi ilə Rusiya türklərinin mühüm kütləsinə izafə edilən "tatar dili" camıəsinə idxal edilmiş və istər-istəməz bugünkü Qafqaz Azəri türkcəsi özünün eyni olan İran Azərbaycanı türkcəsindən tamamilə ayırd edilmişdir" (5, 16).

Qərb səyyah və tədqiqatçılarından Adam Oleari, D. F. M. Maggio, Leipniç, L. H. Panduro, İ. Chr. Adelung, F. Adelung, Palmbald, Hammer, Klaproth, Radloff (Ə. Cəfəroğlu Radlovff'u rus yox, alman alimi hesab edirdi), Vambery, Karl Foy, H. Ritter, Bang-Kaup, Jan Deny, O. Chatskaya və Dimitriyev'in Azərbaycan dili və ədəbiyyatına aid yazdıqlarını araşdıran Ə. Cəfəroğlu qeyd edir ki, ilk Qərb səyyahı Afanasi Nikitin'dən sonra XVII əsr Avropa səyyahlarına qədər iki yüz il ərzində Azəri

ləhcəsinə kimsə təmas etməmişdir. XVII əsrin 30-cu illərində Azərbaycanın milli adət-ənənəsinə, etnoqrafiyasına, lisanına təmas edən Adam Oleari olmuşdur. Alimin qənaətinə görə, Oleari'nin təsbit etdiyi təbir və istilahların əksəriyyəti türkcə olmadığına və Qafqaz Azərbaycanında artıq işlənmədiyinə görə yalnız lüğəvi əhəmiyyətə malikdir. Ancaq Oleari'nin topladığı coğrafi xüsusi isimlərin "çox qiymətli" olduğunu yazırdı.

Ə. Cəfəroğlu Maggio'nun tədqiqatını yüksək qiymətləndirərək göstərir ki, "Əsl Qafqaz Azəri ləhcəsinə təmas edən XVII əsr səyyahlarından italyan D. F. M. Maggio olmuşdur" (6, 21). Maggio Qafqaz səfəri zamanı Azərbaycanda yox, Gürcüstanda olmuşdu. Ancaq yazdığı qrammatika kitabı iki hissədən ibarət idi; birinci hissədə gürcü dilindən, ikinci hissədə isə "Liber secundus, complectens Arabum et Turcarum orthographiam et turcicae linguae institutionrs" ("Ərəb və türk orfoqrafiyaları ilə və türk dili təsisatları ilə tamamlanmış ikinci kitab") başlığı altında Qafqaz türkcəsindən bəhs edirdi ki, bu da Gürcüstanda yaşayan azərbaycanlıların dili idi. Kitab ilk dəfə Romada "De propaganda fide"də ("Dəqiq təbliğat") nəşr olunmuşdu. İkinci dəfə isə 1670-ci ildə "Syntagma linguarum orientalium, quae in Geirgiae regionibus audiuntur, auctore D. F. M. Maggio" ("Gürcüstan regionunda danışılan Şərq dillərinin sintaqması, müəllif D. F. M. Maggio") adı ilə çap edilmişdi.

Maggio´dan sonra XIX əsrə qədər Azəri ləhcəsi tədqiqatının yeni bir durğunluq dövrü keçirdiyini qeyd edən Ə Cəfəroğlu göstərir ki, 1786-1787-ci illərdə "Linguarum toti us orbis vocabularia comparativa, Augustissimae, cura collecta" ("Bütün dünya dillərinin müqayisəli lüğəti, Avqist tərəfindən toplanmışdır") adı ilə nəşr edilib 200 dili ehtiva edən lüğətə az sayda olsa da, Azəri ləhcəsinə aid kəlmələr daxil edilmişdi. L. H. Panduro´nun 1784-cü ildə nəşr edilmiş "Catalogo delle lingue, conosciute e notizia della loro affinita e diversita" ("Dillərin kataloqu, onların incəlikləri və müxtəlifliyi haqqında qeydlər") adlı əsəri də bu qəbildən idi və məhdud sayda Azəri sözləri verilmişdi.

Ə. Cəfəroğlu tədqiqatının bu yerində Azərbaycan dilinin adının tarixən necə təhriflərə məruz qaldığını oxucunun diqqətinə çatdırır. Həm İ. Chr. Adelung´un əsərində, həm də qardaşı oğlu F. Adelung´un tədqiqatında türk ləhcələri təsnifatı bəhsində Azəri ləhcəsindən "Tourkmans" (türkmanlar) qövmləri adı altında bəhs edilirdi. İran Azəri ləhcəsi isə birincidə "Afschars" (Əfşarlar), ikincidə isə "Afschars, en Perse" ("Əfşarlar və farslar") adı ilə təqdim olunurdu. Hər ikisində də müştərək olaraq, "Schirwan" (Şirvan) adı altında Qafqaz Azəri ləhcəsini nəzərdə tuturdular. Palmbald Asiya türk qövmlərinin ləhcələrini təsnif edərkən Azəri ləhcəsini ümumiyətlə diqqətə almamış ("Geographisce und Statistische Ephemeriden", 1827. Band XXI, s.225-240 – "Coğrafi və statistik gündəliklər", cild XXI), Hammer isə, Ə. Cəfəroğlunun yazdığı kimi, "tamamilə sələflərindən ayrılmış ("Bibliotheca italiana" – "Italyan kitabxanası") Decembre, 1825, s. 364-365), nə Azəri ləhcəsini və nə də Şimali Qafqaz türklərini nəzəri-diqqətə almamış və özünün türk ləhcələri təsnifində Qafqaza aid olmaq üzrə ancaq "Dağıstan" kimi məchul təbir altında Qafqaz türkcəsindən bəhs eyləmişdir" (7, 17). Klaproth "Asia polyglotta"sına ("Asiya poliqlotu") əlavə edilmiş atlasda, həmçinin 1832-ci ildə Parisdə çap etdirdiyi "Voyage au Caucase et en Jeorgie" adlı digər əsərində Azəri ləhcəsindən "Qızılbaş ləhcəsi" kimi bəhs edir.

Tədqiqatını davam etdirən Ə. Cəfəroğlu qeyd edir ki, Qərbdə təqribən XIX əsrin sonlarına doğru Azərbaycan ləhcəsi də elm mövzusu olmağa başladı. İlk olaraq alman alimlərindən Radloff´un 1893-cü ildə Sankt-Peterburqda çıxmağa başlayan məşhur dördcildlik "Versuch einer Wörterbuches der Türk Dialekte" ("Türk

dialektləri lüğəti") adlı lüğətində, Azəri ləhcəsnə aid digər lüğətlərində bu ləhcənin tədqiqinin zəminini hazırlamış oldu. Alim Radloff´un lüğətinə aid belə izahat verir ki, buradakı mindən artıq söz ümumi "Azəri" adı altında verilmişsə də, onun qənaətincə, əslində, onlar yalnız İran Azəri ləhcəsini ehtiva edə bilmişdir. Qeyd edir ki, "o zamanlarda Azərbaycan təbirinin ancaq İranın bu əyalətinə aid edildiyi nəzəri-diqqətə alınarsa, artıq bunda tərəddüdə məhəl qalmaz" (8, 36).

Vambery´nin 1901-ci ildə Laydendə çapdan çıxmış "Alt Osmanische Sprachstudien, mit einem Azerbaicanischen texte" ("Azərbaycan mətni əsasında qədim Osman dilləri haqqında") adlı əsərinə əlavə etdiyi mətni Avropada transkripsiyası verilmiş ilk Azəri ləhcəsi nümunəsi hesab edən Ə. Cəfəroğlu, eyni zamanda, mətnin harada, nə zaman, hansı azərbaycanlının dilindən təsbit edildiyinin göstərilməməsini müəllifə irad tutur. Foy´un 1903-1904-cü illərdə Berlin Universitetinin Şərq İnstitutunun məcmuəsində çap olunmuş "Azerbaicanische dien mit einer Charakteristik des Südtürkisehen" ("Cənub türkcəsinin təhlili əsasında Azərbaycan dili haqqında") adlı tədqiqatını "çox qiymətli" əsər adlandıran alim qeyd edir ki, müəllif həm Qafqaz, həm də İran Azəri ləhcəsini əhatə etdiyinə və Azəri ləhcəsini də bütün Cənub türkcəsi kimi Göytürkcə ilə sıx əlaqədə olduğunu göstərdiyinə görə tədqiqatı "şayani-diqqətdir". Ə. Cəfəroğlu H. Ritter´in 1921-ci ildə "İslam" məcmuəsinin XI cildində (Der İslam. Bd. XI, 1921) nəşr olunmuş "Azerbaidschanische Texte zur nordpersischen Volkskunde" ("Şimali iranşünaslığa dair Azərbaycan mətnləri") adlı əsərini də yüksək qiymətləndirərək qeyd edir ki, Şimali İran Azəri şivəsinə aid təsbit etdiyi mətn böyük əhəmiyyətə malikdir. Bang-Kaup haqqında yazır ki, onun bu ləhcəyə təmas edən müstəqil bir tədqiqatı olmasa da, elmi dəyərlərini daim mühafizə edəcək əsərlərində Azəri sözlərindən və qrammatik şəkillərindən bəhs etmişdir. Jan Deny´nin "Grammaire de la langue Turqe" ("Türk dilinin qrammatikası", Paris, 1921) əsərindən bəhs edən alim yazır ki, Azəri ləhcəsinin tədqiqində onun çox doğru görüşləri vardır. O. Chatskaya´nın "Gəncə şivəsini təsvirə çalışan" "Quatraine populaires de l'Azerbaycan" ("Azərbaycan xalq bayatıları") adlı əsərini və əsərə müqəddimə kimi yazılmış Dimitriyev´in bu şivəyə aid fonetik tədqiqatını ("Journal Asiatique" – "Asiya jurnalı", 1928) səthi olmalarına baxmayaraq, yuxarıda göstərilən əsərləri tamamlamağa yararlı bir araşdırma adlandırır (Ə. Cəfəroğlunun bu tədqiqatlara yazdığı ayrıca rəydən aşağıda bəhs edəcəyik).

Böyük alim bu dəyərli tədqiqatını, yəqin ki, daxili bir qürur hissi keçirərək, öz əsərinə istinadla bitirir: "Son on ilə doğru Azəri ləhcəsinə dair Qərbdə vücuda gətirilən tədqiqatlar arasında birisi də mənə aiddir. 1930 cu ildə həm ayrıca kitabça kimi, həm də Berlin Şərq İnstitutunun məcmuəsində çap olunmuş "75 Azerbaycanişe Lieder "Bayatı" in der Mundart von Gence nebst einer sprachlichen Erkla erung" ("Gəncə şivəsində 75 azəri bayatısı və lisana aid bir müqəddimə") adlı tədqiqatımda mən ana şivəm olan Gəncə şivəsinin fonetik xüsusiyyətlərini təsbit etdim" (9, 37).

Azərbaycan xalqı, Azərbaycan dili, ədəbiyyatı və mədəniyyəti haqqında Qərb müəlliflərinin tədqiqatlarına dair AJB-də dərc olunmuş digər icmalın müəllifi alman professoru G. Yaeschke'dir. G. Yaeschke "Azərbaycan haqqında almanca nəşrlər" adlı məqaləsində alman dilində Azərbaycan tarixi və mədəniyyətinə aid ədəbiyyatın olmadığını və bu tələbatın müəyyən qədər Hilal Münşinin "Die Republik Aserbeidschan" ("Azərbaycan respublikası") kitabı ilə ödənildiyini qeyd edəndən sonra Friedrich Bodenstedt'dən başlayaraq Adolf Berge, R. Erckert, Karl Foy, M. Rickli, A. Wirth, Georg Buschan, A. Byhan və O. G. Wesendonk' un tədqiqatlarının şərhinə keçir. Friedrich Bodenstedt'in "Mirzə Şəfinin şeirlərini almancaya tərcümə etməsilə şöhrət qazandığını" ("Mirzə Şəfinin şərqiləri", Berlin, 1851) qeyd edəndən

sonra onun Berlində 1855-ci ildə iki dəfə çap olunmuş "Die Völker des Kaukasus und ihre Freiheitskaempfe gegen die Russen" ("Qafqaz xalqları və onların Rusiyaya qarşı azadlıq mübarizələri") kitabında Qafqaz türklərinə həsr etdiyi fəsildən bəhs edir. Göstərir ki, "Bu əsərində müəllif Qafqazdakı səyahətləri zamanı etdiyi müşahidələr nəticəsində topladığı faktlara istinadən təsbit edir ki, ruslar tərəfindən hamısına əbləhcəsinə "tatar" ismi verilən Qafqaz türkləri danışdıqları dilin adına yalnız "türkcə" deyirlər. Müəllif, eyni zamanda, qeyd edir ki, Qafqaz türklərinin lisanı ilə İstanbul türkcəsi arasında həm qrammatik, həm də lüğət tərkibi etibarilə heyrət ediləcək dərəcədə böyük bir yaxınlıq və bənzəmə vardır." (10, 27).

G. Yaeschke Adolf Berge'nin 1868-ci ildə Leypsiqdə nəşr olunmuş "Dichtungen transkaukasischer Saenger des 18, und19. Jahrhunderts in Azerbaidschanischer Mundart" ("XVIII-XIX əsrlər Cənubi Qafqaz nəğməkarlarının Azərbaycan şivəsindəki şeirləri") adlı kitabından, bu kitaba yazdığı müqəddimədən bəhs edir, nəşrin Azərbaycan-Almaniya ədəbi əlaqələrinin təşəkkülü baxımından böyük əhəmiyyətə malik olduğunu nəzərə çatdırır.

G. Yaeschke R. Erckert'in 1887-ci ildə Leypsiqdə nəşr olunmuş "Der Kaukasus und seine Völker" ("Qafqaz və onun xalqları") adlı tədqiqatından bəhs edərkən, onun bu fikirlərini xüsusilə diqqətə çatdırır ki, azərilər kübar və olduqca xarakterli adamlardır, sədaqət və etimad kimi məziyyətlərdə üstündürlər, Azərbaycanda danışılan türkcə məntiq və mükəmməlliyə malik olduğunu bəyan edir və bu türkcəyə "tatarca" və yaxud daha da dərin həqarət əlaməti olaraq "turko-tatarca" ismi verilməsi böyük bir yanlışlıqdır.

Ə. Cəfəroğlu kimi G. Yaeschke də Karl Foy'un Berlində iki dəfə (1903, 1904) çap olunmuş "Azerbaicanische studien mit einer Charakteristik des Südtürkisehen" ("Cənub türkcəsinin təhlili əsasında Azərbaycan dili haqqında") adlı əsərini yüksək qiymətləndirərək yazır ki, Vambery və Radloff'un açdığı cığırdan sonra Avropa alimlərindən məhz Foy birinci olaraq Azəri türklərinin dili haqqında sistematik bir əsər qələmə almışdır. Foy bilxassə Göytürkcənin (əsl türkcənin) bügünkü cənubi türklərin ləhcələri ilə olduqca sıx bir rabitədə olduğunu qeyd edir. Foy, eyni zamanda, təsbit edir ki, azərbaycanlılar öz lisanlarına "türkü" adını verirlər. G. Yaeshke nəzərə çatdırır ki, Foy yazılarında, həmçinin, azərbaycanlıların ədəbiyyatından da bəhs etmiş və bu nəticəyə gəlmişdir ki, Avropadakı yanlış fikrin ziddinə olaraq bu ədəbiyyat son dərəcə geniş və mükəmməldir.

M. Rickli, A. Wirth, Georg Buschan, A. Byhan və O. G. Wesendonk'un tədqiqatları üzərində də dayanan G. Yaeschke də icmalını əslində Ə. Cəfəroğlunun əsərinə istinadla bitirərək, onun "75 Azerbaycanişe Lieder "Bayatı" in der Mundart von Gence nebst einer sprachlichen Erklaerung" ("Gəncə şivəsində 75 azəri bayatısı və lisana aid bir müqəddimə") adlı əsərini dərin elmi tədqiqat kimi qiymətləndirir və əlavə edir ki, müəllifinin gəncəli olması bu əsərin dəyərini daha da yüksəldir.

Sonda Q. Yaeschke mötəbər tədqiqatçı hesab eləmədiyi Kiyev yəhudisi Leo Noussimbaum'un "Əssəd Bəy" adı altında 1930-1931-ci illərdə buraxdığı "şayani-təəssüf" olan "Oel und Blut im Orient" (" Şərqdə neft və qan") və "Der Kaukasus. Seine Berge, Völker und Gesschichte" ("Qafqaz. Onun dağları, xalqları və tarixi") kitablarında Azərbaycan xalqının tarixi və mədəniyyətinə aid iftiralarına cavab verərək qeyd edir ki, Noussimbaum "əsərlərində o qədər vəhşi bir fantaziya büruzə vermişdir ki, sadəcə bundan dolayı bu adam mötəbər bir müəllif olaraq hesab edilməz. Nə yaxşı ki, həm nüfuz sahibi olan bir çox alman ziyalısı və həm də alman mətbuatı bu əsərləri dərin nifrətlə qarşıladı. Almaniyada baş verən milli inqilabın sevindirici bir

cəhəti də budur ki, belə rəzil əsərlər üçün bu gün intişar olunmaq imkanı artıq qalmamışdır" (11, 31).

Həm Ə. Cəfəroğlunun, həm də Q. Yaeschke'nin tədqiqat xarakterli bu icmalları bu gün də elmi əhəmiyyətini itirməmişdir.

Ə. Cəfəroğlunun Bang-Kaup haqqında yazdığı məqalə onun türk xalqları ilə ədəbi əlaqələrin yaradıcıları olan insanlara necə hörmət və məhəbbətlə yanaşdığını göstərir. Ə. Cəfəroğlu 1926-cı ildə Berlin Şərq İnstitutunun Türk Seminarında iki ay Bang-Kaup'un tələbəsi olmuşdu və məqaləsində omu fəxrlə "ustad" adlandıraraq yazırdı: "Özünəməxsus müqayisəli türk ləhcələri araştırması məktəbi quran və bu sahədə türkiyyatın bəlkə ən böyük tədqiqatçı ustadı olan Bang-Kaup... bütün türk ləhcələrini bir ölçüdə tutan, bir gözlə görən və nəhayət bir qəlblə sevən yeganə türkoloqdur. O, araştırmalarında türk dili ləhcələrinin hamısına birdən təmas edərdi; zahirən tədqiq etdiyi mövzu ilə heç bir əlaqəsi olmadığı zənn edilən bir ləhcəni o qədər əzizləyər və ruhuna nüfuz edərdi ki, nəticədə, ustadın kəckin zəkası sayəsində ləhcələr arasındakı bağlar meydana çıxmış olurdu. Elmi qədər qəlbi də türk aşiqi idi...Bir dəfə mənə "siz türklər dünyanın ən gözəl və ən zəngin dilinə maliksiniz" söyləməkdən özünü saxlaya bilməmişdi" (12, 9).

AYB-nin "Təhlil və tənqidlər" guşəsində çap etdiyi yazılarında Ə. Cəfəroğlu həm təqdir, həm də tənqid edəndə təəssübkeş azərbaycanlı kimi çıxış edirdi. Jurnalın 6-7-ci nömrəsində (bəzən iki nömrəsi birləşdirilmiş halda buraxılırdı) Hilal Münşinin "Die Republik Aserbeidschan" (Berlin, 1930, 64 s.) kitabı haqqında yazırdı: "Azərbaycan cümhuriyyətinin təşəkkülündən bu günə qədər Avropa dillərində bu mövzuya doğrudan-doğruya təmas edən əsərin yox dərəcəsində olduğunu söyləsək, mübaliğə etməmiş olarıq. Hilal Münşi bəy bu nüvə əsəri ilə, ilk olaraq, Almaniya mühitinə Azərbaycanı tanıtmağa çalışmışdır. Əsər Azərbaycan tarixi və həyatının hər bir nöqtəsinə təmas etmiş və bilxaccə Azərbaycanı Avropa mühitinə olduqca çirkin bir şəkildə tanıtmaq istəyən, "Min bir gecə"ni andıran "Öl und Blut im Orient" əsərinin müəllifi – əslən yəhudi, ismən türk olan Əssəd bəyin xətalarını həqiqi vaqiələrlə təshihə çalışmışdır... Hilal bəy Azərbaycanın fikir həyatında rolları olduqca böyük olan Azəri mətbuat, teatr xadimlərini bir-bir tədqiqata cəlb etmişdir... İlk vücuda gətirdiyi bu əsər hamı üçün anlaşılan olduğundan alman mühitini Azərbaycan həyatı ilə tanış edə biləcək bir mahiyyətdədir. Bu nöqtədən "Die Republik Aserbeidschan"ın arzu edilən məqsədə varmış olması təqdirə layiqdir" (13, 53).

"Təhlil və tənqidlər" güşəsində dərc edilmiş yazılarda diqqəti cəlb edən bir cəhət də budur ki, Ə. Cəfəroğlu AYB-nin nəşrindən əvvəlki illərdə yazılmasına baxmayaraq, Azərbaycanın və azərbaycanlıların heysiyyətinə toxunan, elmi yanlışlığa yol verən hər hansı bir məqaləyə cavab verməyi, gec də olsa, zəruri sayırdı. O. Chatskaya'nın bir əsəri (O. Chatskaya. "Quatraine populaires de l'Azerbaidjan. Avec introduction de N. K. Dimitriyev." "Journal Asiatique". T. CCXII. № 2. Avril-Juin. Paris 1928, s.228-265 – O. Chatskaya. "Azərbaycan bayatıları. Ön sözü N. K. Dimitriyevindir" "Asiya jurnalı", c. CCXII, №2, aprel-iyun, Paris, 1928, s.228-265) və bu əsərə müqəddimə kimi yazılmış Dimitriyev'in tədqiqatı haqqında dərc etdiyi rəyi misal göstərmək olar. Ə. Cəfəroğlu yazırdı: "Təxminən bir əsrdən bəri Şərqi və o cümlədən türkləri tədqiq edən "Journal Asiatique" ("Asiya jurnalı") kimi elmi və ciddi bir məcmuədə "Chansons populaairesTatares" – "Tatar xalq şərqiləri" sərlövhəsi altında Azəri türklərini "tatar" deyə tanıtmaq, çox təəssüf ki, əski rus təbirini xatırlatmaqdadır. Anadolu qardaşlarından ayırmaq üçün ruslar tərəfindən zorla azərilər mühitinə idxal edilən bu təbir artıq bir daha tələffüz edilməmək üzrə türk

mühitindən tamamilə qalxmış və alim adlanan madam Chatskaya‘ların və Dimitriyev‘lərin bunu xatırlatmalarına ehtiyac qalmamışdır” (14, 48).

Bu da əlamətdardır ki, yalnız doğma xalqının nüfuzuna aid iradını bildirəndən sonra elmi şərhə keçir. Qeyd edir ki, Chatskaya‘nın məqaləsi Gəncə ləhcəsini təsvir edən 76 bayatıdan ibarətdir. Sırf şəxsi tələffüzlər əsasında transkripsiyası verilmiş bu bayatılardan bir qismi Gəncə mahalına, bir qismi də şəhərin özünə aiddir. Bu üzdən eyni sözün tələffüzü biri digərindən fərqli olaraq yazılmışdır ki, bu da bir dərəcəyə qədər fonetik nöqteyi-nəzərindən bəzi şübhələr doğurmamış deyildir. Müəllifin Azəri ləhcəsinə nə dərəcədə bələd olduğunu bilməyirik. Ancaq tədqiqatı istifadəyə yararlıdır. Dimitriyev‘in tədqiqatına verdiyi qiymət isə belədir ki, o, Gəncə ləhcəsinin əsas nöqtələrini fonetik cəhətdən aydınlaşdırmağa çalışmışsa da, fəqət səthidir.

“Təhlil və tənqidlər” guşəsində dərc olunmuş digər yazılarda da Azərbaycan dilinə və ədəbiyyatına, mədəniyyətinə aid məqalə və tədqiqatlara bu cür obyektiv elmi münasibət göstərilməsi səciyyəvidir.

AYB-də dərc olunmuş yuxarıdakı materialların şərhindən belə nəticəyə gəlmək olar ki, Azərbaycan-Avropa ədəbi əlaqələri məsələsi jurnalın daim diqqət yetirdiyi mövzulardan olmuş və onun fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil etmişdir.

ƏDƏBIYYAT:

1. Tahirli A. H. Azərbaycan mühacirət mətbuatı: 2 hissədə, I hissə, Bakı: Qapp-poliqraf, 2002,158 s.

2. Quliyev V. M. Gedənlərin qayıtması. Ş. A. Həsənovanın “Mühacirət irsimizdən səhifələr” (Bakı: Maarif, 1995, 152 s.) kitabına yazdığı müqəddimə.

3. Caferoğlu A. İ. Birkaç söz // Azerbaycan yurt bilgisi, 1932, № 1, s. 3-4

4. Caferoğlu A. İ. Bir teşekkür // Azerbaycan yurt bilgisi, 1932, № 8-9, s. 56

5. Caferoğlu A. İ. Şarkta ve Qarpta Azeri lehcesi tetkikleri-I // Azerbaycan yurt bilgisi, 1934, № 27, s. 16-22

6. Yenə orada

7. Caferoğlu A. İ. Şarkta ve Qarpta Azeri lehcesi tetkikleri-II // Azerbaycan yurt bilgisi, 1934, № 28, s. 16-21

8. Caferoğlu A. İ. Şarkta ve Qarpta Azeri lehcesi tetkikleri-IV //Azerbaycan yurt bilgisi, 1934, № 30, s. 33-38

9. Yenə orada.

10. Yaeschke G. Azerbaycan hakkında almanca neşriyattan // Azerbaycan yurt bilgisi, 1934, № 25, s. 27-31

11. Yenə orada

12. Caferoğlu A. İ. Profesör Bang-Kaup // Azerbaycan yurt bilgisi, 1934, № 33-34, s. 9-15

13. Caferoğlu A. İ. Hilal Münşi: Die Republik Aserbeidshan // Azerbaycan yurt bilgisi, 1932, № 6-7, s. 53

14. Caferoğlu A. İ. O. Chatskaya: Quatraine populaires de L’Azerbaidjan // Azerbaycan yurt bilgisi, 1932, № 11, s. 48

KAFKASLARDA AZERI TÜRK EDEBIYYATININ YENI AŞAMASI: DOĞU DENEĞIMINDEN BATI DENEĞIMINE

ARIF ESEDOV[44]

Kendinden kaynaklanan bedii estetik pratiğine göre Azerbaycan edebiyatı Doğu edebi entellktüel düşüncesiden kaynaklanarak ortaya çıkmıştır. X asırdan itibaren genel türk edebiyatında farsca yazıların zamanla çoğalmasına bakılmaksızın bu edebiyat ruhi, karakter ve içsel acılardan ideolojik etik mevkiine göre her türlü sebeplerden etkilenmiş ama kendi kültürünü ve ulusallaığını bir sistem içerisinde korumağı başarmıştır. Böyle bir orijinel ve benzersiz yönüyle yazıldığı dilden farklı olmaksızın (türk, arap yahut fars), aynı edebiyatı rönesans aşamasında da tam gerçekliği ile görmekteyiz". Uzun süreli Doğuya özgü edebi yazı örnekleriyle misaller sergileğen Azerbaycan yazarları ve şairleri XIX asırdan itibaren rus kültürü ve dilinin aracılığıyla Avupa edebi değerleri tanışarak belli biçimlerde ve seviyede ili.giler kurmağa başladılar ki, sonuçta ülkemizde Doğu edebi deneğiminden farklı sanat örnekleri oluştu. *Nizami Gencevi, Gazi Bürhaneddin, İmadeddin Nesimi, Muhammed Fuzuli, Mulla Penah Vagif* ve diğerleri gibi Doğu`nun edebi tarzlarında oluşan söz ustatlarından sonra XIX asırdan itibaren *Abaskulu ağa Bakühanov, Mirze Şafi Vazeh, İsmayıl bey Gutgaşinli, Mirze Fethali Ahundzade, Necef bey Vazirov* ve diğer yazarların ve şairlerin edebiyatında Batı`nın edebi biçimlerinde ortaya çıkmağa başladı. Bu yeni eğilimler edebiyatımızın sonrakı gelişim perpsektivlerini belirledi.

19.asır Azerbaycan`ın millî-medeni hayatında, insanların yaşam tarzlarında mahsusî bir aşama teşkil ediyordu. Azerbaycan`ın kuzeyinin Çar Rusiyası tarafından işgalı bu topraklarda yeni, önceki aşamadan, Doğu`nun edebî pratiğinden farklı bedii etik düşünce tarzını oluşturmaktaydı. Azerbaycan edebiyatında gelişimin temelini eğitimde, söz konusu devirin muhtac olduğu modern bilimsel-kültürel bilgilere kavuşmakta gören ve buna çalışan, tüm temel keyfiyetlerine göre eğitimcilik adlanan bir dönem başladı. Bu yeni dönem en kısa sürede uygulanıma geçti ve ve XIX yüzyıl için bazı yeni model kıssalar, komediler, dramatik yönümlü facia içeren eserler ve romanlar yazılmağa başladı. Adı geçen bu janrlar ve onların sunduğu edebi metinler insanın hayatına bakışı son derece netleşdirmiş oldu. Azerbaycan edebiyatı somut ve hayatın gerçek yüzünü aktaran bir dilden insanlara konuşmağa başladı. Azerbaycan edebiyatı Doğunun edebi, bedii düşünce tarzını korumakla beraber, onunla yanısıra edebî yazı biçimleri ve türlerini de kazanmağa çalışmaktaydı.

19. asra Azerbaycan edebiyatı teatro ve basın hayatında sergilediği mükemmel bir gelişim kaydıyla başlamış oldu. *Alibey Hüseynzade, Ahmedbey Ağaoğlu, Celil Mehmetkuluzade, Yusuf Vazir Çemenzeminli, Abdurrahimbey Hakverdiyev, Mehmet Emin Resulzade, Hüseyn Cavit, Cafer Cabbarlı* ve diğerleri yeni dönem Kafkaslarda şiiri ve nesri kaldıran ve edebiyata canlılık kazandıran önemli şahıslar olmuşlar. Bu önemli şahısların kaleme aldığı ve 19.asrın son dönemlerine ilişgin dramatik olaylar içeren eserler ortaya çıkmakyadyı. Örneğin, "Danabaş köyünün olayları", "Danabaş köyü okulu", "Bahtsız civan", "Dağılan tifag", "Musîbet-i Fahreddin" ve diğer mükemmel edebi yazılardan sonra 20.asrın ilk dönemine ait "Hortlamışın cihennem mektupları", "Posta kutusu", "Usta Zeynel", "İran`da hüriyet", "Kurbaneli bey",

[44] Bakü Devlet Universiteti, Filoloji fakültesi, "Dünya edebiyatı kafedrası" Z.Seferov sok.Tel: +994 55 713 24 48 //+ 994 12 480 20 63, arif_alim@box.az

"Kuzu", "Konsolosun hanımı", "Rahatsızlık", "Bomba", "Papag", "Şeyh Şaban", "Şemşeri pasaportu", "Mirze Safer", "Odabaşının hikayesi", "Ak sakal", "Hayat sahifeleri", "Cennetin gabzı", "Şahkulunun hayır işi", "Divane", "Mansur ve Sitare" gibi hikayeler, "Peri cadı", "Ağa Mehmet Şah Kacar", "Anne", "Meral", "Şeyh Senan", "Solmuş çiçekler" gibi ve 20.asrın edebi ortamı da böyle oluşuyordu.

20. asrın ilk yarısı, 1920 yılında Azerbaycan`ın bolşevik Rusyası tarafından işgali sonucu toplum hayatında önemli değişikler beliri verdi. İyirmi üç aylık bir zaman zarfında hayatta kalmağı başarmış Azerbaycan Halk Cümhuriyeti dönemi edebiyatına farklı bir bakış sergileğen Sovyet bolşevik ideolojisi Azerbaycan edebiyatına temamen yeni birtakım eğilimler katmağa çalıştı. Azerbaycan`ın işgalı zamanla bolşevik politikası ve ideolojisinin taleplerine uygun birtakım edebi örneklerin ortaya çıkmasını sağlamağa hizmet ediyordu. *Celil Mehmetkuluzade, Hüseyn Cavit, Necefbey Vazirov, Yusuf Vazir Çemenzeminli, Seyit Hüseyin* ve diğer tarihî ve kültürel bir devirde edebî eserleri kaleme alan şahıslar kendi çaplarında bolşevik ideolojisine karşı koymaktaydılar. Zamanla edebî alanı merkezi otoritenin daha sıkı denetimi altında tutmağa başladı ve dolayısıyla aynı dönemde farklı teşkilatların ortaya çıkması aynı otoriteden kaynaklanmataydı. Nitekim oluşan bazı kurumlar (örneğin, "Genç kızıl kalemler" (1925), "Azerbaycan proletar yazarları kurumu" (1927), "Altın kalemler" (1926) ve diğerleri) yeni yazıların, şiirlerin, kalemlerin karşısında yer aldı ve edebî alanı temamen sıkıntıya soktu.

Talepler karşısında yazarlara çok sınırlı bir edebi ortam sağlanmaktaydı. 1928 yılında "Altın kalemler" kurumu Baküde *Ümumazerbeycan yazarları kongresini* çağırdı ve kurumda *Azerbaycan proletar yazarları kurumu* denen bir kurum olşturulması kararı alındı. Böylece Kafkaslar`ın en önemli bölgesi olan Azerbaycan`da oluşan tüm eserler temamen komunizme ve bolşevik sistemin "güzelliğini" yansıtan bir edebi ortamın oluşumunu hazırlıyordu. Diğer tarafdan Azerbaycan`ın yakın ve uzak dönemlerini yansıtan tarihi romanlar da yazılmaktaydı. Bu dönemin meşhur yazarları sırasında *Muhammed Sait Ordubadi, Süleyman Rahimov, Mehdi Hüseyin, Ali Valiyev, Abulhasan, Manaf Süleymanov* ve diğerlerinin isimlerini zikr edebiliriz. Onların yazdıkları roman ve hikayeler ("Dünya kopuyor", "Dumanlı Tabriz", "Gizlin Bakı", "Dövüşen şehir", "Kılıç ve kalem", "Saçlı", "Şamo", "Ağbulak dağlarında", "Kin", "Taşkın", "Komisser", "Seher", "Büyük dayak", "Gelecek gün", "Pervane", "Bir gencin manifesti") aynı dönemin edebi ortamını yansıtmaktaydı. Rusiyada da buna benzer edebiyat örnekleri – "Demir akın", "Dağılım", "Polat nasıl berkimiş", "Azap dolu yollarla", "Sessiz Don" ve d. eserler kaleme alınmaktaydı. 20. asrın edebi-kültürel aşaması öten dönemlerin ulusal, kültürel, edebi kazançları kendisinde yansıtmakla beraber, ardından gelen edebî kültürel gelişimin perspektiflerini de belirlemiş oldu. Dolayısıyla aynı kültürel eğilim nesiller ve etik ilkeler, edebi-kültürel düşünce şekilleri arasında birer medeniyet köprüsü rolünü üstlenmiş oldu ve bu köprü 20. asrın ortalarından itibaren kendini karşısı alınamaz bir biçimde ortaya koyarak, orijinel ve kendine has bir tarzda, mükemmel edebi deneğimle Azerbaycan edebiyatında görünmeğe başladı. Bu, yepyeni düşünce tarzı öncekinden farklıydı. Araştırmaçı T.Alişanoğlu haklı olarak şu iradda bulunuyor ki, "sosyalizm realizmi bir efsane değil, amma 20.asrın efsaneleri üzerinde istikrar bulmaktaydı. Örneğin, bu edebiyatın kesin olarak ortaya çıktığı 30.yılların başlarında dünyanın aydın toplumları içerisinde böyle bir değim etkindi: - başında proletarın durduğu dünya devrimi artık gerçekleşmiştir, farklı biçimlerde gerçekleşeceği gün de uzak değildir. "Proletar edebiyatı" böyle pozitiv ruhun bir yanıtı olarak görünüm sergilemekte ve sosyalizm ruhunun yeni dünya metotu birer gerçek olanak olarak ortaya çıkmaktaydı" (2, 154-

155). Azerbaycan`ın modern edebi düşünce tarzını konu aldığımız zaman öncelikle edebi yazıların içeriğinde, konusunda, insan karakterilerinde, ideolojide ve buraya yansıyan yazarın düşnce tarzında, janr ve hikayelerinde konu ve muhtevada oluşan kalite değişmleri dikkate alınmaktadır.

Son dönemler, Kafkaslarda yeni türk edebiyatı örneklerinde artık Sovet döneminden kalma tarzlar, biçimselleşmiş kahramanlar yoktu. Bu edebi eserlerde öncelikle karakterler var, bu karakterler her zaman topluma, dış dünyaya ve kendi dünyalarına savaş açan karakterlerdir. 20. asrın elli yıllarının ardından ortaya çıkan Azerbaycan edebiyatı örneklerinde Batıya özgü etik düşünce tarzı kendisini yeteri kadar korumaktadır. Aynı edebiyata aşağıda kaydageçen faktörlerin de etkisi danılmazdır: 1. Birinci Dünya savaşı sonuçu ABD`de yaranan "Kaybetmiş nesil" edebiyatı; 2. 19 ve 20.asırda modern rus nesri; 3. Fröydizm, bilgi akını teorisi; 4. Avrupa modernizmi; 5. Tarihî Azerbaycan edebiyatı.

Lakin Azərbaycanın Rusiya tərəfindən işğalı xalqın bütün həyatının axarını dəyişdiyi kimi bədii ədəbiyyatın da normal inkişafına maneələr törətdi. Belə ki, kommunist ideoloqlarının bədii ədəbiyyata diktəsi xalqın milli kökündən və ruhundan uzaqlaşdırılması məqsədinə xidmət göstərməkdə idi. Ədəbi düşüncəyə qarşı yönəldilmiş terror və təzyiqin nəticəsi olaraq ədəbiyyatımızda tənəzzül başlayır, bir sıra yazarlar gözləmə mövqeyinə çəkilirdilər. Lakin bütün ictimai-mənəvi təzyiqlərə baxmayaraq, böyük dramaturq, filosof, şair Hüseyn Cavid öz yaradıcılıq prinsipinə, estetik konsepsiyasına sadiq qalaraq XIX əsrin II yarısından etibarən ədəbiyyatımıza yol alan milli-mənəvi azadlıq ideyalarını, mübarizəyə çağırış məramını özünə xas, fərqli şəkildə, daha geniş miqyasda davam etdirdi. Ədib sovet rejiminin, kommunist ideologiyasının uydurma sovet adamının bayağı həyatına, onun anlaşılmaz «məramına» qarşı özünün bəşəri ideyaları, mənəvi-əxlaqi saflığın daşıyıcısı olan qəhrəmanlarının şərəfli taleyi və kamil insan problemi ilə çıxdı. Ümumiyyətlə, insan problemi H.Cavid yaradıcılığının əsasında dayanan, bu yaradıcılığın bədii-fəlsəfi mahiyyətini xarakterizə edən əsas məsələlərdəndir. Hələ ilk yaradıcılıq nümunələrində insan təbiətini açmağa, insanı öyrənməyə çalışan H.Cavid sonralar iri həcmli dram əsərlərində öz hisslərinə qalib gələrək ülviləşən («Ana»), sevərək Tanrıya qovuşan («Şeyx Sənan») ağıl və gücün vəhdətilə fövqəlləşən («Peyğəmbər») və s. obrazları ilə insanın yer üzündəki hər cür qüvvə və hakimiyyətin fövqündə durduğunu elan etməklə bəşəriyyəti ayaqlarda sürünməməyə, ucalığa səsləyirdi. Böyük şair insan haqqında düşüncələrinin müəyyən məqamlarında Şərq və Qərb filosoflarının görüşlərinə yaxınlaşırsa da onun insana münasibətindəki baxış orijinal bir insan konsepsiyasının təzahürləridir

«Etmədim insana artıq etibar
Adəm oğlundan fərar etdim, fərar» (2, s.105) – misraları ilə H.Cavid «Tənhalığa çəkil, zəhərli milçəklərdən qaç!» (1, s.260) - deyən Nitsşenin məntiqinə

yaxınlaşırdı. İncə bir varlığın – Afətin («Afət») simasında özündən xəbərsiz qatilə çevrilib peşmanlıq əzabına düçar olan bir şəxsin faciəsini qələmə almaqla H.Cavid Platonun «hər bir insanın daxilində vəhşi arzu növü var» (7, s.279) və ya K.Lorensin «insan özünün mürtəce duyğularının quludur» (8, s.138) ideyalarını, eyni zamanda, Z.Freydin «qeyri-şüuri» haqqında təlimini bir daha təsdiq edirdi. Lakin, bununla yanaşı mütəfəkkir ədib bir çox filosoflardan fərqli olaraq insanı bütövlükdə bioloji varlıq hesab etməkdən uzaqdır:

«Kişi ürfan işığından parlar,
Şübhəsiz bilgidə Allah gücü var.
Əvət arif düşünür haqqı bulur,
Aqibət kəndisi bir Tanrı olur». (3, s.91)

- deyən şair insanın mənəvi ucalığına inanır. Beləliklə, «Azərbaycanda orta çağda ictimai şüurun mənəvi məfkurəvi mahiyyətinə aşılanan irfan düşüncəsi XX əsrdə H.Cavid yaradıcılığında yenidən ehya tapıb dirildi» (6, s.85). H.Cavid:

«Əmin ol, nerdə nəfs olmuşsa hakim,
Həqiqi eşqi məhv etmiş məzalim». (2, s.25)

- deyərək insanın nəfsə uyaraq rəzil olduğuna əmin olduğu kimi,

«Təşneyi-ürfan ikən dərya bulur,
Mövt ararkən zindeyi-cavid olur». (2, s.110)

- deyə qəlbi sevgi ilə dolu olan insanın Tanrı eşqiylə ali məqama yetəcəyinə inanırdı.

Müəllif Azərin timsalında tək bir cəmiyyətin nöqsanlarından deyil, bütövlükdə ədalətsizlik və haqsızlıqdan inləyən dünyanın uğraşdığı qüsurlardan rahatlıq arayan, lakin heç yerdə bu rahatlığı tapmayaraq içinə qapılan, mühitə yadlaşan, fəqət insanların taleyinə biganə qala bilməyən fövqəlinsan obrazı yaratmışdır.

Ümumiyyətlə, H.Cavid bütün yaradıcılığı boyu izləmiş olduğu insan probleminin uğurlu bədii həllinə nail olmaq üçün qoyduğu məsələləri insan və mühit çevrəsində mənalandırmışdır. Belə ki, şairin digər qəhrəmanları - Şeyx Sənan («Şeyx Sənan»), Xəyyam («Xəyyam»), Afət («Afət») və başqaları yaşadıqları mühitdə mənən tənha, cəmiyyət tərəfindən dərk və qəbul edilməyən insanlardır. Dramaturq mənən uca, daxilən böyük şəxsiyyətin – şair Xəyyamın mənən cılız adamların çoxluq təşkil etdiyi mühitdə yaşamasından doğan fəlakəti, mühitin və zamanın fövqündə duran Şeyx Sənanın idraksız şəxslər tərəfindən təqib olunması dəhşəti, sevginin nə olduğunun dərk edilmədiyi bir mühitdə sevgi axtaran Afətin mənəvi təqibə məruz qalmasından doğan faciəsi zəminində insan və mühit problemini vacib amil kimi qarşıya qoyur. Maraqlı cəhət budur ki, «Azər» poemasında şair qəhrəmanını hansısa bir ictimai mühitlə yox, bütövlükdə şərqli-qərbli dünya ilə üz-üzə qoyur. Azərin düşüncəsindən Şərqə və Qərbə nəzər salan şair fərqli görünən ictimai mühitlərin batini eyniliyini izhar edir. Belə ki, H.Cavidin insan probleminin tərkib hissəsini təşkil edən qadın məsələsinə «Azər»də geniş şəkildə nəzər salınmışdır. Poemanın 1926-cı ildə Berlində yazılmış «Azad əsirlər» hissəsində şair Avropa və Şərq mühitində insan alverini tənqid edir, hər iki mühiti qarşı-qarşıya qoyaraq hüquqsuz, iradəcə zəif, ruhən kölə insanların alınıb-satılmasını adiləşdirən dünyanı tənqid edir. H.Cavid dünyada baş alıb gedən haqsızlıqlara, xəstə mühitdə əzilən insanların fəlakət dolu həyatına etiraz etməklə yanaşı, hər şeydən əvvəl insanların təbiətindəki zəifliyə, idraksızlığa, ətalətə nifrət oyadır. H.Cavid insan şəxsiyyətini alçaldan cəmiyyətlərin kökündən dəyişdirilməsi üçün əsas səbəb kimi insanın öz faciəsini dərk etmək iqtidarına, mübarizə əzminə malik olmasını görürdü. Xəstə, qeyri-qanuni dayaqlar üzərində

duran cəmiyyəti davamlı edən, məhz adamların alçalmağı adi hal kimi qəbul etməsi, mübarizə qabiliyyətinə malik olmamalarıdır. Məhz belə bir mühitdə:

«Rəqsi təlim ediyor axsaqlar
Əzəmət düşkünüdür alçaqlar
Zövqə biganə səfillər bol-bol
Şerü sənətdə arar bir yeni yol
….. Yurdu sarmış qabalıq, yaltaqlıq
Yüksəliş varsa, səbəb alçaqlıq». (2, s.151)

İstər Şərq mühitində, istərsə də Qərb cəmiyyətində insanlığı fəlakətə sürükləyən şüursuzluq, elmsizlik, sevgisizlik onu insanlıqdan qoparıb digər canlıların oxşarına çevirir. «Elimsiz insan heyvandır» - (4, s. 17) deyən H.Cavid «Azər» də yazır:

«Nə əcayib sürü, yahu, bunlar,
Öndə rəhbərlik edən meymunlar.
Cühəla elm, fəzilət satıyor,
Bizi həp aldadıyor, aldadıyor». (2, s.150)

Bununla da şair digər əsərlərində də işlədiyi insan konsepsiyasının bir sıra məqamlarını bəyan etmiş, daha açıq tərzdə davam etdirmiş olur. H.Cavidə görə, zalımlıq da, məzlumluq da insanı öz əslindən qoparan, dəyərsizləşdirən ən mühüm amillər kimi çıxış edən mənəvi qüsurlardır. «Azər» xüsusən insanın məzlum, kölə hala düşməsinə kəskin etiraz və nifrət motivləri ilə zəngindir. Bu baxımdan, H.Cavidin insandakı ətalətə, acizliyə nifrəti alman filosofu F.Nitsşenin «kölə əxlaqına» qarşı oyatdığı nifrət hissi ilə uyğunlaşır:

«Sizi mən sülhə eyləməm dəvət!...
Əbədi sülh ümidi haqqı boğar,
Yaşamaqçün fəqət mübarizə var.
Çarpış, elmi bir inqilab ilə sən,
Qəhrəman ol, öc al da vəhşətdən.
Səni yalnız öyündürər qüvvət,
Qüvvətin varsa, haqq sənindir, əvət». (2, s.156)

- misralarında şairin fikirləri F.Nitsşenin «mən sizi işə yox mübarizəyə səsləyirəm. Mən sizi sülhə yox, qələbəyə səsləyirəm» çağırışının ruhuna hakim məntiq ilə həmahəng səslənir. Şairin yaradıcılığında ümid və kədər problemi də romantizmin bədii-estetik prinsipləri üçün xarakterik olan, sənətkarın insan haqqındakı düşüncələrini tamamlayan məsələlərdən biri kimi çıxış edir. Hələ «Məyus bir qəlbin fəryadı» adlı şeirində şair ümid və kədər hissini qarşılaşdıraraq insan heysiyyətinin tapdalandığı bir mühitdə müəmmalarla dolu ümidlə yaşamağı rəzalət, kədər hissini isə insanın mənəvi simasını qoruyan keyfiyyət kimi qiymətləndirirdi. Şairə görə, insanı ən uca qalibiyyətə aparan mübarizə əzmi onun məhkum taleyinə qarşı doğan kədər hissindən başlayır:

«Hürr olmaq üçün xeyli yoruldum,
Eş kəndimə yalnız səni buldum.
Zira sənə yar olmayan insan,
Zənciri əsarətdə verir can!».

Həmin kədər hissi Azər obrazının ruhuna hakim bir tərzdə bütün əsər boyu əks olunur, bəzi məqamlarda qəzəb hissinə də çevrilir.

«Azər» poemasında qoyulan bütün məsələlər özünüdərk problemi əsasında öz bədii həllini tapır və özünüdərk H.Cavidə görə, insanı fövqəlləşdirən, onu təsdiq edən qüdrətdir. Bu məsələ poemanın «Nil yavrusu» adlı hissəsində daha fərqli və qabarıq

şəkildə ifadə olunmuşdur. Burada ingilislər tərəfindən əsarətə alınmış Misirdən ailəsi ilə bərabər sürgünə məruz qalan Şəmsa adlı qızın ingilis lordunun onu rəqsə dəvətini intiqam fürsəti kimi qəbul edib, lordu qətlə yetirərək həbs olunması təsvir edilir. Şəmsa surəti şairin insan problemi ilə bağlı fikirlərinin tərənnüm və izahında həlledici ünsür kimi çıxış edir. Şəmsa nəinki bir qadın kimi ədalətsiz «qanunların» onu qurbanına çevirməsinə yol vermir, hətta bir mücahid kimi vətənin intiqamını alır. Şəmsa surəti sübut edir ki, H.Cavid üçün qadın nə qədər incə, zərif varlıq isə, eyni dərəcədə də heysiyyət və vüqarına, mənəvi böyüklüyünə görə cismən və ruhən qüdrətli kişi qədər uca varlıqdır. Başqa sözlə desək, H.Cavidin romantik düşüncəsində insan qadın, kişi anlayışında konkret, birmənalı şəkildə qəbul edilməyib, insan Cavid üçün özünü dərk edən və etməyən varlıqlar qismində mövcuddur. H.Cavid üçün «Məhəbbətlə coşan bir çoban qəlbi kin və intiqam püskürən bir sultan qafasından daha şərəflidir». Məhz bu nöqteyi-nəzərdən H.Cavidin insan konsepsiyasının əsasında dayanan sufizmin sevgi haqqındakı düşüncələri əks olunur. Azər bu təlimdən çıxış edərək

«Əvət insan olursa insanlar,
Şübhəsiz parlayıb da vicdanlar.
Sevgi nuru ilə kainat bəzənər,
Buraxıb kini qurd qoyunla gəzər». (2, s.156)

- deyə ümumbəşəri sevgi arzusunu elan edir. Şərqdə üzləşdiyi mənəvi əsarət, gerilikdən qurtuluş naminə şair Qərbə üz tutur. Eyni mənəvi sıxıntını başqa donda Qərbdə tapan Azər belə qərara gəlir ki, insanlar «həpsi bir yuvanın quşu, həpsi bir bağ meyvəsi»dir. (2, s.185). İnsanı mənəvi zirvəyə saflıq, ruhi kamillik yetirə bilər ki, bu da böyük mənada sevgi hissi ilə gerçəkləşə bilir. Buna nail olmaq üçün insan övladı hər şeydən əvvəl sevgi ilə özünü kəşf etməli, içindəki zülmətdən özünü axtarıb tapmalı, bəşəri sevgi ilə ucalığa yetməli, insanlıq üçün faydalı olmalıdır.

«Sən nə mələksən, nə də qaplansan,
Nə gülsən, nə tikən… yalnız insansan.
Çalış, parla, yüksəl! Unutma ancaq,
Yaşamaq bir haqsa, yaşatmaq da haqq!...» (2, s.187)

Azər könül rahatlığı tapmaq, bəşəriyyəti xoşbəxt görmək arzusu ilə dünyanı dolaşır, lakin onun mənəvi tənhalığı daha da dərinləşir, o, bəzən insanlarda heyrət doğurur, qəribə qarşılanan hərəkətlərə yol verməklə onlarda anlaşılmaz təsir buraxır:

«Süzdülər Azəri şaşqın-şaşqın…
Azərin dərdi başından aşqın». (2, s.151)

Bu vəziyyətdə o, az qala Məcnunlaşır. Həmin məqamda Azər bəzən sufizimdə hər şeyin batini mənasını sezən, reallıqda bir heç, heçlikdə böyük həqiqətləri tapan «divanə» kimi rəmzləndirilən müdrik insanı andırır. H.Cavidin «İştə bir divanədən bir xatirə» adlı şeirində oxuduğumuz:

«Kim ki, əql istər, o, məcnun olmalı,
Hər fəlakət gəlsə məmnun olmalı». (2, s.109)

- misralarındakı fikir Azər obrazının taleyində daha geniş mənalandırılır. Ümumiyyətlə, H.Cavid yaradıcılığında əksini tapan insan konsepsiyası çoxşaxəli, Şərq və Qərb fəlsəfi düşüncəsindəki insan anlamını özündə ehtiva edərək, orijinal baxışla çıxış edən fərqli düşüncə tərzidir. «Cavid Qərbin fövqəl insanı ilə Şərqin kamil insanını ən mükəmməl bir şəkildə birləşdirə bildi – Avropanın və Asiyanın miqyasları Cavid düşüncəsinin arealında daraldıqca daraldı» (6, s.65). H.Cavidin müşahidə etdiyi insan özünüdərk çevrəsində ikiyə bölünür; özünü dərk edərək fövqəlləşən və idraksızlığı üzündən mənəvi məhvə düçar olan şəxslər. İkinci qismə aid olunan

obrazların timsalında H.Cavid Z.Freydin, F.Nitsşenin, L.Feyrbaxın və s. Qərb filosoflarının, bir çox Amerika psixoloq və alimlərinin görüşlərinə yaxınlaşır, kamil insan ideyasında isə sufizmin ideoloji əsaslarını izləmiş olur. Lakin bütün hallarda bəzən insan varlığına tamamilə nöqsanlı baxan bir çox Qərb filosoflarından fərqli olaraq, şair ali insan ideyasına inanır, tərkidünyalığı təbliğ edən bəzi şərq filosoflarına –

«Çox böyük səltənətsə dərvişlik,
Olamam mən o xəstə fikrə şərik». (2, s.156)

- misralarında «Qurani-Kərimdə» buyurulan «zülmə qarşı mübarizə» çağırışını, əzmini əks etdirmiş olur.

ƏDƏBİYYAT:

1. Alman ədəbiyyatı antologiyası. 2 cilddə, I cild. Bakı, 2006;
2. Cavid H. Əsərləri. 4 cilddə, I cild. Bakı, 1982;
3. Cavid H. Əsərləri. 4 cilddə, III cild. Bakı, 1983;
4. Cavid H. Əsərləri. 4 cilddə, IV cild. Bakı, 1985;
5. Türkəqul M.H. «Azərbaycan türk şairi Hüseyn Cavid». Bakı, 2002;
6. Turan A. «Cavid əfəndi…». Bakı, 2004;
7. Platon «Dövlət». Bakı, 1999;
8. Фролов Т. Перспективы человека. Москва, 1983.

MÜHACİR ƏRƏB YAZIÇILARI VƏ ŞƏRQ DÜNYASI - Bəsirə ƏZİZƏLİYEVA[49]

ÖZET

19.Yüzyılın sonu 20.yüzyılın başlarında Amerika'da varolan muhacir Arap edebiyatı Arap edebiyatı tarihinde özel bir aşamadır. Dil ve konu, düşünce ve tür açısından dikkat çeken edebi felsefi eserler bu edebiyatın önemli örnekleridir. Arap Mahcer edebiyatının ünlü temsilcilerinden Emir Er – Reyhani, Halil Cibran, Mihail Nüayine kendi eserlerini Arap ve İngiliz dillerinde yazmışlar. Bu eserler Doğu ve Batı kültürlerinin sentezidir. Bu yazarların Batı edebiyatı ve felsefesinden faydalanmalarına rağmen, onların eserlerinde Doğu kültürü temel görevini taşmaktadır. Muhacir yazarların eserleri Doğu düşüncesinin en güzel belirtilerinden birisidir.

GİRİŞ

XIX əsrin sonu XX əsrin əvvəllərində Amerikada mövcud olan ərəb mühacirət ədəbiyyatı ərəb ədəbiyyatı tarixində xüsusi bir mərhələ kimi seçilir. İdeya-bədii dəyəri, mövzu və janr özəllikləri, dil və üslub keyfiyyətləri, dünyagörüşü sistemi ilə yeni və özünəməxsus çalarlarda meydana çıxan ədəbi-fəlsəfi əsərlər məhcər ədəbiyyatın səciyyəvi nümunələridir. Mühacirət ədəbiyyatının ərəb ölkələrinin bədii düşüncə tarixi üçün böyük əhəmiyyət kəsb etməsi onun bütövlükdə XIX əsrin ortalarından etibarən inkişaf etməyə başlayan yeni ərəb ədəbiyyatındakı rolu ilə şərtlənir. «Ərəb məhcər ədəbiyyatının bütün ərəb ədəbiyyatının inkişafı tarixində kiçik epizod olmasına baxmayaraq, «Suriya-Amerika məktəbi»nin yazıçıları həm ərəb Şərqində, həm də Qərbdə çox geniş şöhrət qazanmışlar və onların yaradıcılığını nəzərə almadan yeni ərəb ədəbiyyatının inkişafının tam və dolğun mənzərəsini təsəvvürə gətirmək qeyri-mümkündür» (1, s.47).

Yeni ərəb ədəbiyyatı zəngin tarixə malik ərəb klassik irsinin ədəbi-bədii dəyərləri üzərində formalaşmaqla yanaşı, bir sıra yeni təmayülləri ilə də xarakterizə olunmaqdadır. İstər mövzu və fikir axını, istərsə də forma xüsusiyyətlərindən qaynaqlanan bu istiqamətlər Qərb ədəbiyyatına münasibətdə də fərqlənirdi.

Yeni ərəb ədəbiyyatının inkişafında Avropa mədəniyyətinin təsirini tədqiqatçılar birmənalı olaraq qiymətləndirirdilər. Tarix boyu dünya ədəbiyyatının inkişafına ümumi şəkildə nəzər yetirsək, burada qarşılıqlı təsir faktını, demək olar ki, bütün mərhələlərdə müşahidə etmiş olarıq. Qədim Şərq mədəniyyətin və ədəbiyyatın ilk vətəni olmuşdur. «Arxeoloji qazıntılar nəticəsində əldə edilən çoxsaylı tapıntılara əsaslanaraq Qədim Şərq mədəniyyətinin yaranma tarixini təxminən e.ə.V-IV minilliklərə aid etmək olar. Bununla belə, insanların ilkin bədii yaradıcılığı daha qədim dövrlərə, bəşər tarixinin ən qədim çağlarına gedib çıxır» (2, s.25). Şərq öz mədəni irsini tədricən bütün dünyaya ötürmüş, Qərb mədəniyyəti də bu və digər özünəməxsus dəyərlərlə inkişaf etmişdir. XIX əsrdə isə, demək olar ki, bütün Şərq xalqları ədəbiyyatı Qərb mədəniyyətindən bəhrələnməyə meyl edirdi.

Sözügedən cəhətin bir sıra sosial, siyasi səbəbləri ilə birlikdə, ədəbi şərtləri də mövcuddur. Ərəb ədəbiyyatı sferasında bu daha çox ədəbi formaların, strukturun mühafizəkarlığına qarşı yeni forma və ədəbi düşüncənin qoyulması ilə bağlı idi. Məşhur rus şərqşünası İ.Y.Kraçkovski yeni ərəb ədəbiyyatında üç istiqaməti ayırd edirdi: 1) bütün yeniliklərə qarşı mübarizə, köhnə çərçivəyə qapanaraq qalmaq və onu

[49] Filologiya elmləri namizədi, AMEA Nizami adına Ədəbiyyat İnstitutu, Bakü/AZERBAYCAN.

canlandırmaq; 2) qədim ərəb ədəbiyyatına münasibətdə nifrət və Qərb obraz və ideyalarının səthi təqlidi; 3) ərəb ədəbiyyatının mütərəqqi görüşlərini mənəvi mədəniyyətin bütün dəyərləri və elmi üsullarla yenidən hazırlamağa cəhd» (10, s.69). Qeyd olunan bütün cəhətlərdən daha əlverişli şəkildə yararlanan mühacir ərəb yazıçıları mövzu və forma baxımından Şərq və Qərb mədəniyyətinin ortaq dəyərlərindən bəhrələnməyə, özünəməxsus sintez yaratmağa nail oldular. İ.Y.Kraçkovski yazırdı ki, Amerikadakı mühacirət ədəbiyyatı yeni tələblərdən çıxış edirdi. Burada onlar senzuranın təzyiqindən kənarda idilər və əvvəllər gənclik marağı ilə keçmişin bütün formalarını atır, sonra isə tədricən yeni sintez yaradır, yeni ədəbi formalardan istifadə edirdilər (9, s.92).

Görkəmli Azərbaycan ərəbşünası və ərəb məhcər ədəbiyyatının araşdırıcısı A.İmanquliyeva da «Suriya-Amerika məktəbi»ni ərəb ədəbiyyatının xarici ölkə ədəbiyyatına çıxışı kimi qiymətləndirir: «Ərəb ədəbiyyatını fəal şəkildə əcnəbi ədəbiyyatların təcrübəsinə qoşmaq yolu ilə yeniləşdirmək rolu «Suriya –Amerika məktəbi»nin aparıcı nümayəndələrinin üzərinə düşdü» (1, 8).

Ərəb mühacirətinin müxtəlif səbəbləri var idi. Bu səbəblər arasında iqtisadi, siyasi, dini amillər ön plana çıxırdı. Mühacir ərəb yazıçılarından olan C.X.Cibranın yaradıcılığını tədqiq edən Amerika tədqiqatçısı Robin Vatəfild dini mənsubiyyətinə görə xristian olan yazıçıların mühacirəti səbəbləri üzərində dayanır: «Bu da diqqəti cəlb edir ki, Livandan mühacirət edənlər arasında maronit xristianları müsəlmanlara nisbətən çox idi. Ola bilsin ki, o dövrdə xristianlar daha savadlı idilər və buna görə də onlar öz vətənlərində tapa bilmədikləri yüksək inkişafa ümid edirdilər. Yaxud ola bilər ki, sadəcə olaraq Amerika xristian ölkəsi idi və xristian mühacirlərə daha yaxın idi» (15, 22).

Burada bir cəhətə mütləq diqqət yetirmək lazımdır. Ərəb xristian ziyalıları daha çox milli birlik tərəfdarları kimi çıxış edir, Şərq və Qərb mədəniyyəti sintezinin daşıyıcıları olaraq fəaliyyət göstərirdilər. Ən başlıcası isə, qeyd olunan şəxsiyyətlər, eləcə də şair və yazıçılar dini birlik ideyası kimi qlobal bir düşüncəyə malik idilər. Bu baxımdan professor Hişam Şərabi 1875-1914-cü illəri əhatə edən «Ərəb ziyalıları və Qərb» adlı əsərində həmin mərhələ üçün xristian ərəb müəlliflərinin bədii düşüncəsinin islam və xristian birliyi kimi hümanist xarakterdə olduğunu qeyd edir (14, s.64).

A. İmanquliyeva da bu cəhətə diqqət yetirmiş, mühacir ərəb yazıçılarının məşhur nümayəndələrinin xristian icmasına mənsub olmalarını ədəbi əlaqələrin asanlaşmasına və Qərb ədəbiyyatının ideya-bədii cəhətlərindən daha yaxşı bəhrələnmələrinə kömək etdiyini önə çəkmişdir. «Onlar üçün müsəlman yazıçılar üçün olduğu dərəcədə Qərb mədəni dəyərlərinin ideya baxımdan qəbul olunmaması maneəsinin dəf edilməsində çətinliklər mövcud deyildi. Onlara, əzəldən Şərq xalqlarının mədəniyyətinə xas olan ümumbəşəri və humanist ideallar əsasında öz doğma mədəniyyətlərində bu dəyərlərin təsdiqi üçün müvafiq üsullar tapmaq asan idi» (1, 55). Sözsuz ki, burada qeyd olunan səbəblər, eləcə də İ.Y.Kraçkovskinin də fikirlərinə uyğun olaraq ərəb ölkələrindəki ciddi senzuradan xilas olmaq meylləri mövcud idi.

Göründüyü kimi, ərəb mühacirət ədəbiyyatı müqayisəli ədəbiyyatşünaslığın inkişafına birbaşa nümunə kimi formalaşmışdır.

Müqayisəli ədəbiyyatşünaslıqda əlaqələrin formalaşmasında dil faktorunun da çox mühüm rolu vardır. Dil faktoru, istər burada ədəbi nümunələrin tərcüməsi ilə xarici ədəbiyyatla tanışlıq və təsir, istərsə də tərcümədən istifadə etmədən fərdi şəkildə dünya ədəbiyyatının öyrənilməsi, mənimsənilməsi, bəhrələnməsi və nəyahət istifadəsi

yolu ilə özünəməxsus yaradıcılıq görüşlərinin formalaşması istiqamətində çıxış etsin, bütün hallarda əlaqələri fəal, sıx və daha köklü, əsaslı məcraya yönəldir. Əgər ərəb ölkələrində fəaliyyət göstərən ədəbi qüvvələr birinci aspektin icraçıları kimi çıxış edir, yaxud da sırf tərcüməçilər tərəfindən hazırlanmış materiallardan istifadə edirdilərsə, məhcər ədəbiyyatın nümayəndələri öz ədəbi irslərində dil sərhəddini birbaşa aşdıqları üçün həmin prosesdə ikinci istiqamətin nümayəndələri kimi görünürdülər.

Tərcümə ədəbi əlaqələrin inkişafında birbaşa, həlledici rol oynayan əsas ədəbi aktlardan biridir. Lakin bu prosesə birtərəfli şəkildə yanaşmaq, onu xarici ədəbiyyatın qəbul olunması kimi dar mənada dərk etmək olmaz. Burada vacib olan bir sıra məqamlar vardır. Fikrimizi daha aydın izah etmək üçün N.İ.Konradın sözlərinə diqqət yetirmək yerinə düşərdi. «Bir ədəbiyyatın digərinə nüfuzunun əsas vasitəsi, əlbəttə ki, tərcümədir» deyən tədqiqatçı yazır: «Lakin tərcüməçi yalnız «vasitəçi» deyil. Başqa dildə yazılmış ədəbi əsərin öz dilində canlandırılması hər zaman yaradıcılıq prosesidir. Tərcümələrin meydana çıxması bu və ya digər dərəcədə milli ədəbiyyatın zənginləşməsidir. Ədəbi əsər öz dilinin sferasında meydana çıxır, artıq digər ədəbiyyatın nümunəsinin həmin ölkənin dilində yaranması onları bu ölkənin ədəbiyyatına daxil edir» (11, 305). Ərəb ədəbiyyatında yaranan tərcümə əsərlərinə də həmin həmin nəzərdən yanaşmaq mümkündür. Mühacir ərəb yazıçıları isə bu konteksti daha da genişləndirir və bütövlükdə tərcümə işinin əhəmiyyətli sferasını, dil faktının ədəbiyyata göstərdiyi xidmətlərin istiqamətlərini şaxələndirirdilər. Məsələn, Əmin ər-Reyhaninin ərəb ədəbiyyatından tərcümələri N.İ.Konradın düşüncələri prizmasından mühüm bir məsələdir.

Mühacir ərəb ədəbiyyatının məşhur nümayəndələrinin – C.X.Cibran, Ə. ər-Reyhanı və M.Nüaymənin ərəb dili ilə yanaşı, ingilis dilində də yazıb yaratmaları isə bu baxımdan daha əhəmiyyətlidir. Burada artıq Şərq düşüncəsi Qərb dilində danışır və ədəbi dəyərlərin vəhdəti, fərqli dünyagörüşlərin sintezi ortaya çıxır. Məhz bu cəhət sözügedən ədəbiyyatı ərəb ədəbiyyatı tarixində xüsusi bir mərhələ kimi xarakterizə etməyə əsas verən ən başlıca xüsusiyyətlərdəndir. Erol Balkan C.X.Cibranın türk dilində nəşr olunmuş «Sözlər» kitabına yazdığı girişdə ərəb ədibinin «Peyğəmbər» - «The Prophet» kitabının Amerikadakı şöhrətindən bəhs edərkən yazır: «Bir Yakın Doğu`lu şairin Batı dünyasında bu denli etkili olabilmesi şaşırtıcı görülebilir. Ancaq işlediği temaların evrenselliği ve ingiliz dilini kullanmaktakı ustalığı, üzerinde toplanan ilginin sürekliliyini haklı çıkartmaktadır» (4, 8). Çox haqlı olaraq «Halil Cibran`ın en büyük başarısı, heç kuşkusuz kendini kapitalist Batı toplumuna kabul etdirebilmiş olmasındadır» deyən Aytunc Altındal ərəb şairini «Batı`nın gözlərini Doğu`ya çevirtmiş» bir insan kimi dəyərləndirmişdir (5, 10).

Mühacir ərəb yazıçılarının bədii düşüncələri Şərq və Qərb ədəbi-fəlsəfi dəyərləri üzərində qurulsa da, burada, heç şübhəsiz, Şərq dünyası əsas rol oynayır. Buna görə də mühacir yazıçılar Qərb həyatına nə qədər sıx şəkildə daxil olsalar, ingilis romantikləri, Amerika transendentalistləri və Qərb filosoflarının fikirlərindən geniş formada bəhrələnsələr də şərqçilik konteksti əsas, özül olaraq qalır. Həmin nöqteyi-nəzərdən məhcər ədiblərin yaradıcılığında Şərq aləmi, ərəb dünyası ilə bağlı mövzu və problemlər üstünlük təşkil edir. Diqqəti cəlb edən ilk mühüm və maraqlı mövzulardan biri yazıçılarının özlərinin də birbaşa yaşadıqları, ərəb dünyasındakı mühacirət problemi ilə bağlıdır. Mühacir yazıçıların yaradıcılığına nəzər yetirdikdə nəinki Yeni Dünyada - Amerikada mühacirlərin üzləşdiyi problemlər, eyni zamanda, ərəb ölkələrində bu prosesə münasibət, meyl və onun nəticələri məsələlərinin maraqlı şəkildə qələmə alındığına təsadüf etmək mümkündür. Əmin ər-Reyhaninin «Vətən, səni iki nəzər ilə görürəm» adlı mənsur şeirində şair səyahətçi və həmvətən kimi öz

vətəninə müraciət edir, onun keçmiş qüdrətindən bəhs edərək müasir, ürək ağrıdıcı vəziyyətini qiymətləndirir. Minlərlə insanın böyük kədər hissi ilə öz ölkələrini tərk etməsi şairə faciə kimi görünür: «Qürub çağı mən sevincimin fövqündə günəş ilə vidalaşıram. Qəflətən sahildə minlərlə insanın ümidsizcəsinə Vətən ilə vidalaşdığını eşidirəm» (5, 62). Müəllif çox obrazlı şəkildə müqayisə aparır. Şair günəşi fərəhlə, məftunluq və xoş hisslərlə yola salır, çünki bu qürub sabahkı görüşə bir müjdədir. Həmvətənləri isə sonsuz ümidsizlik girdabındadır, çünki onlar bir daha vətənə qayıdacağına əmin deyillər. Təbiətin bəxş etdiyi sevinc və cəmiyyətin törətdiyi faciə – Əmin ər-Reyhaniyə xas olan təzadla mühacirətin ərəb dünyasında yaratdığı həsrət ifadə olunur.

Mühacirət probleminə özünəməxsus formada münasibətin ifadəsini M.Nüaymənin əsərlərində də görürük. «Onun yeni ili» hekayəsi bu baxımdan maraq kəsb edir. Ərəb dünyası üçün aktual olan bir sıra məsələlərlə yanaşı, müəllif burada sözügedən hadisədən də yan keçmir. Livanın Ayrun kəndinin şeyxi Əbu Nasıfdan bəhs edərkən yazıçı artıq ərəb ailələri üçün çox xarakterik olan və adi həyat tərzinə çevrilən mühacirət məsələsindən də danışır: «Əbu Nasıfın kəndin digər əhalisindən üstün bir məziyyəti də vardır; o zaman başlayırlar evləri saymağa ki, haradan kim Amerikaya gedir, onda şeyxin evinə çatanda dayanırlar, ona görə ki, bu Ayrunda yeganə evdir ki, Kolumba vergi ödəməyir» (13, 38). Göründüyü kimi, yazıçı burada bir qədər də yumoristik şəkildə ərəb dünyasında mühacirətin tipik hal olduğunu göstərir, məsələni daha çox- iqtisadi amillərlə şərtləndirir. Məhcər yazıçıların yaradıcılığında Vətənə bağlılıq çox güclüdür. Bu bir tərəfdən milli ədəbi ənənələrin əxz olunmasında özünü göstərirdisə, digər tərəfdən yerli ədəbiyyatda geniş formada işlədilən mövzulara münasibət kontekstində müşahidə olunurdu.

Əmin ər-Reyhani millətin xilasını birlikdə görür, insanları fəaliyyətdə birləşməyə, sülh uğrunda vuruşmağa çağırır: «Birlik sizin torpaqlarınızın müstəqillik girovudur. Müstəqilliyi möhkəmləndirmək istəyirsinizmi? (5, 6). «Mənim yol yoldaşım» əsəri boyu şair həmvətənləri qarşısında düşündürücü sualları qoyur, onları yeni həyata çağırır.

Ərəb ölkələrini narahat edən çox müxtəlif problemlər Əmin ər-Reyhaninin romantik yaradıcılığında daim ön plandadır. Bu cəhətləri şairin «Misir ölkəsi», «İraq əmiri» əsərlərində də müşahidə edirik. «Misir ölkəsi» şeirində şair ərəb ölkəsini «fironun qızı», «əsrlərin möcuzəsi», «Nilin gəlini» adlandıraraq onu sevgi ilə vəsf edir, Misiri dünyanın birlik nöqtəsi kimi səciyyələndirir: «Onda ərəb nitqi, Şərq ürəyi və Qərb ağılı var» (5, 51). Şair Misirə ərəb ölkələrinin əsas mərkəzlərindən biri kimi baxır, onun həqiqət səsinin Damaskda və Bağdadda, «Ərəb ürəyi və sözü» ilə bir olan bütün ölkələrdə eşidildiyini ifadə edir, onun gələcək qarşısındakı məhsuliyyətini xatırladır: «Misirin sözü ərəblərin sözüdür, lakin bu gün ərəblərin sözü dünənin sözü deyil. Sabah o necə olacaq! (5, 51).

Məlumdur ki, ərəb ölkələrində müsəlman və xristian icmaları asasındakı qarşıdurmalar qeyd olunan dövr üçün xarakterik idi və ziyalı şəxslər, millət naminə fədakarlıq göstərən insanlar bu problemə çox həssaslıqla yanaşır, ərəb birliyi mövqeyindən çıxış edirdilər. Mühacir ərəb yazıçılarının yaradıcılığında bu çox mühüm bir cəhət kimi daim ön planda idi. «Beytur - Suriyanın ürəyidir, lakin elm tələb edir ki, ağıl da ürək və bədən kimi saf olsun» (5, 241) deyən müəllif problemi maarifçi görüşləri ilə tamamlayır. Ədibə görə, nəsillərin və əsrlərin yaratdığı çirkabı yalnız nə mətbuat, nə şairlərin əsərləri, nə də yazıçının vətən sevgisi ilə yazıdığı sözləri təmizləyə bilər, buna yalnız düzgün tərbiyə və həqiqi təhsil kömək edə bilər. Düzgünlük, saflıq, güc, cəsarətlə süslənmiş tərbiyə, inam, inkişaf, ədalətə və vətənə

məhəbbətə köklənmiş təhsil ilə mövcud bəlalardan qurtarmaq, həqiqi mənada tərəqqiyə nail olmaq mümkündür.

Məhcər yazıçıların üç ən görkəmli nümayəndəsinin- Ə.Reyhani, C.X.Cibran və M.Nüaymənin yaradıcılığında qeyd olunan məsələlər daha çox milli birlik kontekstində öz əksini tapırdı. «Təkcə azadlıq bizi birləşdirmir» adlı əsərində Əmin ər-Reyhani müsəlman və xristian ədəbiyyatçılarından bəhs edir: «Və bir şeyi də mən söyləməliyəm: Biz yalnız o zaman sözün tam mənasında inkişaflı, azad millət olarıq ki, xristian ədəbiyyatşünaslar və müsəlman ədədiyyatşünaslar birlikdə istənilən dini, siyasi və sosial mövzunu müzakirə etməyi öyrənsinlər (5, 252). Müəllifə görə, əgər ərəb xalqı hakimiyyətdə və ictimai fəaliyyətdə dini sərhədləri aradan qaldırmasa, burada azadlıq, bərabərlik, qardaşlıq yalnız boş və yalan sözə çevriləcəkdir. Məşhur ərəb ədiblərindən Ədib İshaq da milli birlik ideyasından çıxış edərək yazırdı: «Biz hamımız vətənimizdə qardaşlarıq, dilimizin ümumi bağları bizi birləşdirir» (14, 115). H.Şərabinin haqlı olaraq yazdığı kimi, müsəlman və xristian doğulan ərəbləri vahid mədəni varlıq birləşdirir (14, 115).

Mühacir ərəb yazıçılarının yaradıcılığında ərəb ədəbiyyatındakı milli ənənələrlə bağlı diqqəti cəlb edən motivlərdən biri də islam dininə münasibət, müqəddəs «Quran»dan bəhrələnmə cəhdləri ilə bağlı idi.

Məhcər yazıçıların sözügedən üç ən məşhur nümayəndəsinin dini mənsubiyyətinə görə xristian olması onları ərəb xalqının ən böyük şərəfinə laqeyd saxlamır. Xüsusilə, Əmin ər-Reyhaninin yaradıcılığında islam dünyagörüşü, «Quran» motivləri ilə bağlı bir sıra cəhətlər bəzi tədqiqatçıların da diqqətini cəlb etmiş, A.Dolinina da bu məsələyə münasibət göstərmişdir. Tədqiqatçı Əmin ər-Reyhaninin yaradıcılığında yer üzündə ədalət, həqiqət, qardaşlıq məsələlərindən danışarkən zalımlara və despotlara qarşı dini terminlərdən itsifadə etdyini qeyd edir: «Məşhər günü» - yenə də dini motivdir, lakin Cibranda olduğu kimi Bibliya və Reyhaninin özünün «Vadinin ilahəsi» əsərindəki kimi dil və üslub baxımından yox. Dini mənsubiyyətinə görə xristian və mahiyyətcə atesit olan Reyhani forma axtarışında müsəlmanların müqəddəs kitabına – «Quran»a müraciət edir, orada ən çox sevilən üslubu və üslulları götürür…» (8, 10). Birmənalı və qəti şəkildə demək lazımdır ki, Reyhani ateist olmamışdır, bu sovet ərəbşünaslığının bir sıra digər məsələlərdə olduğu kimi məhcər yazıçıların dünyagörüşünə vurduğu «kommunizm» damğasıdır. Əmin ər-Reyhaninin «Qurandan»dan bəhrələnməsi məsələsi barədə A.Dolinina «Yeni ərəb ədəbiyyatında realizm tarixindən» adlı məqaləsində də yazmışdır (6, 291).

Əmin ər-Reyhaninin yaradıcılığında islam dini ilə bağlı motivlər az yer tutmur. Burada bəzi məsələlərə diqqət yetirmək lazımdır. Məlumdur ki, Əmin ər-Reyhani erkən yaşlarından ailəsi ilə birlikdə Amerikaya mühacirət etdiyi üçün digər ərəb yazıçılarından fərqli olaraq ilk əsərlərini ingilis dilində yazmışdır. «Dünya tarixində məşhur şəxslərin tərcümeyi-halından da bəhs edən, Karleylin «Qəhrəman, qəhramanların kultu və tarixdə qəhrəmanlıq» kitabı ilə ilk tanışlıqdan sonra Ə.Reyhani öz xalqının mədəniyyətinə maraq hiss edir. Ərəb olmasına baxmayaraq, hətta ilk qələm təcrübələrini belə ingilis dilində yazan Ə.Reyhani nə öz tarixini, nə də öz dilini bilmədiyi üçün utanır» (7, 5).

Yazıçı «Ərəb monarxları» kitabına yazdığı ön sözdə ərəb dünyası ilə tanışlığı belə şərh edir. «Emerson məni Karleyl ilə tanış etdi, Karleyl isə məni dəniz üzərindən ərəb ölkələrinə qaytaran ilk şəxs idi. Qəribə də olsa, məhz bu məşhur ingilis yazıçısının köməyi ilə mən ən böyük ərəb lideri – Məhəmməd peyğəmbəri tanıdım və ilk dəfə ərəblərə qarşı sevgiyə oxşayan bir şey hiss etdim və onlar haqqında imkanım qədər çox öyrənməyə cəhd duydum (5, 302). Məhz bu hadisə Reyhaninin

yaradıcılığında çox mühüm dönüş yaradır, onu ərəb dünyasına yaxınlaşdırır: «Ərəb torpağı, sən necə də gözəlsən: Allah imkan vermədi ki, mən səni tanımadan ölüm və səndən çox uzaqda olduğum zaman o mənə bir ingilis göndərdi ki, sənin oğullarının rəşadəti və fədakarlığından xəbər versin» (5, 303). Əmin ər-Reyhaninin «Şərq» poemasında, «Yazıçılar», «Təkcə azadlıq bizi birləşdirmir» kimi məqalələrində də «Quran»la bağlı motivlərə təsadüf edirik. «Şərq» poemasında şair əsrarəngiz Şərq təbiətini təsvir etdikdən sonra yazır. «Bu an ruh oyanır, «Quran»ın insanları sevgi nəğməsinə, vətəni oyadan nəğməyə çevirir (5, 71). «Yazıçılar» əsərində də müəllif Məhəmməd peyğəmbərdən misal gətirir: «İslam peyğəmbəri demişdir: «Allah kimsəyə müdriklik vermədən öncə, ondan bu hikməti kimdənsə gizlətmək qabiliyyətini almışdır (5, 176). Nəzərdən keçirdiyimiz əsərdə yazıçı İslam peyğəmbərindən də nümunə gətirməklə yaradıcı insanların digərlərinə faydalı olması zərurətini təsdiq etməyə çalışır. Bu kəlamların əsərdə iki dəfə təkrar olunması da onların müəllif üçün xüsusi əhəmiyyət kəsb etməsindən xəbər verir.

İnsanın Allahın ən böyük əmanəti olması, ruhun Allah dərgahından gələrək yenidən ona qayıdacağı kimi islam dininə xas düşüncələr M.Nüaymənin yaradıcılığı üçün də tez-tez səslənən fikirlərdəndir: «…həqiqətən biz hamımız Allaha məxsusuq və ona qaydacağıq» (12, 193).

Mühacir yazıçılar ən başlıcası ruhən insan kimi dünyadərki baxımından Şərqli kimi çıxış edirdilər. Onların Qərb dünyasında məşhur olan əsərləri, bütövlükdə Şərq düşüncəsinin dünyadakı uğuru idi.

ƏDƏBİYYAT:

1. İmanquliyeva A. Yeni ərəb ədəbiyyatı korifeyləri, Bakı, Elm, 2003
2. Nağıyev C.Qədim Şərq ədəbiyyatı tarixi, Bakı, Asiya nəşriyyatı, 2004
3. Aytunc Altındal. Batılı gözləri Doğuya çevirten Sanatçı Halil Cibran. Halil Cibran. Ermiş, İstanbul, 1995
4. Erol Balkan. Giriş. Halil Cibran. Sözler, İstanbul, Anahtar kitaplar yayın evi, 1993.
5. ar-Reyxani Amin. İzbrannoe, L., Xudojestvennaə literatura, 1988
6. Dolinina A. İz predıstorii realizma v novoy arabskoy literature. Problemı stanovleniə realizma v literaturax Vostoka, M., Nauka, 1964.
7. Dolinina A. Predislovie. Amin ar-Reyxani. İzbrannoe, L., Xudojestvennaə literatura, 1988.
8. Dolinina A. Predislovie. Sovremennaə arabskaə proza, M.-L., Qosudarstvennoe izdatelğstvo xudojestvennoy literatura. 1961.
9. Kraçkovskiy İ.Ö. Arabskaə literatura v XX v. İzbrannıe soçineniə, III, M-L., 1956.
10. Kraçkovskiy İ.Ö. Novoarabskaə literatura. İzbrannıe soçineniə, III t. M,.-L., 1956

11. Konrad N.İ. Problemı sovremennoqo sravnitelğnoqo literaturo vedeniə. Konrad N.İ.. Zapad i Vostok, M., Qlavnaə redakçiə Vostoçnoy literaturı. 1966.

12. Nuayme M. Moy semğdesət let. M., Nauka, 1980

13. Rasskazı pisateley Vostoka, L., Lenizdat, 1958.

14. Sharabi Hisham. Arab İntellectuals and the West. London, The Johns Hopkins Press, 1970

15. Waterfield R. The life and times of Kahlil Cibran. New York, Castle Books, 1993.

MƏHƏMMƏDHÜSEYN ŞƏHRİYARIN «HEYDƏRBABAYA SALAM» MƏNZUMƏSİ TÜRKİYƏ ƏDƏBİYYATINDA - Xalidə XALİD[50]

ÖZET

Türk dünyasının en güclü söz sahiplerinden olan Muhammedhüseyn Şehriyar türkce yazdığı menzume ve şiirleri ile Güney Azerbaycandakı edebi hayata büyük bir canlılık ve tekrarolunmaz bir milli ruh getirmiçtir. Onun dillerde ezber olan Haydar Baba"ya selam menzumesi yazıldığı günden bu zamana kadar sevilerek okunuyor ve hakkında bitip tükenmeyen araştırmalar yapılıyor.

Şehriyar türke ve türkücülüğe karşı duran ve İranda yaşayan türklere zülm eden bir rejimin olduğu memleketde doğdu. Uzun zaman məmləkətində kənarda yani doğduğu Tebriz şehrindən uzakta olmasına rağmen hic zaman dilini ve adetlerini unutmadı. Bu mekalede her zaman Türkem diye, Türkiyeye hayali seferlerde bulunan, ustad Şehriyarın kendisi ve onu dünyaya Haydar Baba şairi kibi tanitan Haydar Baba"ya selam menzumesinin Türkiye edebiyyatındaki akislerinden bahs ediliyor.

GİRİŞ

XX əsr Şərq ədəbiyyatı tarixində ustad Məhəmmədhüseyn Şəhriyarın özünəməxsus yeri vardır. Ötən əsrin otuzuncu illərindən ədəbi aləmdə yüksək yaradıcılıq istedadına malik olan şair İran ədəbiyyatının iftixarı kimi tanınaraq həm anadilli-türkdilli, həm də farsdilli klassik poeziyanın ən uca zirvəsini fəth edə bilmişdir.

Mərhum sairə Hökümə Billuri özünün «Məhəmmədhüseyn Şəhriyar» adlı monoqrafiyasında ustadı vəsf edərək yazır:

«…Müasir İran poeziyasını əlvan bir gülüstana bənzətsək, Şəhriyar yaradıcılığını o gülüstanın şah gülü saymaq olar. Şəhriyar bədii məramnaməsinin başlıca meyarı xalq həyatıdır. O, şeiri xalq həyatının ayrılmaz bir hissəsi hesab edir, insanın şeirsiz yaşaması təsəvvürünü dilinə gətirə bilir» 1.

Ustad Şəhriyarın Azərbaycan türkcəsində və fars dilində yazdığı əsərlər Orta və yaxın Şərqdə geniş yayılmış, hətta ustadın əsərlərinin əks-sədası Avropa ölkələrinə belə gedib çatmışdır. Hələ şairin sağlığında İran, Azərbaycan, Türkiyə, İraq, Türküstan və digər ölkələrdə onun əsərləri geniş yayılaraq, ədəbi mühitə dərin təsir etmişdir.

Yazıldığı gündən əldən-ələ, gəzmiş dildən-dilə düşmüş, «Heydərbabaya salam» mənzuməsi ustada əbədi və unudulmaz bir şöhrət qazandırmışdır.

Əsərin sadə, ürəyəyatımlı, şirin, Təbriz ləhcəsində yazılışı hətta, oxuma-yazma bilməyən sadə fəhlə və kəndlinin də dillində əzbər olmuşdur.

Filologiya elmləri doktoru, profssor Teymur Əhmədov Şəhriyarın doğma ana dilində yazmaq həvəsini belə aciqlayır:

"… Şəhriyar əlinə qələm aldığı ilk gənclik dövründən doğma dildə şeir yazmaq niyyətində olsa da yalnız otuz yaşından sonra arzusunu həyata keçirmək imkanı tapa bilmişdir. Onu öz vətənləri haqqında az-çox yazan həmyaşıdlarının şeirləri qane etmirdi. Ürəyindən keçirdi ki, həmyerlilərinə, eləcə də həmyaşıdlarına xoş gələn, şirin olan «yerli təranələr» formasında bir şeir yazsın. Ancaq uzun müddət

[50] AMEA Nizami adina Ədəbiyyat İnstitutunun "Türk xalqları ədəbiyyatı" şöbəsinin elmi işçisi, Bakü/AZERBAYCAN.

Tehranda yaşadığından «Azərbaycan kənd ləhcəsinə xas olan şirin ləhcə, uşaqlıq çağlarındakı xatirələri zehnində «solğun və anlaşılmaz tablolar» kimi qalmışdı".2

«Heydərbabaya salam» mənzuməsi Şəhriyar yaradıcılığının ən yüksək zirvəsidir. Bu əsər təkcə onun yaradıcılığının deyil, həm də müasir Azərbaycan ədəbiyyatının zirvəsidir.

Bu əsərin meydana gəlməsi həm şairin öz həyatında dönüş nöqtəsi, həm də Cənubi Azərbaycan ədəbiyyatında yeni bir mərhələnin başlanğıcı oldu. Mənzumənin yazlışı ilə sanki Şəhriyar yaradıcılığında yeni bir Şəhriyar doğuldu.

M.Şəhriyarın «Heydərbabaya salam» mənzuməsinin səs-sədası Türkiyə Cümhuriyyətində ilk dəfə 1954-cü ildə «Azərbaycan» dərgisinin sentyabr-oktyabr, 6-7-ci sayında «Azərbaycan serinin yeni bir harikası» adlı tədqiqat məqalə və bu mənzumə dərc olunduqdan sonra duyuldu.3

1955-ci ildə M.Ə.Rəsulzadə «Azərbaycan» dərgisinin iyul-avqust sayında (4-5) «Ədəbi bir hadisə» adlı məqaləylə çıxış etdi.

«…Şeir, sənətdən anlayan zövq sahibi bir ədəbiyyatçının nəfis və orijinal bir sənət əsəri olan bu mənzuməni «ədəbi hadisə» deyə təqdirdə bizimlə bəqabər olacağına inanırıq. Şəhriyarın «Heydərbaba»sını doğrudan da bir hadisə saya bilərik. Çünki əsər qeyd etdiyimiz səslərdən fərqli olaraq xüsusi bir həsrətin sənət vurğunu bir eşqin refleksiylə meydana gəlmiş bir əsərdir»4.

İllər keçdikdən sonra 1964-cü ildə tanınmış şərqşünas alim Əhməd Atəş ustadın «Heydərbabaya salam» mənzuməsinin elmi izahını Türk oxucusuna təqdim etdi:

«Şəhriyar ruhi sarsıntılar içində kənarda tapmadığı yaxşılıq və təsəllini özünün iç aləmində yenidən yaratdı: uşaqlığının dadlı, acı xatirələri təkbaşına seyr etdiyi bir kino lenti kimi gözünün önündən keçdi», bunlar əslində olduğundan daha canlı bir şəkildə ifadəsini tapdı və «Heydərbabaya salam» şeiri yarandı»5.

Ölməz Şəhriyarı «Heydərbaba» sairi kimi tanıdan mənzuməsini oxuyan hər bir alim, şair yazıçı bu əsərə biganə qala bilmirdi.

Güneyli-Quzeyli Azərbaycanda olduğu kimi Türkiyədə də bu əsər çoxlarının ilham mənbəyinə çevrildi. Şəhriyar yaradıcılığının pərəstişkarlarından biri, Türk ədəbiyyatşünaslıqının görkəmli simalarından olan Əhməd Cəfəroğlu yazır:

"…İştə «Heydər baba» da bir dağdır. Klassik dağın edebiyyatında şairlerin kendi haklarında bilgi vermeleri, kısacası kendilerini tanıtmaları, mutat olunmakla beraber «Şehriyar» bu gelenege riayet etmemiş, yayınladığı eserine həm önsöz, həm də siirində yer almış olan şahis ve motivlere dair uzun ve tefsilatlı açıklama eklemişdir. Şairin bunca özenerek baş vurması hic de esassız ve lüzumsuz degildir. Payesi kimsenin hayalına getireniyecegi ana ocağı köyüne, her kesi uğratmak, fikir və hayatından çıxartmadığı «Heydərbaba»yı, uluslararası edebiyyat konuları içərisine sokmakdır.» 6

Şəhriyar fars diliylə şöhrət tapmış bir şairdir. Onun türk dilində qələmə aldığı əsərlər onun bu söhrətinə daha da şöhrət qatmış, onu ölməz şair kimi Turk dünyasına tanıtmışdır. Şəhriyar yaradıcılığının araşdırıcılarından dilçi alim Məhərrəm Erkin «Türk kültürü» dərgisinin 1965-ci il 27-ci il sayında «Türk dünyasından xəbərlər» bölməsində yazır:

«…İran Azərbaycanının yetişdirdigi büyük sair Şəhriyarın Türk kültürünün Araştırma Ekstitüsü yaymaları arasında da çıxan Haydar Babaya Selam adlı Türkcə eseri yayınlandığı andan itibaren her tarafta büyük yankılar uyandırmışdır.7

Məhərrəm Erkin bu mənzumə ilə ilgili ardıcıl olaraq «Türk kültürü» dərgisinin 1965-ci il 29-cu sayında «Nüsretullah Fethinin siiri», 30-cu sayında «İkinci

Haydar babaya selam», yenə həmin ildə həmin dərginin 31-ci sayında «Haydar baba siirinin yankıları» adlı məqalələr dərc etdirir.

Və 1971-ci ildə alim bu mənzumənin hər iki hissəsini ona yazılan nəzirələrlə birlikdə «Azəri türkcəsi» adlı ilə kitab halında nəşr etdirir. Bu əsər daha sonra 1986-cı ildə yenidən çap olunur.

Şəhriyarın «Heydərbabaya salam» mənzuməsinin ən böyük özəlliyi onun Azərbaycan türkcəsində, yanı doğma ana dilində yazılmasıdır. Bəlkə də şair bu şeirini doğma türkcəsində yox, farsca yazsaydı bu qədər Türk dünyasında məşhur ola bilməzdi.

Şəhriyarın «Heydərbabaya salam» mənzuməsi üzərində Türkiyədə aparılan araşdırmalar toplanılırsa cild-cild kitablar nəşr etdirmək olar.

1970-ci ildə professor Saadet Çağatayın «Azərbaycan» dərgisində çap olunan «Heyder Babaya selam-II» məqaləsində yazırdı: "… Haydar – Baba, şairin büyüdüyü köyün civarında bir bağın adıdır. Şair, Haydar – Babaya hitabederek, okucuya açıkca belli etmeden, bütün düyğularını, dert və sevinclerini şahsı olmaktan çıkarak, kendi cocukluk dünyasının gectigi devri canlandırmakta, özellikle bu ikinci bölümde zamanın yarattığı degişiklileri ve sosyal çöküntüuyü bir toplunun ruhu ve vicdani ile yeterince eşsiz bir tablo çizmekte ve her misrası ile yüksek başarısını isbat etmekdedir"8

Doç.dr.Ali F.Karamanoğlu «İl dayakına selam», prof. dr.A.Y..Akpınar «Heyder Baba"nın Şehriyara selamı» , Yrd.doç.dr.Namik Açıkgöz «Haydar Babaya selam» nezirələri ve yayınlanmamış bir nezire», Osman Fikri Sertkaya «Haydar Babaya selam» şerinin Türkiyedeki akisleri» , Nizamettin Onk "Mehmethüseyn Şehriyar (1906-18.9. 1988)" adlı məqalələri, eləcə də digər ədəbiyyatçı və dilçi alimlərin bu mənzumə ilə ilgili apardıqları araşdırmaların hər biri ayrı-ayrılıqda tədqiq olunası əsərlərdir.

Bütün bu araşdırmalar və nəzirələrə nəzər saldıqca Şəhriyarın Türkiyədə ən çox tanınan və haqqında yazılan əsəri «Heydərbabaya salam» mənzuməsinin olduğunu görürük.

Türkiyədə həmkarlarından fərqli olaraq ilk dəfə professor, doktor Yüsif Gədikli Şəhriyarın bütün türkcə şerlərini toplayaraq yayımlamış və bu şeirlərin hər birini Türk oxucusuna xüsusi təqdim etmişdir.

Yusif Gədiklinin «Şəhriyar və bütün türkcə əsərləri» adlı kitabı bu günə qədər Türkiyədə Şəhriyar haqqında yazılmış əsərlərin ən samballısıdır. Bu əsərin ilk nəsri 1990-cı ildə, ikincisi 1995-ci ildə nəşr edilmişdir. Türk oxucusunun maraq və diqqətini nəzərə alaraq əsər 1997-ci ildə yenidən təkmilləşdirilmiş formada oxuculara təqdim olunmuşdu.

Azərbaycanda da böyuk maraq doğurduğunu nəzərə alaraq 2007-ci ildə bu əsəri Azərbaycan turkcesinə uyğunlaşdırıb Şəhriyar vurğunlarına təqdim etdik.9

Şəhriyar irsinə maraq və məhəbbəti Y.Gədiklini 1988-ci ilin mart ayında Güneyə – ustadı ziyarətə aparır. Və bu görüşdən ruhlanan alim apardığı araşdırmaların nəticəsi olaraq 1990-cı ildə «Şəhriyar və bütün türkcə əsərləri» adlı kitabını nəşr etdirir.

1993-cü ildə isə o AMEA Nizami adına Ədəbiyyat institutunda «Şəhriyarın həyat və sənəti» adlı doktorluq dissertasiyası mövzusu götürüb 1995-ci ildə bu işi uğurla müdafiə edir.

Dursun Yıldırımın «Haydar Baba′ya selam» monoqrafiyasında Şəhriyar haqqında oxuyuruq:

"…Güney Azərbaycan edebi yazı dili metinleri adlı tasarım «proje», yukarıda sözünü ettigim olguya bir destek mahiyetindetasarlanıp düzenlenmiştir. Tasarımın «projenin» metinleri, Mehemmedhüseyn Şehriyar ile Bulud Karaçorlu Sehend′e aittir. Tasarının «projenin» hedefi, Şehriyar«projenin» ın «Birlik yaratın, söz bir ola biz kişilerde» diye ortaya koyduğu ülküye doğru gayret kervanın çekip götürenlik etmektir.

Şehriyar′ın bu tasarında «projede» yer alan metinleri, Türk dilinde yazdığı «Haydar Baba′ya Selam» adını taşımaktadır. Bu uzun soluklk metinlerin ilkinde Şehriyar, çocukluk geçirdigi Hoşgenab köyünü, köyün büyüklerini, arkadaşlarını ve o günlerin hayatını anlatır. Atayurdundan uzak kalmış bir insanın sıla hasretini,geçmişe özlemini Şehriyar′ın kendinden hareketle böylesine sarsıcı bir üslup ile getirmesi edebiyat dünyasında koparmış, okuyan insanların ruhlarında kasırgalar yaratmıştır."10

Son zamanlarda Şəhriyar irsiylə ilgili İnternet saytlarında da önəmli yazılara rast gəlinir. Belə yazılara misal olaraq «Qazi universiteti Fen- Edebiyyat fakültəsinin professoru, doktor İsa Ozkanın ww.w. pdffactoru.com – saytında verdiyi "Şehriyarın siirlerindeki kültur degerleri» adlı məqaləsində oxuyuq «Şehriyar bir özlem şairidir. Onun özlemi ana dilini konuşup yazmak, tarih və haldeki milli ve edebi kahramanlarını tanıyıp bilmək ve bu atmosferde oluşan havayı eldaşlarıyla teneffüs edib «haz duymak gibi kültürel bir çerçeve ile sınırlıdır"11.

«Bana Tebrizi sorsanız, Şehriyar derim, Şehriyar sorsanız, hasret derim. Hasreti sorsanız, çıvitle çamurlaşmış iki damla gözyaşı derim.» – söyləyən Şəhriyar irsinin vurğunlarından olan Bursa Nur Güler daha sonra yazır: « Şəhriyar bir Təbriz evladıdır. O «gül açdıqca solan dünya»ya «Beli oğul! Bizler hamı hemderdik. Güllər ekdik amma tikanlar derdik» misralarını yazdıran hayata, şahlık rejimine «Cengizlerin, fironların gesrine, söyle meger az gonupsan, uçupsan. Göre-gore zalımlığın ahırın, sen de onlar geden yolu tutupsan» sözlerini söyleyen hayata, yirmi iki yıl ayını elbiseyi giydiren, siyasi usulsüzlükler torpağında kendisini bikes bırakan, hiç tukenmeyen umudunu yeniden filizlendiğı demlerde ise «Gül ekmede qoca bağban! Bükülse bel ne gemin? Dalınca rehmet ohurlar bu gülleri ekene», sesini yükselten hayata, Tebrizde gözlerini açmıştır»12.

M.Şəhriyardan, əsasən də «Heydərbabaya salam» mənzuməsindən riqqətə gələrək şeir və nezireler yazan şairlərin sayı-hesabı yoxdur. Türk dünyasının hər bucağından bu səsə səs verildiyini bu zamana kimi bütün Şehriyarşünaslar tesdiq etmişlər.

Azərbaycan, İraq və digər ölkələr ilə bərabər Türkiyədə də bu mənzuməyə çoxlu sayda nəzirələr yazılmışdır.

Türkiyə Cümhuriyyətində bu əsərə nəzirə yazan şairlərdən Cənani Dökmeçi, Hayrettin Tökdemir, Verdi Kanqılıc, Aydın Erol, Ali Korkut Akbaş, Servet Gurcanhan, Tuncer Gülensoy, Nihat Yücel, Mustafa Kayabey, Əsəd Kabaklı, Emin Guzelsoy, Firat Kızıltuğ və başqalarını misal gətirmək olar.

Doktor Y.Gədiklinin «Şəhriyar və bütün türkcə seirləri» kitabında oxuyuruq:

«…»Heydərbaba» Türkiyədə də böyük əks-sədalar yaratmış, şairlərimiz əllərinə qələm alaraq nəzirə və cavablar yazmağa başlamışlar. Türkiyədə Şəhriyar və Heydərbabaya yazılan cavab və nəzirələri Osman Fikri Sertkaya toplayıb üç məqalə şəklində «Türk Kültürü» və «Azərbaycan türkləri» dərgisində dərs etdirmişdir» 13.

Osman.F.Sertkaya «Haydar babaya selam siirinin Türkiyedeki akisleri» I bölüm «Türk külturü» dərgisində 1969-cu ildə, ikinci bölümü isə sentyabr sayında, yenə həmin dərginin 1989-cu ilin fevral, ikinci bölüm isə «Azərbaycan türkləri» dərgisinin

aprel sayında , «Heydərbabaya salam» və Şəhriyara Türkiyəli şairlərin yazmış olduqları nəzirələri oxuculara təqdim etmişdir.14

Alimin «Türk kültürü» dərgisinin 1989-cu ilin fevral sayında çap etdirdiyi «Haydar babaya selam» siirinin Türkiyedeki akısləri» başlıqlı məqaləsinin II hissəsində oxuyuruq:

«…Şəhriyara Türkiyədə yapılan nazireler iki quruba ayrılmaktadır:

1.Dağrudan doğruya «Haydar Babaya Selam» şiirini örnek alıp, aynı şekil ve üslupla Anadolunun her hangi bir bölgesini anlatan nazireler.

2.Şehriyarın «Haydar Baba» şirine cevap maniyyetinde olan, Şehriyari kutlayan ve Şahriyara seslenmek qayesiyle yazılan nazireler.» 15

O.F.Sertkaya daha sonra iki qrupa ayırdığı nəzirələrə acıqlama verərək yazır:

«İki qurupa giren nazireler arasında Cenani Dökmecinin Elazığ ve Harput Yöresini işleyen «Bizim Dilden Bizim Köu» adlı 79 dördlükten müteşekkil haziresinden 16 kitayı (1., 2., 3., 21., 27., 29., 33., 42., 47., 49., 52., 66, 70, 76, ve 79 kitablar) «Cenani Dönmeçi ve siirleri» adlı mekalemde yayımlamıştım.

…İkinci quruba giren nazireler arasında daha önce yayımladığım üç nazireye şimdi yeni örnekler ilave ediyorum…»16

Tuncer Gülemsoy «Şehriyara seslema» neziresində

Şehriyarım «Heyder Baba» guldü mü?
Selam saldım, oralara geldi mi?
Özüm burda, sen gurbette neyleyim,
Diş tırnakta, tırnak ette neyleyim?

-deyərkən Şəhriyardan uzaqda olmasından, ustadı görmək həvəsindən bəhs edir:

Yurdum Asya, Kırım, Kazan uzakta
Düşman oğlu, elı, ipte, uzakta,
Ben burada, beklemekt neyleyim,
Sen orada "el etmkte" neyleyim.

Nihat Yücel isə «Şehriyara selam» nəziresində:

… Selam Şehriyar" a Haydar Baba′ ya,
Sürdüğü saltanat kalır mı şah ′a?
Kurtuluş, yakındır sanma ki rüya,

Öc duygusu yüreğimde kan gibi.
Birgün patlayacak bir volkan gibi!

- söyləyərək şahlara, türkə düşmən olmuş fars cəlladlarına məkan olmuş İran deyilən yerdə- Şəhriyara və onun timsalında türk oğlu türkə çəkdirilən acılara təssüflənir:

Tutsak olmamışam ben şimdiye dek,
Arap, Acem dün köləmdı, bu gerçek…
Elimiz, kolumuz bağlı ne diyek?
Alınacak bir gün ata toprağı,
Şehr"yar yüreklerde umut bayrağı!

Şair Ustada yazdığı nəzirəylə kifayətlənmir və ona daha iki rübai həsr edir:

I

Türk birliği çok yakın yakın Şehriyar
Bir gün olur İran"a akın Şehriyar
Hic bir kuvvet söndüremez Türklüğü ay

Türklük yüce gökte bir çakın Şehriyar.

II

Tutsak yaşamak Fars"sa çekilmez dert bu
Bir gün dilerim gönlüne serpilsin su
Yurdunda garip kalan Nihat"tan bil ki
Şehriyar sana var selam gönül dolusu. 17

Şəhriyarı Şərqə sevdirən özəlliklə də qardaş Türkiyədə ona tükənməz sevgi qazandıran şairin dilinin sadəliyi və şirinliyi, eləcə də onun doğma ana dilinə sonzuz sevgisi və əsil vətənpərvər şair olması idi.

Şəhriyar irsinə tükənməyən sevgi bəsləyən qardaş məmləkətdə bu günə qədər şairin həyat və yaradıcılığı ilə ilgili araşdırmalar aparılır, yeni-yeni elmi əsərlər və nəzirələr yazılmış və bundan sonar da nə qədər ki, həyat var, nə qədər ki şeriyyət var ustadla ilgili daha samballı əsərlər Şəhriyarsevərlərə təqdim olunacaq və gələcək nəsillərə Türk xalqının misilsiz mədəniyyət abidəsi olan Şəhriyarın "Heydərbabaya salam" mənzuməsi yadıgar qalacaqdır. Əhməd Bican Ercilasunun diliylə desək:

"...Türk ədəbiyyatı ucsuz-bucaqsız bir xəzinədir.(…) Budur, bu ucsuz- bucaqsız xəzinə içində 1954-cü ildən bu günə qədər elə bir cəvahir vardır ki, onu yüzlərcə sandıq iində saxlasanız da, parıltısını yox edə bilməzsiniz. Onun işıltısını İstanbuldan, Bakıdan qamaşaraq seyr etdik. Tehranda, Təbrizdə, Səlcuqlu əcdadlarımızın uşaqlarının yurdunda bir külçə qızıldı Məhəmmədhüseyn Şəhriyar"18

ƏDƏBIYYAT:

1. H. Billuri.Məhəmmədhüseyn Şəhriyar. Bakı. Elm. 1984.s.4
2. T. Əhmədov. Humanist ideyalar carcısı. Seyid Məhəmmədhüseyn Şəhriyar. "Fyuzat" dərgisi.2007. Mart. Say 3/35. s.40
3. Azerbaycan şiirinin harikası. "Azerbaycan" dergisi.Eylül-Ekim.1954. sayı6-7(30-31)
4. M.Ə.Rəsulzadə.
5. A. Ateş "Şehriyar və Haydar baba"ya selam". T.K.A.E. Yayınlarından. SeriIY. Sayı B2. Ankara Universitaesi Basımevi.s.-10
6. A. Caferoğlu. Şair Şehriyar.Türk dünyası Araştırmaları. Ankara.1964.Sayı 1.s.-133
7. M.Ergin. Türk dünyasından haberler. Türk kültürü dergisi. Ocak. Sayı 27. s-71-72(211-212)
8. S.Çağatay. Haydar Baba"ya selam II . Azerbaycan dergisi. Yıl XIX .Say 202. s.-14
9. Y.Gedikli. Şəhriyar və bütün türkcə şeirləri. Yom yayınları. Bakı 2007. Azərbaycan türkcəsinə uyğunlaşdıran Xalıdə Xalid.
10. D.Yıldırım. Haydar Baba"ya selam. Ankara. Atatürk Kültür, Dil, Tarih Yüksek Kurumu Türk Dil Kurumu Yayınları.813/5. s. YII
11. Prof. dr. İ. Ozkan-Şehriyarın şiirlerindeki kültür degerleri. Sosyal Bilimler İntitüsü Dergisi. Sayı.20. yıl 2006/1 sayfa 143-151. internet sayfası.www.pdffactoru.com

12. Busra Nur Güler. Tebrizin ruhu ve Şehriyar.Doğumun 100 Yılı hatırasına. File. Localhost.C. 28.11.2008

13. Y.Gedikli. Şəhriyar və bütün türkcə şeirləri.Yom yayınları. Bakı 2007. seh.127

14. Osman.F.Sertkaya.Haydar baba"ya Selam şirinin Türkiyedeki akisleri-I. Türk kültürü dergisi. Eylül 1969.Say 3.s. 836-841

15. Osman F.Sertkaya.Haydar Baba"ya selam şiirinin Türkiydki akisleri-II. Türk Kültürü dergisi.Ankara. Şubat 1989. Say 310.s.93

16. age.s.93

17. age.94-97

18. A.B.Ercilasun. Muhammed Hüseyn Şehriyar-Türk dünyası en büyük şairlerinden birini kaybetti. Türk Kültürü. Dergisi. Ankara. Aralık 1988. say308. s.778-779

HÜSEYN CAVİDİN DİLDƏ BİRLİK İDEALI - AZER TURAN[51]

ÖZET

Azerbaycan türk edebiyatında romantizm akımının seçkin temsilçilerinden Hüseyn Cavid (1882-1941) aynı zamanda ortaq türk kültürünün, edebiyatının gelişmesi uğrunda mücadele vermiş tarihi şahsiyetlerimizin önde gelen isimlerinden biridir. Verdiyi mücadelenin sonucunda Cavid rus-sovyet rejiminin lideri Stalin tarafından cezanlandırılmış, katle yetirilmiş, Sibiryaya sürülmüş binlerce Azeri türk aydınlarından biridir.

GİRİŞ

XIX yüzilin sonu və XX əsrin əvvəllərindən etibarən İsmayıl bəy Qaspıralının «Dildə, işdə, əməldə birlik» düsturu türkçülük düşüncəsinin ideal vəzifəsinə çevrilir, türklərin dil birliyi ideyasının, ortaq ədəbi türkcə probleminin ətrafında müzakirələr başlanır.

İsmayıl bəydən sonra, Əli bəy Hüseynzadənin, daha sonralar isə İstanbulda «Yeni türkcənin Xristafor Kolumbu» adlandırılan Ömər Seyfəddinin bu gün türk millətinin bir məfkurəsi vardır. O da harsca, yəni lisanca birləşməkdir. Ayrı-ayrı türk dövlətləri olsun. Bunun zərəri yox. Fəqət ayrı-ayrı lisanlar bizi məhv edər. Türklərin lisanca birləşməsi bütün Turanın birləşməsi deməkdir - deyə daha israrla müdafiə etdiyi həmin məsələ ətrafında, qəribədir ki, sırf Azərbaycan ədəbi dili mövqeyində dayanan Cəlil Məmmədquluzadə də, İstanbul ədəbi dilinin tərəfdarı olan Hüseyn Cavid də... ümumiyyətlə, hamı vahid cəbhədə birləşir. Cəlil Məmmədquluzadə yazırdı: «Bizim türk tayfaları üçün ümumi bir dil, ədəbi bir dil mühüm məsələlərin biridir və hətta - elə zənn edirəm ki, - ümum türklər üçün ümumi bir dil yaratmaq və bir imla yazmaq onlar üçün təzə əlifba yaratmaqdan çətindir... Pəs biz bunu etiraf edirik ki, əvvəl-axır türk kütlələri üçün ədəbi dil və ümumi imlaya çox böyük ehtiyac vardır. Və etiqadımız da bundadır ki, bir belə dil gec-tez vücuda gələcəkdir». (1. III: 677-678)

Cavid yaradıcılığının ən orijinal problemlərindən biri böyük sənətkarın dil məsələsidir. Cavidin dili - Cavidin fəlsəfəsi qədər və bəlkə də ondan daha əhəmiyyətli bir məzmun kəsb edir. Başqa sözlə desək, Cavidin fəlsəfəsi, əslində onun dil siyasətinin fəlsəfəsidir. Çünki Cavid bilirdi ki, ittihad, ən əvvəl, dildən başlana bilər.

H.Cavidin dili, milli şüurumuzun alt yapısında təmərküzləşən turançılıq konsepsiyasını öz ifadə imkanlarının sayəsində təzahür etdirmişdir. Yəni, bu ədəbi dil turançı bir dildir. Cavidin dili onun sistemli dünyagörüşünün, məfkurəsinin dilidir. Romantik və ədəbi mahiyyətindən daha qabaq isə bu dilin siyasi-məfkurəvi bir mahiyyəti vardı. Bu mənada Cavidin dilinə toxunmaq, əslində onun məfkurə ərazilərinə müdaxilədən başqa bir şey deyildi. Bu ərazinin sınırları daxilində isə millətimizin məfkurəvi müəyyənliyi, əxlaqı, kültürü və ruhu mühafizə olunmaqdaydı.

Cavidin mətnləri özünün yazdığı şəkildə meydana çıxdıqca bizim məfkurə müəyyənliyimiz, əxlaqımız, kültürümüz, ruhumuz rus müdaxiləsindən qurtulmağa, azad olunmağa başlayır.

Cavid, əslində, Turan ədəbi dilinin qurulması naminə mücadilə vermişdi.

Məsələni hələ belə bir müstəviyə gətirib çıxarmadan da, yaradıcı fəaliyyətinin ilk dönəmində, İstanbul Darülfünundan mezun olduğu sıralarda - 1910-cu ildə Cavid ana

[51] ƏDƏBİYYAT qəzetinin baş redaktoru, müavini, AMEA Nizami adına Ədəbiyyat institutunun dissertantı, Bakü/AZERBAYCAN.

dilinin yaşaması uğrunda güzəştsiz mücadilələr verməkdəydi: «Məsələn, bir çoq... məktəblərdə gürcülərin, ermənilərin həm şəriət, həm lisan müəllimləri olduğu halda, müsəlmanların yalnız şəriət mollası var. Lisan müəllimindən məhrumdur. Onun içindir ki, bir çoq məktəb şagirdləri az bir zamanda kəndilərini unutuyorlar. Özlərini, sözlərini bilmiyorlar. Tarixlərindən, köklərindən xəbərsiz qalırlar. Bu da bir millət için pək böyük qəflət, pək böyük tədənnidir. Dilsiz bir millət yaşamaz, çabuq münqəriz olur. Bir millətin lisanı, mevcudiyyətinin ən parlaq bürhanıdır».(2.V:94)

Milli məfkurəmizin klassik üslubu Cavidin dilinə çox müvafiqdir. Ortaq türk keçmişindən ortaq türk gələcəyinə səhifələnən lüğətlərimiz deyəsən elə bu dildə yazılacaq.

İsmayıl bəy Qaspıralı 1906-cı ilin 15 mart tarixində 26 saylı «Tərcüman» qəzetində Əli bəy Hüseynzadəyə ünvanladığı açıq məktubunda bildirirdi ki, «Mətbuatımız yaponca tərəqqi ediyor» - sözləri eşidildi. Hay, hay! Böylə olsa idi, nə xoş! Amma deyil. Çünki yapon adalarının hər birində birər şiveyi-məhəlliyə olduğu halda, mühərrirləri və ədibləri ən ibtida «lisan birləşdirməkdən» işə başladılar və bu sayədə dil və lisan ilə bərabər millətin fikirlərini, niyyətlərini və işini birləşdirdilər. Çünki lisan və ədəbiyyat birliyi sair cümlə birliklərin əsası və nəkzidir».

1960-cı illərin əvvəllərində Vaşinqtonda azərbaycanlı mühacir Mustafa Haqqı Türkəqul «Azərbaycan şairi Hüseyn Cavid» monoqrafiyasında məsələyə məncə, daha obyektiv aspektdən yanaşmışdı: «Cavidin dili istər Azərbaycan daxilində; istərsə Azərbaycan xaricində ən çox münaqişə və mübahisə olunan bir mövzudur. Məlum olduğu kimi, İstanbul türkcəsi ilə Azərbaycan türkcəsi arasında ufaq da olsa bir ləhcə fərqi vardır. Cavid İstanbul türkcəsini mənimsəmiş, bu şivəni bütün incəliklərinə qədər öyrənmişdir. Yaradıcılığının ilk dövrlərində, bilxassə şerlərində, İstanbul şivəsini məharətlə kullanan şair, sonralar yaratdığı əsərlərində bu şivəni Azərbaycan ədəbi türkcəsinə yaxınlaşdırmağa çalışmış və demək olar ki, bu işdə müvəffəq olmuşdur. Bunun üçün də Cavidin türkcəsinə nə tamamilə İstanbul türkcəsi, nə də tamamilə Azərbaycan ədəbi türkcəsi demək qabildir. Cəsarətlə deyə bilərik ki, Cavid bu iki tükrcə şivə arasında bir körpü yaratmış və bu iki şivə arasındakı məsafəni qısaltmışdır.

...Cavidin işlətdiyi türkcə olduqca dadlı və işlənmiş, gözəl bir türkcədir. Şimali və Cənubi Azərbaycan, Türkiyə, Türküstan və s. türk ellərində tək bir münəvvər

bulunmaz ki, Cavidi oxusun, onu anlamasın və onun türkcəsindən zövq almasın». (3.51)

Cavidin işlətdiyi dil Türkəqulun da qeyd etdiyi kimi, Qüzey və Güney Azərbaycanda, Türkiyə və Türküstanda, bütün türk ellərində bütün aydınların zövq alacağı, dadlı və gözəl türkcədir və bu dilin vasitəsi ilə türk ədəbi dili geniş bir ərazini qapsayacaqdı.

Hüseyn Cavidin pedaqoji görüşlərini ifadə etdiyi məqalələrində də dil məsələsinin nəzəri tərəfləri mükəmməl bir elmi və milli müstəvidə təqdim olunur. Cavid iki qism dil fəsadından bəhs edir. Birinci qism, «Aras aşırı qoşub gələn fanatizma dəllalları»dır. Fanatizm dəllallarının danışıq tərzini, üslubunu tənqid edən Cavid «fanatizm dəllalları» adlandırdığı qism barədə bu qənaətdədir ki, bu «budalaların nə fikri, nə duyğusu, nə lisanı, nə də əxlaqı, əxlaqsızlıqdan başqa bir şey deyildir, bizə yaramaz. Qafqaziya üçün lüzumsuz və bimənadır. Hələ lisanları, ədəbiyyati-atiyəmizi rəxnədar edəcək dərəcədə müzürr və təhlükəlidir, onunçün də şayani-ehtirazdır».(2.V: 211)

İkinci qism isə rus təhsili alıb, türkcə müəllimlik edənlərdir ki, onlar Cavidin təsnifatında belə görünürlər: «İştə rusca oqumuş, türkcə müəllimlik edən arqadaşlardan birisinin məktubundan bir parça: «Əfəndim, mən istiyorum getmək iyunun on beşində mineralnı sulara, hansı ki, olar çoq mənfəətli məndə olan cüzi naxoşluğa...»

İlk nəzərdə insan, şu cümlələrin türk dilində olduğuna əsla şübhə etməz, çünki hər kəlməsinə diqqət etsə, düzgüncə türk sözləri olduğunu təsdiqdən kəndini alamaz. Lakin cümlələrdəki ahəngə, o qarışıq mübtəda, xəbərlərə bir musiqişünas sameəsilə qulaq versə, dərhal «xaxol» qulilə düşünülmüş, türk kəlmələrilə vücuda gəlmiş bir əcubə olduğunu anlar». (2.213) Lakin bununla yanaşı, Cavid bu ikinci qismi türk lisan və ədəbiyyatı ilə beş-on ay məşğul olandan sonra faydalı görürdü.

İki məsələ diqqəti cəlb edir. Bir tərəfdən Arazın o tayından gələn fanatik düşüncəni bilmərrə qəbul etməyən Cavid, digər tərəfdən rus-Avropa təhsili görmüşlərimizin daha çox fayda verəcəyini düşünür və yetər ki, bir az da öz üzərlərində çalışsınlar - deyir.

Dil məsələsi barədə fikir bölüşərkən, yuxarıda xatırlatdığımız bəzi məqamlara yenidən toxunmaq istəyirik.

Hüseyn Cavidin dili onun məfkurəsini ifadə etmək və vahid Turan idealını gerçəkləşdirmək naminə hasilə gətirdiyi ədəbi bir hadisəydi və Məhəmməd Fuad Köprülü onun dilini «təmiz və işlənmiş bir üslub» kimi dəyərləndirmişdi: «Hüseyn Cavidə gəlincə, bu dövr (yeniləşmə dövrü - A.T) azəri ədəbiyyatının ən qüdrətli sənətkarı, şübhəsiz, odur... Məmafih azəri ədəbiyyatında ilk mənzum pyesləri yazması, səhnədə İstanbul türkcəsini kullanması... təmiz və işlənmiş bir üsluba malik olması, əsərləri üzərində həqiqi bir sənətkar həssaslığıyla çalışması, azəri şerinin təkamülü tarixində, ona mühüm bir mövqe təmin etmişdir. Bilxassə «İblis» pyesi azəri ədəbiyyatında, ədəbi qiymət etibarilə, heç müqayisə edilməyəcək bir əsərdir».(4.2.73)

1922-ci ildə yazdığı «Ədəbi mübahisələr» məqaləsində Cəfər Cabbarlı yuxarıda xatırlatdığımız kimi, Cavidin dilini təhlil edərkən, Fuad Köprülüdən də irəli gedir: «Caviddə su kimi duru, almas kimi saf, parlaq və oynaq bir lisan vardır ki, bu, islahına çalışan lisanımızın təkamül özülü ola biləcəkdir zənnindəyik. Zatən, bir millət üçün lisanı onun şairləri, ədibləri yaradırlar ki, Cavid də bu cəhətdən qiymətlidir. Bizcə, Cavidin orta bir yol götürmüş lisanı Azərbaycanda tətbiq ediləcəyi kimi, ərəbləşmiş Fikrət və Hamid lisanlarını da meydandan sıxıb çıxaracaqdır» - deyirdi.(5. 184-201)

Hüseyn Cavidin verdiyi mücadilə əslində həm də dil mücadiləsindən ibarətdi, 1937-ci ilin məşum hadisələri fonunda tərtib olunmuş istintaq materiallarını

incələyərkən bunun bir daha şahidi olursan ki, Cavidin başda gələn «günahlarından» biri də onun hakim ideolojinin dil sahəsindəki məqsədlərini aşkar bilməsi idi. Cavid əslində nə baş verdiyini, SSRİ daxilində hansı dil siyasəti yürüdüldüyünü dərindən anlamışdı. Zəki Vəlidi Doğan yazırdı: « ...böyük bir «Avroasiya» dili olmaq peşinə düşən rus dili qarşısında Rusiyaya tabe və ona qonşu Şərq millətlərinin dillərinə bunları «xalqlaşdırmaq» bəhanəsiylə ədəbi dillərin məhəlli danışıq dilləri əsasında «tadil»i, bu yolla bu qövmlər arasında dil və imla qərarsızlığı yaratmaq, bu dillərin yaşama istedad və qüdrətini məhv etmək şəklini almışdı». (6.406-412) Hüseyn Cavid də Z.Vəlidinin dediyini deyirdi və o, bu qənaətə daha əvvəllər gəlmişdi.

Hüseyn Cavid imperatorluqlar quran böyük bir millətin şairi olduğunu bilirdi. İmperatorluq quran millətlər - ərəblər, ingilislər, türklər «hakim olduqları torpaqlardan vergi aldıqları... məhsul topladıqları kimi, söz də alırlar. Həm də bu almağın ölçüsü də yoxdur. Özlərinə lazım olduğu qədər və ya canları istədikləri qədər ala bilərlər».(7.21)

Məhz Zəki Vəlidi Doğanın diqqəti cəlb etdiyi mübahisəli məqam 1938-ci ilin Novruz bayramı günlərində 21-22 martda Cavidlə leytenant Rodos arasında «çözülürdü». Cavid istintaqda ifadə verib, ona atılan böhtanları təkzib edirdi. Müstəntiq isə onu «fakt» qarşısında qoyurdu. Çünki o dövrün gənc yazıçılarından biri istintaqa məlumat vermişdi ki, guya şəxsi söhbətləri zamanı Hüseyn Cavid: «Cavan yazıçılar osmanlı türk ədəbiyyatına yönəlməli olduqları halda, rus siyasətinin təsirinə qapılıb köhnə yazıçıları tənqid edir və Azərbaycan dilinin ruslaşdırılmasında iştirak edirlər, rus terminlərinin sonluğu «üiə» - stanüiə, kollektvizaüiə Azərbaycan dilinin quruluşuna uyğun gəlmir. Biz xarici sözləri rus dili vasitəsi ilə deyil, birbaşa qəbul etməliyik». Həmin yazıçının verdiyi ifadəyə görə, Cavid bir də onu deyirmiş ki, «Rus dilinin təsiri altında qaldıqca, Azərbaycan dili tədricən öz mənasını itirərək ruslaşır».

Bu proses hətta 1937-ci ilin siyasi vahiməsi sozalandan sonra da Azərbaycan yazıçılarının canında cərəyan edirdi. Cavidin bəraəti ilə əlaqədar Azərbaycan Yazıçılar İttifaqı Rəyasət Heyətinin 1956-cı il şubatın 8-de Dövlət Təhlükəsizlik Komitəsinə göndərdiyi Hüseyn Cavidin «Yaradıcılıq xarakteristikası»nda belə bir fikir vardı: «Cavidin poetik dilinin türk sözləriylə zibillənməsini də qeyd etmək lazımdır».(8) Qəribədir ki, tamam xeyirxah bir məqsədlə Cavidə bəraət istəyənlər yenə də Cavidi məhz dil məsələsində »ittiham» edirdilər.

«İmlasına toxunmamalı!» Bu da Hüseyn Cavidin yazdıqlarının xətasız nəşr olunması ilə bağlı istəklərindəndi. Mətbuata ünvanladığı qeydlər «Azər»in bir əlyazma nüsxəsində səhifənin sonundadır: »Hiç bir yerinə, hətta imlasına əl vurmamalı... Son təsfiyəyə kəndim də baqsam, daha eyi olur».

Bu xırda, bəlkə də adi görünən qeyddən də aydın olur ki, Cavid birinci növbədə, bir sənətkar olaraq öz doğma və bənzərsiz imlasının fədaisiydi.

Burada uzun bir haşiyə çıxıb Turan Cavidin* dediklərinə istnad etmək istəyirəm: «Əvvəla, Cavidin özü öz yazılarına azacıq da olsa düzəlişi istəməyən yazıçılardandı. Hətta «Azər»də vərəqin aşağı hissəsində redaksiyaya ünvanlanmış belə bir qeyd var: »...diziləndən (yığılandan) sonra çapa getməzdən əvvəl müəllifə göstərmək məsləhətdir». Cavid bir kəlmə sözü belə dəyişdirməyi sevməzdi. İndi, o illərdən qalan bir qəzet var: «Azər»dən «İsyan» şeri dərc olunub həmin qəzetdə. Cavid dərc olunmuş şerinin üstündə hədsiz düzəlişlər edib. Bəraətdən sonra, 1958-ci ildə ilk dəfə repressiya qurbanı olmuş yazıçıların kitabları çıxmalıydı. 30 çap vərəqi həcmində bir kitabı... tam hazır edib «Azərnəşr»ə təqdim etdim. O zaman artıq bir neçə kitab - həcm etibarıyla kiçiklər çıxmışdı və həmin kitablarda çoxlu düzəlişlər etmişdilər. Hətta

Mərkəzi Komitə belə düzəlişlərin tərəfdarı deyildi. O zaman Həbibə Məmmədxanlı «Azərnəşr»də işləyirdi. O şahidi olmuşdu ki, Cavidin dilini sadələşdirməyi Əlağa Vahidə təklif edirlər. Ehtiyac içərisində yaşayan Əlağa Vahid: «Mən nə karəyəm ki, ustadın yazısına qələm çalam, o dünyada Cavidə nə cavab verərəm?» - deyir və təklifdən imtina edir. Sonra bu işi Mirmehdi Seyidzadəyə həvalə etdilər. Düzəlişlər apardı və bu düzəlişlərdən sonra, gördülər ki, yox, əsərlər bərbad vəziyyətə salınıb və bundan sonra qərara gəldilər ki, kim neçə yazıbsa, eləcə də çap olunsun. Amma 1958-ci ildən sonra əsərlər redaktə olunmağa başlandı, əməliyyatlar aparıldı. Nisbətən az dəyişikliyə uğrayan 1968 - 71-ci ildə nəşr olunan üçcildlik idi, mən onun korrekturasını iki dəfə oxudum. Məsələn, orda mən «şu»ları saxlamışdım, «pək»lər qalırdı. «Şimdi»ni «imdi» kimi redaktə etmişdim. Getdikcə bu ənənə davam edirdi. Ən dəhşətlisi, ən bərbadı 100 illik münasibətilə çıxan dördcildlikdir. Əldə olan bütün əsərlər bu dördcildlikdə toplanmışdı. O vaxta qədər nəşr olunmayan «Peyğəmbər», «İblisin intiqamı», məktublar, məqalələr bu cildə daxil edilmişdi. Çapdan çıxandan sonra kitablara baxdım və dəhşətə gəldim. Yeri oldu, olmadı, hətta məktublarında da bütün «şu»lar «bu»ya, «pək»lərin hamısı «çox»a, «şimdi»lər «indi»yə çevrilib, «gediyorum», «gəliyorum» ləğv olunub. Xüsusilə nəsrlə yazılmış əsərlərində dəhşətli vəziyyət yaradılıb. Poeziyasında bir qədər çətinlik çəkiblər, amma nəsrdə elə sadələşdirmələr aparılıb ki, sanki, ilk əsərlərindən üzü bəri Cavidin dilində heç bir dəyişiklik, fərq, inkişaf olmayıb. Axı, tutaq ki, «Ana»yla «Xəyyam»ın dili eyni deyil, tamamilə fərqlidi. «Şeyx Sənan»la «Xəyyam» arasındakı fərq ciddidir. Cavidin dili sonralar xeyli zənginləşmişdi. Cavidin İstanbuldan yazdığı ilk məktubuyla son məktubunun dili arasında ciddi fərqlər var. İlk məktublarında bolluca fars, ərəb sözləri işlədib. Getdikcə bunlar hamısı türk sözləriylə əvəz olunub».(9:54)

Cavidin 1982-85-ci illərdə nəşr olunmuş, uzun illər, guya nisbətən ən mükəmməl nəşr sayılan dördcildliyində vəziyyət hədsiz dərəcədə, istər elmi, istərsə də dilbilgisi baxımından bərbad vəziyyətdədir.

Dördcildlik Əkrəm Cəfərin redaktəsi ilə nəşr olunmuşdu. Belə görünməkdədir ki, redaktor Cavidin imlasındakı «nöqsanları» guya islah etməklə əslində klassik bir Cavidi dil baxımından zədələyib. Lakin Ə. Cəfərin 10 dekabr 1982-ci ildə «Yazıçı» nəşriyyyatına yazdığı etiraz məktubundan (10) anlaşılır ki, nəşriyyat Əkrəm Cəfərin də redaktəsinə müdaxilə edib. Hər şeyə rəğmən hər halda dördcildlik «Əsərləri»ndə Cavidin özü qətiyyən olduğu və yazdığı kimi deyil.

Dördcildliyin redaktəsi zamanı Cavid leksikası olduqca geniş miqyasda zavala uğrayıb. Zədə çox dərindir.

Təhriflərin yığcam mənzərəsi belədir: Kəndi - özü, pək - çox, şu - bu, nasıl - necə, nerdə - harda, şimdi - indi, bana - mənə, bən - mən, sana - sənə, yıl - il, bin - min, bəkləmək - gözləmək, taqım - dəstə, para, gümbürtü - gumbultu, yapmaq - etmək, yardım - kömək, seyirçi - tamaşaçı, həpiniz - hamınız, fəna - yaman, böylə - belə, pəki - yaxşı, müsaraat - müsariət, təriz - məruz, məlahat - mühalat, çoban - çox, topraqlı - torpağın, qaplamış - qapanmış, qılıb - qalib, taciz - təciz, bulmalıdır - bilməlidir, ihtiraz - etiraz, iftiraq - ayrılıq, etiyaddan - adətən, təmyiz - təmziy...

Hüseyn Cavidin dili hər zaman hədəfdə olub və mənə elə gəlir ki, Azərbaycan ədəbiyyatı tarixində Cavidin dili qədər kənar və ədalətsiz müdaxilələrə rast gələn ikinci bir dil yoxdur. Cavidin dilini təshih etmək təşəbbüsü heç vaxt səngimək bilməyib və yaradıcısının ideallarına səmimi yanaşa bilmədiyimizdən biz onu yersiz «redaktələrə» məruz qoymuşuq.

Bu hətta 1913-cü ildən - Hüseyn Cavidin ilk kitabının - «Keçmiş günlər»in nəşrindən başlanır və hətta ilk kitabının son səhifəsindəki qeydlərdən biri də həmin

məsələyə həsr olunub: «Təb olunduqdan sonra - ilk səhifədə «qayqısız» yerinə «ğayqısız» basıldığı kibi - bir taqım küçük imla xətaları görülməkdədir. Möhtərəm qarelərdən təshih və əfv edilməsi acizanə rica olunur» (11.24)

Təkcə dilinə deyil, dediklərinə, məfkurəsini paylaşdığı məqamlara da müdaxilə olunub. Bu mənada, tutaq ki, Cavidin məşhur «Məzlumlar üçün» şerinin hələ mətnini deyil, sərlövhəsini orijinalında oxuyub təəssüflənməmək və təəccüblənməmək olmur. Əslində, Cavid sadəcə, «Məzlumlar üçün» deyil, «Kars və Oltu ətrafında səbəbsiz olaraq (!?) alçaqcasına qətl və yəğma edilən məzlumlar için» yazırdı və məhz onların qövmünə, öz millətinə xitab edirdi ki:

Yaşamaq istərsən çalış, çabala,
Rəd olub gurla, bərq olub parla!
Yoxsa fəryadü nalə zaiddir
Bir həqiqət bu: əzməyən əzilir!..(2.I:73)

Yaxud, məşhur «Bənim Tanrım» şerini alaq. Şerin əksər nəşrlərində belə bir misra var: «Hər kəsin bir eşqi, bir Allahı var» (Nə üçünsə, heç fərqinə varmamışıq ki, Cavid belə deyərdimi?). Mətn Turan Cavid tərəfindən bərpa olunduqdan sonra Allahın ilahla əvəzlənməsi yenə də diqqətimizi cəlb etmədi. Əslində isə Cavid: «Hər kəsin bir eşqi, bir ilahı var» - demişdi.

Nə üçün Allah deyil, ilah? Çünki Allah təkdir və heç vəchlə cəm şəkilçisi qəbul etmir və islamiyyətin ilk illərində müsəlmanlar və xüsusən Hz. Məhəmməd bu mənada, yəni digər məbudları - bütləri bildirmək və onları Allahdan fərqləndirmək üçün ilah kəlməsindən istifadə edərdi.

Prof. dr. Rəcəb Doksatın bildirdiyi kimi, «Ərəbcədə ilah kəlməsi «ibadət edilən, əzəmət və qüdrət baxımından ibadət edilməyə, huşu ilə boyun əyilməyə və itaət edilməyə layiq bir varlıq deməkdir». Bəşər anlayışına görə və bəşəri idraka nəzərən, müəzzəm bir qüdrətə sahib görünən hər varlığa kəza ilah deyilmişdir. Başqalarını heyrətə, haşyətə düşürəcək sonsuz görünən bir qüdrətə sahib olan da, ilah tələqqi edilmişdir. Kəza ilah «Başqaları ona tabe olmasına rəğmən, özü başqalarına tabe olmayan» anlamına da gəlir. İlah kəlməsi eyni zamanda ərəbcədə, gizlilik, əsrarəngizlik mənasını da daşıyır. Beləcə ilah kəlməsi, əlçatmaz, görünməz bir qüdrət halını da ifadə edir... Allah kəlməsi xüsusi isimdir, Zülcəlalın əsli və zati adıdır. İlahlar deyə bilərsiniz, tanrılar deyilə bilər, fəqət - haşa - Allahlar deyilə bilməz».(12.384)

Hüseyn Cavid bir qayda olaraq, ilah kəliməsini Allah əvəzinə işlətmir. 1917-ci ildə yazdığı «Hərb ilahı! Ey sırıtan kinli əjdəha» misralarında ifadə olunan hərb ilahı hərb Allahı deyildi, qədim yunan mifologiyasındakı Aresin, italyan mifolojisindəki Marsın oxşarıydı. Fikir verirsinizmi, Cavidin dil bilgisinə hansı miqyasda təcavüz edilmişdi (və mən hələ həmin məşhur şerin dağıdılan arxitekturasını, şeirdən təcrid olunmuş əsas qayəni demirəm):

Həzz etmədim firqədən, cəmiyyətdən,
Zevq alamam hərbdən, siyasətdən.
Bir şey duymam fəlsəfədən, hikmətdən
Bənim ruhum gözəllikdir, sevgidir.(2.I:130)

Cavid zəmanənin siyasi firqəçilik əxlaqına, qanlı hərb oyunlarına qarşı gözəllik və sevgi anlayışını qoyurdu).

Hüseyn Cavid Tanrı inancındaydı, tarixi dövrlər olub ki, eyni miqyasda və eyni anlamda vahid yaradıcı başlanğıc kimi dərk olunan Tanrı (və tək Tanrı!) islamın nişan verdiyi Allah kəlməsi ilə eyni mənanı ifadə edib.

Balasaqunlu Yusif də Allahı «Qutadqu-Bilik»də əsasən Tanrı şəklində yazırdı. Cavidin daha çox, Allah əvəzinə Tanrı deməsi onun dili türkcələşdirmək yolundakı fədakar hərəkətlərindən biri kimi dəyərləndirilməlidir.

«Gördüm ki, uca Tanrı, dövlət günəşini türklərin bürclərindən doğdurmuş... Onlara türk adını bizzat kəndisi vermiş...»

Hüseyn Cavid milli elmin, yəni türkolojinin ilk qurucusu adlandırılan Mahmud Kaşqarlının «Divani-lüğət it-türk»ündə söylədiyi bu həqiqətlərə XX yüzil ədəbiyyatımızda əzəl başdan inanmış nadir ədəbi şəxsiyyətlərimizdən biriydi və soyunu, əsalətini bildirən bu möhtəşəm inanca sona qədər də sadiq qaldı.

...Kaşqarlının Divanında saysız sözlər var ki, bu gün dilimizdə işlənmir və onları işlətməyə heç ehtiyac da yoxdur. Çünki imperatorluq dilində danışmağımız səbəbindən biz zaman-zaman bu sözlərin ortağını qazanmışıq və qazandığımız həmin sözlərə ruhumuzun musiqisini verib onları türkcələşdirmişik.

Cavid o unudulmuş sözlərə qayıdıb tutaq ki, «Hey fələk keçdi zaman dalğa kibi» misrasında «Hey»in əvəzinə «Aç», zamanın əvəzinə «ödlek» işlətsəydi, nə olardı? Amma o, türkcənin musiqisini yaradan bir şairdi, hansı mənşədən - istər ərəb, fars, istərsə də qədim türk dili qaynaqlarından gəlmələrinə baxmayaraq, sözlər Cavidin dilində ruhumuzun musiqisini kəsb edir və birdəfəlik türkcələşirdi.

Əslində bəzilərinin qəbul etməyə cəsarət göstərmədiyi bu dilin mənşəyi çox uzaqlardan gəlirdi. Hüseyn Cavid iyirminci illər mühitinin çərçivəsində tutaq ki, Peyğəmbərə Yalavac deməsini anası Umileyladan yox, türk dilinin uzaq keçmişindən, türk zehniyyətinin ana kitablarından (məs. «Yalavac Aleyhis-Selam...» Balasaqunlu Yusif. «Qutadqu-Bilik») öyrənmişdi: Necə ki, vaxtı ilə Yəhya Kamal Bayatlı anasından eşitdiyi doğma sözlərin deyil, anasının oxuduğu «Məhəmmədiyyə»nin* təsirilə türk dilində Tanrı sevdasının ecazına qovuşmuşdu.

Cavidin hələ çox gənc yaşlarında böyük sevgilərlə: «Onun məsləki bu idi daima: İşdə birlik, dildə birlik, fikirdə birlik. İş, fikir, dil birliyi olmayınca Əvət, pək çətindi cihanda dirlik» - deyə vəsf etdiyi böyük İsmayıl bəy Qaspıralı: «... Türkcə yazan Şəmsəddin Sami bəyin lisanı daha böyük lisandır... Saminin lisanı ta Təbrizə, Xorasana qədər işləyir...» (13:95)- yazırdı. Türkçülüyün böyük qurucularından biri Yusuf Akçura da İsmayıl bəyin həmin qənaətlərini bölüşürdü.(14.130)

Unutmayaq ki, Cavidin işlətdiyi və faydalandığı lüğətlərdən biri də İsmayıl bəyin nişan verdiyi həmin «Qamusi-türki» idi.

«Qamusi-türki»ni isə Sami bəyin ortaq türkcənin qorunması naminə yaratdığı elmi fəzilət abidəsi kimi qəbul etməliyik. Sami bəy, 1910-cu ildə «Qamusi-türki»nin «İfadeyi məram»ında yazırdı: «...Şərq türkcəsi ilə Qərb türkcəsi arasındakı fərq, zənn olunduğu kimi italyanca ilə latınca və ya ispanca ilə fransızca arasındakı fərq qədər, yəni bu iki türkcədən hər birini digərindən büsbütün ayrı özbaşına bir lisan hesab edəcək dərəcədə olmayıb, bu fərq ancaq şimali ilə cənubi almanca və ya Toskana italyancası ilə Napoliten italyancası, yaxud Misir ərəbcəsi ilə Məğrib ərəbcəsi arasındakı fərq dərəcəsindədir; və Şərq türkcəsiylə Qərb türkcəsi bir tək lisandır, ikisi də türkcədir».(15.I:2)

Burada qeyd etməmək ədalətsizlik olardı ki, sonralar Cavid mətnlərinin bərpası bilavasitə Turan Cavidin redaktəsi ilə gerçəkləşdi və Turan Cavidin toxunmadığı,

daha doğrusu, siyasi hakimiyyətin nəzarəti altında 1990-cı illərin sonuna qədər nəşr olunmuş bütün variantlar bu və ya digər dərəcədə zədəli və Cavidin dilini dürüst tədqiq etmək üçün imkan verməyəcək bir durumdadır, mətnlər Cavid mətnlərinə ümumiyyətlə, ziddir. Onu da xatırlatmalıyam ki, Turan Cavid Hüseyn Cavidin dilini, əsərlərinin mətnini bərpa edərkən, daha çox istinad etdiyi mənbə Şəmsəddin Saminin «Qamusi-türki» əsəriydi.

Cavidin dili ilə bağlı danışarkən bir məsələni də unutmaq olmaz ki, yuxarıda xatırlatdığımız kimi, 1937-ci ildə Cavidi eyni zamanda, müsavatçı olduğuna görə ittiham edirdilər. Hüseyn Cavid isə rəsmən heç bir siyasi qurumun, o cümlədən «Müsavat»ın sıralarında olmamışdı, hətta 31 mart 1937-ci il tarixli istintaq dindirilməsi zamanı «Müsavat» partiyasına, onun rəhbəri Məhəmməd Əmin Rəsulzadəyə münasibətiniz necə olub?» - sualına Cavid: «O vaxt mən «Müsavat» partiyası və onun başçısı Rəsulzadə ilə heç bir əlaqədə olmamışam» - cavabını vermişdi. Hətta əski hökumət yetkililərindən, indi isə Cavidlə birgə eyni maddələrlə ittiham olunan Ruhulla Axundov da öz ifadəsində Cavidin rəsmən «Müsavat» partiyası sıralarında olmadığını təsdiq edirdi: «Müsavatçılar onu Şərqin Şekspiri adlandırırdılar. Hüseyn Cavid bu titul naminə sonacan mübarizə apardı. Hüseyn Cavid bir də ona görə qorxulu düşməndir ki, müsavatın hakimiyyəti illərində rəsmən «Müsavat»ın qərargahına daxil deyildi, sovet hakimiyyəti illərində isə onlara qarşı bir şey yazmaqdan imtina edirdi, səbəb olaraq isə onu göstərirdi ki, siyasətdən heç bir şey anlamır və buna görə də siyasi məsələlərə qarışmır».(16) Doğrudur istintaq materiallarının içərisində bu gün tədqiqata ciddi əsas verən maraqlı məqamlar çoxdur. Bu proseslərdə ifadə olunmuş hər bir ifadənin zor və təzyiq altında alınması məlumdur. Amma yenə də tarixi araşdırmaq naminə tutaq ki, Mikayıl Talıbzadənin ifadəsindəki məqamlara diqqətlə nəzər yetirilməsini, məsələnin elmi-tarixi aspektdə araşdırlması üçün məqbul hesab etmək olar: «...Şəkixanovun və Sadıq Şirinovun sözlərindən mənə məlumdur ki, «Müsavat» partiyasının lideri Məhəmməd Əmin Rəsulzadə Azərbaycanda müsavat təşkilatı ilə əlaqəsini və rəhbərliyini professor Əliyev və yazıçı Hüseyn Cavid vasitəsilə həyata keçirirdi. Bu mənbələrdən də mənə məlumdur ki, Nuxa rayonunun Aşağı Köynük kəndində buraxılan gizli «Müsavat» qəzetinin rəhbəri bu qəzeti tez-tez Türkiyədən gələn materiallarla təmin edən yazıçı Hüseyn Cavid olmuşdur».

Hüseyn Cavid təqib etdiyi dil siyasəti baxımından müsavatçıydı. Milli Azərbaycanın ideyasının təmsilçisiydi. Onun ədəbi dil siyasəti müsavatın ədəbi dil sahəsində yürütdüyü siyasətə tamamilə cavab verirdi.

Köprülü yazır: «Bu milliyyətci firqə orta və yüksək təhsildə İstanbul türkcəsinin kullanılmasını istəmək surətiylə, vaxtıyla Əli bəy Hüseynzadə tərəfindən irəli sürülən fikirləri tətbiq etmək qərarında olduğunu göstərmişdir». (17.II.147)

Bu baxımdan, İstanbul türkcəsini dil siyasətinin təməlinə oturuşduran müsavatcı Məhəmməd Əminlə Azərbaycan səhnəsinə İstanbul türkcəsində danışan obrazlar silsiləsini çıxaran Hüseyn Cavid eyni cəbhənin - Əli bəy Hüseynzadə məktəbinin təmsilçisiydi. Onu da qeyd etməliyik ki, Cavidin 1937-ci il istintaq dindirilməsi zamanı onun suçlandırıldığı amillərdən biri də elə bu İstanbul türkcəsi məsələsi olmuşdu.

A.B.Ercilasun «Cavidin bizim üçün ən önəmli xüsusiyyəti əsərlərini Türkiyə türkcəsi ilə yazmış olmasıdır» (18. 252) - deyir. Lakin söhbət Türkiyə türkcəsindən getmirdi. Hüseyn Cavid İsmayıl bəy Qaspıralı tərəfindən başlanan, Əli bəy Hüseynzadə tərəfindən davam etdirilən bir dil siyasətinin ardıcılıydı. Amma Osmanlı ədəbi dilini tətbiq edən Əli bəydən fərqli olaraq Cavid İstanbul ədəbi türkcəsinin

Azərbaycan şivəsi ilə qaynayıb-qarışmasını təmin etdi. İstanbul türkcəsi dediyimiz dil isə ortaq ədəbi türkcənin təminində ən əsas faktor idi.

Azərbaycan türklərində milli şeir, əslində isə milli dil axınının ilk rüşeymlərini, ərəb-fars tərkiblərindən nisbətən arıdılmış poeziya nümunlərini ortaq türk dili birliyinin ilk ideoloqlarından biri İsmayıl bəy Qaspıralı müşahidə etmişdi:

«Zaqafqaziya və Azərbaycan türklərində şeirə ziyadə həvəs olub pək çox «milli şairlər» yetişdirdilər. Təsiri məkanmı, yoxsa təsiri İranmı, hər necə olubsa, Azərbaycan türklərinin milli şeir və şairləri türk cinsinə mənsub xalqların cümləsindən ziyadə olub, hətta osmanlılardan irəli çıxmışlar. Osmanlılarda süni şairlər olmuşdur... Bu Azərbaycan xüsusunda böyük bir cild kitab yazılsa mahal və münasibəti var...» (13.253)

Ümumtürk ədəbiyyatında milli dilə daha böyük əhəmiyyət verən milli şairlərin ilk pleyadasını İsmayıl bəy Qaspıralı Azərbaycan türklərinin ədəbiyyatında müşahdə edirdi.

Milli şeir hər şeydən əvvəl ümumi milli rəmzlərinə - dilinə, ritminə, ahənginə, məfkurə siqlətinə və s. görə milli şeirdir. Məhz bu baxımdan da 1917-ci ilin Cavidi daha ehtişamlı və daha milliyyətçidir. «Qoca bir türkün vəsiyyəti» şeri ilə o, türk milli ədəbi-ideolojisinin - Namik Kamal, Məhəmməd Əmin Yurdaqul məktəbinin ilk ardıcıllarındandır. Şairlik dərəcəsinə görə isə Yurdaquldan daha üstün məziyyətlərə sahibdir...

KAYNAKÇA:

1 Cəlil Məmmədquluzadə: «Əsərləri» C: III Bakı - 1967
2 Hüseyn Cavid: Əsərləri V cilddə Bakı - 2005
3 Türkəqul Mustafa Haqqı «Azərbaycan türk şairi Hüseyn Cavid». Bakı - 2002
4 Fuad Köprülü: Edebiyat araştırmaları, c.1. 2. Ötüuken, İstanbul - 1989
5 Cəfər Cabbarlı: «Ədirnə fəthi» Bakı - «Elm» 1996
6 Toğan Zəki Velidi «Planlı dil çalışması». «Çağdaş ədəbiyyat» kitabında. səh. 406-412.
7 Banarlı Nihat Sami «Türkcenin sırları». İstanbul - 1982
8 «Tvorçeskaə xarakteristika Quseyn Djavid Rasi-zade». 8 fevralə 1956 q.
9 Azər Turan: «Turan Cavid. Son söhbəti... son yaşantıları... son günü» Bakı - 2005
10 Əkrəm Cəfər «Yazıçı» nəşriyyatının direktoru hörmətli Əjdər Xanbabayevə məlumat». «Şəhriyar» qəzeti, 29 avqust 1996.
11 Hüseyn Cavid: «Keçmiş günlər». Tiflis - 1913
12 Ahmet Kabaklı «Sultanüş-şuara Nəcib Fazil» İstanbul - 1995
13 Seydahmet Cafer Krımer: Gaspıralı İsmail bey. İstanbul
14 Yusif Akçura: «Türkçülüyün tarixi» Bakı - 2006
15 Şəmsəddin Sami: «Kamus-ı türki» C:III Dersaadet. İstambul - 1317
16 Ruhulla Axundovun 4 aprel 1938-ci il tarixli istintaq ifadəsi
17 İslam Ansiklopedisi C: XIII İstanbul Milli Eğitim Basımevi 1979
18 Ahmet B. Ercilasun «Hüseyn Cavid ve Türkiye türkcesi». «Türk dünyası üzerine makalaleler-incelemeler»

ÜÇ FARKLI DÖNEMİN ŞAİRİ: BAHTİYAR VAHABZADE - Dr. Erdal KARAMAN[52]

Fikirlerinin Şekillenmesi:

Vahabzade'nin eserlerinde birbirinden farklı üç dönemin izlerini görmek mümkündür. Şairin çocukluk yılları, Sovyetlerin Azerbaycan'da hâkimiyet kurmak için vermiş olduğu mücadelelerin en kesif olduğu döneme denk gelir. Doğup büyüdüğü şehir Şeki'de yönetime isyan eden binlerce insan Sovyet askerleriyle mücadele eder. Sovyet yönetimine boyun eğmeyen, baş kaldıran Şekililer mücadelesini, 1945 yılına kadar sürdürür. Hadiseleri çocuk merakı ve hissiyle anlamaya çalışan Vahabzade, çocuk yaşlarında şahit olduğu hadiselerin mahiyetini daha sonraki dönemlerde daha iyi anlayacaktır.

İkinci dönem ise, şairin, güzel eselerin altına imza attığı, dünyada olup bitenleri idrak ettiği bir dönemdir. Bu dönemde Sovyet ideolojisini tenkit etmeye başlar. Bahsedilen devir şairin bitmez tükenmez mücadeleler verdiği yıllardır. Sovyetler Birliği döneminde o, kırk ikindi yağmurlarını hatırlatan bir çizgide hayatını idame ettirmek zorunda kalır. Bazen yüzü güler, bazen düşüncelidir, bazen de yazdığı bir eserden dolayı sorguya çekilir.

Üçüncü dönem ise, şairin olgunluk dönemi diyebileceğimiz, yeniden yapılanmanın Sovyetleri darmadağın ettiği, diğer Türk cumhuriyetleri gibi, Azerbaycan'ın da bağımsızlığına kavuştuğu yıllardır. Ne yazık ki, şairin bu dönemde de yüzü gülmez. Bağımsızlığın eşiğinde bu defa genç cumhuriyet kendisini savaşın içinde bulur. Bu dönemde Azerbaycan halkı Karabağ için mücadele verir. Karabağ savaşında Azerbaycan binlerce gencini şehit verirken, yüz binlerce Karabağlı da mülteci durumuna düşer. Bu savaşta ülke topraklarının yüzde yirmisi işgale uğrar.

Bahsedilen üç dönemi de idrak eden şair, ülkesindeki gelişmelere karşı bigane kalamaz. Azerbaycan'da oynanan oyunlar onun eserlerinde aksi seda bulur. Halkın aydınlanması, milli, manevi değerlere karşı yapılan tahriplere karşı bilinçlenmesi için kalemini ustaca kullanır. Bazı mısralarında şair, 1930'lu yıllarda okul yıllarını hatırlayıp çocukken yaşadığı güzel günlerin özlemini çekerken, bazılarında ikinci dünya savaşına katılan bir askerin çektikleri sıkıntıları, kendisi savaşa katılmış gibi anlatır. Bazı şiirlerinde de, baskı ve şiddetin en yoğun olduğu dönemde, kafese hapsedilmiş bir kuş misali, azatlık günlerinin geleceği günleri hasretle bekler. O, halkının haletiruhiyesini eserlerine taşıyan bir şair olması yanında, toplumun sorunlarıyla yakından ilgilenen, problemlerin halli için tavsiyelerde bulunan bir aksakaldır.

Vahabzade'nin fikirleri; doğup büyüdüğü muhitin örf ve adetleri, çocukken şahit olduğu hadiselerin tesiriyle şekillenirken, çektiği sıkıntıların ve ıstırapların vasıtasıyla kemale erer.

Şiirleri:

Şiiri, çocukluk döneminde kafiyeli, ahenkli söz söyleme merakından doğan bir heves olarak vasıflandıran Vahabzade, şiir denilirse, diye nitelendirdiği ilk eserini ilkokul dördüncü sınıfta yazar. Çocukken Vahabzade'nin ilgisini şiir kitaplarından daha çok nesir kitapları çeker. Nesir ve şiirin bir arada bulunduğu kitaplarda da şiir

[52] Qafqaz Üniversitesi, Öğretim Üyesi

kısmını atlar, nesir olan bölümleri okur. Şiirde verilmek istenilen mesajın uzatıldığını belirten şair, meramın nesirle daha kısa yoldan ifade edileceğine inanmakta, kendisinin bir şair olarak yetişmesinde şiirden çok, nesrin önemli rol oynadığını dile getirmektedir.[53]

Onun şiire ilgi duymasında ortaokul öğretmeni İbrahim Cafer, önemli rol oynamıştır. Cafer, küçük Bahtiyar'a şiiri sevdirir. Vahabzade'nin neşredilen ilk şiiri ″Ana ve Şekil″ 1943 yılında yayınlanmıştır. Bundan sonra şiirleri muntazam olarak dergi ve gazetelerde çıkmaya başlar. O, 1945 yılında ''Yazıcılar İttifakı''na üye olur.

